Bu kitab Azərbaycan xalqının Ümummilli Lideri, ölkənin yeni müstəqil neft-qaz strategiyasının banisi Heydər Əliyevin xatirəsinə dərin hörmət və minnətdarlıq hissi ilə Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə qeyd edilən "Heydər Əliyev İli"nə bp şirkətinin hədiyyəsidir.

İLHAM ŞABAN

# "ŞAHDƏNİZ"

## Azərbaycanın ən iri qaz yatağının işlənilməsinə dair icmal, 1996-2022

FAKTLAR, SƏNƏDLƏR VƏ RƏQƏMLƏR TOPLUSU

TEAS PRESS


SHAH DENIZ

"Allah Azərbaycan xalqına zəngin sərvətlər bəxş etmişdir. Bizim borcumuz, vəzifəmiz bu sərvətlərdən ehtiyatla istifadə etmək, eyni zamanda bu yataqları ardıcıl olaraq aşkara çıxarıb hərəkətə gətirmək, onlardan müstəqil respublikamızın inkişafı, xalqımızın rifahı naminə istifadə etməkdən ibarətdir. Hamı bilməlidir ki, belə müqavilələrin hazırlanması və onları imzalamaq haqqında qərarlar qəbul edilməsi çox böyük əmək, eyni zamanda böyük iradə tələb edir".

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
4 iyun 1996-cı il

""Şahdəniz-2" layihəsi enerji təhlükəsizliyi layihəsidir. Hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyindən ayrılmazdır. "Şahdəniz" layihəsinin imzalandığı 1990-cı illərdə bu belə deyildi. Bu gün isə bu artıq reallıqdır. Enerji təhlükəsizliyinin əsas elementlərindən biri təbii qazdır. Bu səbəbdən enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi Azərbaycan kimi istehsalçı ölkə, həmçinin tranzit və istehlakçı ölkələr üçün eyni dərəcədə vacibdir. Bizim enerji strategiyamız dostluq, əməkdaşlıq və qarşılıqlı dəstəyə əsaslanır. Tariximizdə Azərbaycan heç bir zaman öz enerji potensialını digər məqsədlər üçün istifadə etməmişdir".

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
17 dekabr 2013-cü il

""Şahdəniz" layihəsi XXI əsrin ikinci yarısında da qaz ehtiyaclarını təmin edəcəkdir. Bu bizim sənayemiz üçün də çox mühüm bir hadisədir. Bu təkcə nəhəng bir layihə deyildir. Bu, misilsiz bir layihədir. Ona görə ki bu bizim sənayedə tətbiq edilən ən son texnologiyaların ilk dəfə istifadə edilməsi olacaqdır".

**Robert Dadli**
BP şirkətinin baş icraçı direktoru
17 dekabr 2013-cü il



"Mən həmişə demişəm ki, bizim neft strategiyamız, imzaladığımız bütün bu müqavilələr Azərbaycanın gələcəyi üçündür. Mən burada çox zəhmət çəkmişəm. Ancaq düşünürəm ki, bunların hamısının nəticəsini şəxsən mən görməyəcəyəm. Çünki hər insanın ömrünün bir həddi var. Ancaq bu məni darıxdırmır. Çünki bunu mən özüm üçün etmirəm. Mən bunu xalqım, millətim üçün, gənclərimiz üçün, Azərbaycanın gələcəyi üçün edirəm. Gələcək də bax burada görünür!"

**Heydər Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
7 may 2001-ci il

İlham Şaban
“Şahdəniz”
*Azərbaycanın ən iri qaz yatağının*
*işlənilməsinə dair icmal, 1996-2022*
*Faktlar, sənədlər və rəqəmlər toplusu*

Layihə rəhbəri: *Ülkər Hüseynova*

Nəşriyyat redaktoru: *Famil Cəfərli*

Texniki redaktor: *Vüsalə Babayeva*

Korrektor: *Flora Əliyeva*

Dizayner: *Mahir Allahverdiyev*

Üz qabığının dizaynı: *Sevinc Ələkbərova*

Çapa məsul: *Rəşad İsmixanov*

Bakı, TEAS Press Nəşriyyat evi, 2023, 164 səh.
ISBN 978 9952 563 63 4

*Kitabın məzmununa və burada istifadə olunan*
*fikir və mülahizələrə görə bp məsuliyyət daşımır.*

www.teaspress.az

Bütün hüquqlar qorunur.

© TEAS-Press Nəşriyyat evi, 2023

# MÜNDƏRİCAT


BP-nin 114 illik tarixinin ən böyük qaz yatağı (*Bəxtiyar Aslanbəyli*) .... *xi*
*Ön söz* .... *xvii*
*Müqəddimə* .... *xix*

I FƏSİL. AZƏRBAYCAN QAZININ SALNAMƏSİ

“Şahdəniz” layihəsi haqda əsas faktlar .... 1
Qaz tariximiz haradan başlayır? .... 2
Azərbaycan nə zamandan qaz ixrac edən ölkə olub? .... 5
Azərbaycan sovet dövründə qaz tranzit respublikası rolunda .... 6
Qaz statistikası .... 9

II FƏSİL. “ŞAHDƏNİZ” LAYİHƏSİNƏ GEDƏN YOL

“Şahdəniz” strukturu haqda .... 11
“Şahdəniz” layihəsinin tarixçəsi .... 12
Xarici şirkətlərdə “Şahdəniz” layihəsinə maraq necə yarandı? .... 16

III FƏSİL. “ŞAHDƏNİZ” MÜQAVİLƏSİNİN İMZALANMASI

Müqavilə nələri nəzərdə tutur? .... 19
Müqavilənin imzalanma mərasimi .... 20

IV FƏSİL. “ŞAHDƏNİZ” MÜQAVİLƏSİNİN İCRASI

Konsorsium iş planını hazırlayır .... 31
BP/“Statoil” alyansının Bakıda yeni ofisinin açılışı .... 37
“İstiqlal” qazma qurğusunun işə salınmasına həsr olunmuş mərasim .... 40
“Şahdəniz” yatağı necə kəşf edildi? .... 50
“Şahdəniz”də əldə edilmiş nəticələrin təqdimatı .... 53

"Şahdəniz-1" üzrə yekun investisiya qərarının verilməsi ........... 90
TPG-500 özüqalxan platformasının tikintisinin başa çatması ........... 91
Tikintisi ilk dəfə 100 faiz Azərbaycanda həyata keçirilən layihə ........... 93
"Şahdəniz-2" qazının Avropa alıcıları ilə alqı-satqısına dair sazişlərin imzalanması ........... 100
"Şahdəniz-2" üzrə yekun investisiya qərarının verilməsi ........... 102
"Mərhələ-2" üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yolasalma mərasimi ........... 118
"Şahdəniz-2" layihəsi çərçivəsində Türkiyəyə qaz nəqli ........... 124
"Şahdəniz" müqaviləsindən əldə edilən mənfəət ........... 125

YEKUN ........... 127
ƏLAVƏLƏR ........... 131
İSTİNADLAR ........... 139
İNDEKS ........... 141

# BP-nin 114 İLLİK TARİXİNİN ƏN BÖYÜK QAZ YATAĞI

"Şahdəniz"in qısa tərifini verəsi olsaq, deyə bilərik ki, bu, Azərbaycanın ən böyük qaz yatağıdır. Dünya enerji sənayesi baxımından isə "Şahdəniz" belə görünür – qlobal neft və qaz sənayesinin indiyə qədər həyata keçirdiyi ən böyük və ən mürəkkəb layihələrdən biri... Hər ikisi doğrudur; bu, həqiqətən, nəhəng bir yataqdır və möhtəşəm bir qaz işlənilməsi layihəsidir.

"Şahdəniz"ə aid hər şey heyrətamizdir. 1996-cı ilin yayında müqavilə imzalananda heç kim təxmin edə bilməzdi ki, cəmi üç il sonra, yəni 1999-cu ildə bu layihə çərçivəsində dünyanın ən böyük qaz-kondensat yataqlarından biri kəşf ediləcək. İlkin geoloji ehtiyatlarına görə 1 trilyon kubmetrdən çox qaza və 2 milyard barel kondensata malik bu dünya səviyyəli yataq BP-nin 114 illik tarixində aşkar edilmiş ən böyük qaz yatağıdır.

Dünyada çox az layihə tapılar ki, bir ölkənin gələcəyini müəyyənləşdirmək və bir regionun enerji landşaftını dəyişmək gücündə olsun. "Şahdəniz" məhz bu cür layihələrdəndir.

"Şahdəniz" layihəsi həm də "Azəri-Çıraq-Günəşli"dən (AÇG) sonra Azərbaycana yatırılan ikinci ən böyük birbaşa xarici sərmayədir. Bu da son iyirmi il ərzində ölkə iqtisadiyyatının daha da güclənməsinə ciddi bir dəstək olub. Hətta deyərdim ki, bu mənada "Şahdəniz" ölkənin və bütün regionun görünməmiş dirçəlişinə, inkişafına və artımına nəhəng təkan verərək, Azərbaycanın qürur duyulan enerji tarixində AÇG qədər rol oynayıb. Bu iki layihə birlikdə, əslində, ölkə tarixində yeni bir səhifə açaraq Azərbaycanın müstəqillik qazanandan sonra əldə etdiyi iqtisadi dirçəlişin möhkəm təməlini qoyub.

"Şahdəniz" layihəsinin 25-ci ili isə başqa bir tarixi hadisə ilə üst-üstə düşdü – Azərbaycanın təbii qazının ilk dəfə olaraq Avropa bazarlarına birbaşa çıxışı ilə əlamətdar oldu.

Azərbaycan, demək olar ki, iki əsrdir bütün dünya üçün neft və qaz hasil edir və faktiki olaraq dünya neft sənayesinin beşiyidir. Lakin Azərbaycan ilk dəfədir ki, Avropaya birbaşa bağlanıb və bu, "Cənub Qaz Dəhlizi"nin giriş qapısı olan "Şahdəniz"in sayəsində mümkün olub.

Amma "Şahdəniz"in əhəmiyyəti təkcə ölkə və regionla məhdudlaşmır. Onun çox böyük qlobal əhəmiyyəti var. Azərbaycan Prezidenti İlham Əliyev bir dəfə "Cənub Qaz Dəhlizi" haqqında dedi ki, o, Avropanın enerji xəritəsini dəyişəcək, Azərbaycan və region ölkələri üçün əlavə imkanlar açacaq.

Bu fikirlər eynilə "Şahdəniz" layihəsinə də aid edilə bilər – "Şahdəniz" bir çox ölkələrin, xüsusən də regional enerji mərkəzi kimi Türkiyənin və Avropa İttifaqının bəzi ölkələrinin enerji qovşağına çevrilməsində mühüm rol oynayıb.

Bildiyimiz kimi, Avropa İttifaqının nisbətən az qaz ehtiyatı var. Faktiki olaraq təkcə Azərbaycanda olan qaz ehtiyatları Avropanın ümumi qaz ehtiyatlarının 75%-dən çoxuna bərabərdir. Buna görə də Avropanın Azərbaycan qazının təchizatına çıxış əldə etməsi böyük əhəmiyyət daşıyırdı və bu gün "Şahdəniz" həmin təchizat həcmlərinin əsas mənbələrindən biridir. Bu da Azərbaycanı Avropa İttifaqının enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verən etibarlı enerji tərəfdaşına çevirir.

"Şahdəniz"in Xəzərə gətirdiklərini isə, heç şübhəsiz, texnoloji inqilab adlandırmaq olar, yəni texnologiya baxımından son nailiyyətlərə söykənən tam yenilikçi bir layihədir. Bu mənada onun sənaye üçün əhəmiyyəti əvəzsizdir. Xüsusən də "Şahdəniz-2" layihəsi çərçivəsində tətbiq edilən texnologiyalardakı çoxsaylı sənaye yeniliklərini nəzərdə tuturam.

Məsələn, layihə çərçivəsində 10 sualtı manifoldu və 26 sualtı quyunu birləşdirən 500 kilometrlik axın xətlərindən ibarət çox böyük bir sualtı hasilat sistemi quraşdırılıb.

Bundan əlavə, bu sualtı hasilat mərkəzində beş cinah boyunca özül konstruksiyalarından, çoxsaylı birləşmə və fittinqlərdən,

idarəetmə xətti üçün nəzərdə tutulmuş sualtı elastik kabellərdən və üç nəqletmə boru kəmərindən (qaz, kondensat və su) istifadə olunur.

Bu sualtı konstruksiyalar ən müasir texnologiyaya əsaslanır. Onlar dünyanın ən çətin və mürəkkəb qazma şəraitlərindən biri kimi tanınan "Şahdəniz" üçün məxsusi olaraq layihələndirilib və inşa edilib. Bu konstruksiyalar yataqdakı yüksək təzyiqlərin və axın sürətinin son dərəcə mürəkkəb xüsusiyyətlərinin öhdəsindən gəlmək gücündədir.

Digər bir misal kimi təzyiqə qarşı yüksək etibarlılığa malik qoruyucu klapanları (HİPPS) göstərmək olar. "Şahdəniz" yatağında dəniz dibində aktiv palçıq vulkanları və yumşaq qrunt kimi geoloji təhlükələr mövcuddur və bunlar da əməliyyatları son dərəcə çətinləşdirir. Dəniz dibinin altındakı geoloji mühit isə daha da mürəkkəbdir. Beləliklə, HİPPS sistemi dünyanın ən yüksək təzyiqlərindən birinə malik və dəniz səviyyəsindən altı kilometrdən aşağıda yerləşən yataqda bu çətinlikləri dəf edə bilir. Məsələn, HİPPS klapanı cəmi 15 saniyə ərzində bağlana bilir ki, bu da əməliyyatların təhlükəsizliyi üçün çox vacibdir.

"Şahdəniz"in qurudakı obyektlərində də bəzi unikal texnologiyalar tətbiq olunur. Səngəçal terminalındakı "Şahdəniz" qurğusu karbon tullantılarını azaltmağa kömək edən istiliyin utilizasiyası texnologiyasından istifadə edir və bu da təmiz ətraf mühit səylərinə ciddi dəstəkdir. Bu texnologiya fiziki olaraq kompressorların qaz turbinlərinə bərkidilmiş innovativ qurğulardan ibarətdir; bu qurğular qaz turbinindən çıxan işlənmiş qazı tutaraq təkrar emaldan keçirir və ondan terminalı istiliklə təmin etmək üçün istifadə edir.

Bunlar "Şahdəniz"in qlobal enerji sənayesində necə bir lider olduğunu göstərən, sadəcə, bir neçə nümunədir. Səmərəli şəkildə işləyən bir çox digər nümunələr də var və inanıram ki, zamanla daha çox nümunələr görəcəyik.

Bir az da "Şahdəniz"dəki hazırkı vəziyyətdən danışmaq istərdim. Biz operator olaraq, həqiqətən də, çox məmnunuq ki, bu gün "Şahdəniz"in uğur hekayəsi daha sürətlə və daha böyük uğurla davam edir. Layihə regional və Avropa bazarları qarşısındakı bütün öhdəliklərini yerinə yetirməyə qadirdir və çox yüksək iş

icrası nümayiş etdirir. Hasilat ən yüksək sabit səviyyəyə doğru möhkəm irəliləyir.

İndi əsas diqqətimizi "Şahdəniz-2"də yeni cinahların işə salınması üçün qalan sualtı tikinti fəaliyyətlərinə və qazma proqramına yönəltmişik. 2021-ci ildə layihə üzrə planlaşdırılan ən mühüm bir iş uğurla tamamlandı – dənizin 540 metr dərinliyində yerləşən Şərq-Cənub cinahından hasilat başladı. Bunun üçün bütün işlər təhlükəsiz, qrafikə uyğun və planlaşdırılmış büdcə daxilində icra olundu. Bu cinahdan hasilat səviyyəsinin artması nəticəsində 2021-ci ilin iyul ayında ilk dəfə olaraq "Şahdəniz Bravo" platformasından gündəlik hasilat "Şahdəniz Alfa" ilə bərabərləşdi. Bundan sonrakı dövrdə isə yataqdakı daha yüksək hasilat "Şahdəniz Bravo" platformasına məxsus olacaq.

Gələcəyə nəzər salsaq, "Şahdəniz" üzrə hasilatın pay bölgüsü sazişinin müddəti 2048-ci ilə qədər uzadılıb və bu, investorlara yatağın işlənilməsini daha da genişləndirməyə, bu nəhəng yataqdakı perspektiv strukturlarda əlavə kəşfiyyat və qiymətləndirmə işləri aparmağa imkan verir.

Beləliklə, "Şahdəniz" yatağının işlənilməsi gələcək onilliklər ərzində də enerji təchizatının uğurla davam etdirilməsinə imkan verəcək.

"Şahdəniz"in ilk başlanğıcdan vəd etdiyi bütün gözləntiləri gerçəkləşdirdiyini gördükdə biz dünya üçün böyük əhəmiyyət daşıyan və Azərbaycan üçün böyük strateji önəmi olan bu möhtəşəm layihənin bir parçası olmağımızdan böyük qürur duyuruq.

"Şahdəniz"in uğuru ona cəlb olunmuş bütün tərəflərin birgə nailiyyətidir və ən əsası da Azərbaycan hökumətinin və şəxsən Prezident İlham Əliyevin nailiyyətidir.

Bu elə nəhəng miqyaslı, elə mürəkkəb bir layihədir ki, onu yalnız kollektiv şəkildə həyata keçirmək mümkün idi. Bu layihə yalnız Azərbaycan Prezidentinin, Azərbaycan hökumətinin, digər regional və Avropa hökumətlərinin, SOCAR-ın, digər milli və beynəlxalq təşkilatların, tərəfdaşların və podratçı şirkətlərin, icmaların, "Cənub Qaz Dəhlizi" boyunca bir çox ölkələrdə həyata keçirilən əməliyyatlara və tikinti işlərinə cəlb olunmuş on minlərlə insanın böyük səyləri sayəsində gerçəkləşib.

Biz birlikdə bu layihəni qlobal miqyasda bütün maraqlı tərəflərə fayda verən və gələcək uzun illər ərzində də faydalar gətirəcək ən uğurlu tərəfdaşlıqlardan birinə çevirmişik. Bu möhtəşəm layihə ona cəlb edilmiş bütün tərəflərin təcrübəsini və resurslarını bir araya gətirib və bu müddətdə dəstəyinə, tərəfdaşlığına və iştirakına görə onların hamısına təşəkkür edirik.

*BP şirkətinin Xəzər regionunda kommunikasiya*
*və xarici əlaqələr üzrə vitse-prezidenti*
***Bəxtiyar Aslanbəyli***

# ÖN SÖZ

Bu kitab Xəzər dənizində indiyə qədər kəşf edilmiş ən böyük təbii qaz yatağı, sözün əsl mənasında, yataqların şahı hesab edilən "Şahdəniz" yatağının kəşfi və işlənilməsinə, onun resurslarının dünya bazarlarına çıxarılması üçün uzun illər aparılan mürəkkəb danışıqlara və Azərbaycan kimi qədim neft tarixinə malik olan ölkənin XXI əsrdə adını dünyanın önəmli qaz ixrac edən ölkələri sırasına həkk etməsinə həsr olunub və yataqdan çıxan qazın Avropa bazarlarına çatdırılması üçün inşa edilmiş nəhəng qaz infrastrukturu – "Cənub Qaz Dəhlizi" layihəsinin bütün biznes zəncirində təmsil olunmuş BP şirkətinin maliyyəsi ilə işıq üzü görüb.

"Şahdəniz" yatağının kəşf edilməsi və sonradan onun resurslarının mərhələli şəkildə bazarlara çıxarılması Azərbaycanın enerji sektorunda yeni inkişaf mərhələsinə daxil olan qaz sənayesinin XXI əsrdə əldə etdiyi ən böyük nailiyyətdir. Azərbaycan quruda yerləşən yeni qaz obyektlərinə, dəniz qurğularına və ixrac infrastrukturuna malik olmaqla yanaşı, bunların hamısını öz dövrünün qabaqcıl texnologiyalarından istifadə etməklə beynəlxalq standartlara uyğun layihənin həyata keçirilməsi ilə gerçəkləşdirə bildi.

Bu irimiqyaslı layihənin həyata keçirilməsi həm Azərbaycan, həm də layihədə təmsil olunan şirkətlər, o cümlədən "Şahdəniz" yatağının işlənilməsinə operatorluq edən BP şirkəti üçün əlamətdar hadisədir. Çünki bu layihə bütün maraqlı tərəflərin səyləri nəticəsində əfsanədən reallığa çevrilən və bundan sonra da neçə onilliklər ərzində ətraf mühitə ziyan vurmadan, səmərəli və təhlükəsiz şəkildə işlənilməsi nəticəsində təkcə regionun deyil, həm də Azərbaycandan çox-çox uzaqlarda yerləşən neçə-neçə ölkənin enerji təhlükəsizliyinə töhfə verən bir layihədir.

Bu kitabın nəşri 2023-cü ildə, Azərbaycanda elan edilmiş “Heydər Əliyev İli”ndə Ulu Öndərin yaradıcısı olduğu Azərbaycanın neft strategiyasına bir yubiley hədiyyəsidir.

# MÜQƏDDİMƏ

Azərbaycanın 2007-ci ildə başlayan qaz ixracı bir daha təsdiqlədi ki, "Şahdəniz" yatağının kəşfiyyatı və işlənilməsi layihəsinə dair saziş tarixdə, sadəcə, Azərbaycan hökuməti ilə bir qrup xarici neft şirkətinin birləşdiyi konsorsiumda həyata keçirilən hasilatın pay bölgüsü (HPB) tipli sıradan bir saziş olaraq qalmadı. Bu layihənin inkişafı Azərbaycanı əvvəlcə region ölkələri arasında seçilən ölkəyə çevirdi, daha sonra isə uzaq ölkələrlə onun münasibətlərinin formalaşdırılmasına yol açdı.

Cənubi Qafqaz Boru Kəmərindən başlayan yol sonradan "Cənub Qaz Dəhlizi" kimi nəhəng bir magistrala çevrildi. Onun reallaşması müstəqil Azərbaycanın qarşısına qoyduğu bir hədəf idi. Bu hədəf insanlarda gələcəyə inam yaratdı. Müqavilənin reallaşması müxtəlif millət və ölkələrdən olan insanları bir araya gətirdi. Onlar terminallar tikdilər, boru kəmərləri çəkdilər, platformalar inşa etdilər, Xəzərin dərin qatlarındakı təbii ehtiyatları çıxarmaq üçün müasir texnologiyalar gətirdilər, əvvəlcə neft, sonra təbii qaz çıxartdılar, nəhayət, Xəzər kimi qapalı bir hövzəni dünyanın böyük bazarları ilə birləşdirə bildilər.

Bu təkcə enerjinin zəfəri deyildi, ölkənin qarşıdakı böyük uğurlarının başlanğıcı və Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Azərbaycanın neft strategiyasının təntənəsi idi.

I FƏSİL

# AZƏRBAYCAN QAZININ SALNAMƏSİ

## "Şahdəniz" layihəsi haqda əsas faktlar

- Hasilatın pay bölgüsü sazişi 4 iyun 1996-cı ildə imzalanıb.
- "Şahdəniz" müqaviləsinin ilk səhmdarları 7 şirkət olub:
  – BP (Böyük Britaniya) - 25,5% (texniki operator)
  – "Statoil" (Norveç) - 25,5% (kommersiya operatoru)
  – ARDNŞ (Azərbaycan) - 10%
  – "LUKoil" (Rusiya) - 10%
  – "Elf" (Fransa) - 10%
  – OİEK (İran) - 10%
  – TPAO (Türkiyə) - 9%
- Müqavilə 1996-cı il oktyabrın 17-də qüvvəyə minib.
- 1999-cu ildə qaz-kondensat yatağı kəşf edilib.
- Yataq Bakıdan 70 km cənub-şərqdə, dənizin 50-500 metr dərinliyində yerləşir.
- "Şahdəniz" yatağının "Mərhələ-1" layihəsi üzrə ilk qaz 2006-cı ilin dekabrında hasil edilib.
- "Şahdəniz" yatağının "Mərhələ-1" layihəsi üzrə ilk qaz Türkiyəyə 2007-ci il iyulun 3-də çatdırılıb.
- Azərbaycan qazının Gürcüstan ərazisindən tranzitinə dair saziş 2001-ci ildə 40 il müddətinə imzalanıb və şərtlərə görə, Gürcüstan tərəfinə nəql edilən qazın 5% həcmində tranzit haqqı ödənilir.

- "Şahdəniz" yatağının "Mərhələ-2" layihəsi üzrə ilk qaz 2018-ci ilin iyulunda hasil edilib.
- "Şahdəniz" yatağının "Mərhələ-2" layihəsi üzrə ilk qazın Avropaya ixracına 2020-ci il dekabrın 31-də başlanılıb.
- "Şahdəniz" yatağından 26 avqust 2023-cü il tarixinədək 200 milyard kubmetr təbii qaz və 42,4 milyon ton (342 milyon barel) kondensat hasil edilib. Hasil edilmiş təbii qazın 138,1 milyard kubmetri və bütün kondensat ixrac edilib.
- "Şahdəniz" yatağından 1 iyul 2023-cü il tarixinədək 57,8 milyard kubmetr təbii qaz Azərbaycanın daxili bazarının ehtiyaclarını ödəmək məqsədilə alınıb.

## Qaz tariximiz haradan başlayır?

Azərbaycan nefti haqda müasir ədəbiyyatda kifayət qədər material var. Amma bu heç də neftin sənaye üsulu ilə hasilatının dünyada ilk dəfə bu məkandan başlaması ilə, sonralar uzun illər dünyanın yarı neftinin Abşeron mədənlərində çıxarılması və pulu olanın da, özünü təsdiq etmək istəyən mühəndisinin, aliminin də buralara can atması ilə əlaqədar deyil.

Bəli, bunların hamısı öz təsirini göstərib. Amma Xəzər ətrafında olan neftdən bu hadisələr baş verməzdən minlərlə illər öncə də danışıblar axı – yazı-pozunun olmadığı zamanlardan belə... Bu haqda əfsanələr yaranıb, dildən-dilə keçib. Ona görə də Bakı nefti deyəndə düşünməliyik ki, onun tarixi sanki sonsuzluğa qədər uzanan bir yoldur...

Bəs qaz? Axı neft olan yerdə qaz da olmalı idi... Onda Xəzər qazından niyə belə az məlumat, daha doğrusu, müxtəlif zamanların cəmi bir neçə hadisəsinin fraqmental təsviri var? Axı Azərbaycan adının bir sinonimi də çox-çox illər öncədən Odlar yurdudur...

Fikrimcə, bunun məntiqi izahı onunla əlaqədardır ki, neft min illər boyu süxurlarda əmələ gəlmiş boşluqlardan təzyiq altında yer səthinə çıxıb və insanlar qatran formalı bir məhlulu çuxurlarda seyr edə bilirmiş. Bu maye ilə təmas da yaranıb, onu yaralara da sürtüblər, məlhəm kimi istifadəsi təcrübəsi də yaranıb, onu bəzi tikinti materiallarına əlavə etməklə yapışqanlılıq xüsusiyyətləri

hesabına möhkəmliyinə, eləcə də elastikliyinə nail ola da biliblər. Neft elə bir şeydir ki, o, Yer üzünə çıxandan insanın onunla təması dərhal yaranmışdı. Buna görə də neft haqda məlumatlar nağıllardan tutmuş tarix kitablarına qədər hər mənbədə gen-boldur.

Qaz isə... Rəngsiz bir karbohidrogendir. Gözə görünmür, hiss edilmir. Yalnız müəyyən şəraitdə oksigenlə birləşmə nəticəsində yanır. Onda qaz gözə də görünür, hiss də edilir, insanda qorxu-ürkü də yaradır... Emal olunmayan, ilkin halındakı qazın insana gətirəcəyi xoş ovqat, demək olar ki, ildırımın işığının sevinci qədərdir... İnsan qazı özünə ram edəndən sonra onun istisindən həzz almağa başlayıb, özü də bu, davamlı və stabil deyil, texniki təhlükəsizlik qaydalarına gərək daim riayət edəsən.

Yəni deməyim odur ki, qaz, əslində, neftlə birgə bu diyarda eyni zamanda olub, neft yerin səthinə çıxıbsa, onunla birgə səmt qazı da çıxıb. Təzyiq harada daha çox olubsa və sürtünmə baş veribsə, təbii ki, yanma da baş verib və beləcə, insan qazı görüb, tanıyıb, bilib, özü də nefti hələ görmədən, bilmədən, tanımadan...

Ölkəmizin neft tarixinin baza məlumatları ictimaiyyət arasında geniş yayılsa da, qaz sənayemizlə bağlı məlumatlar o qədər də ictimailəşməyib və əsasən, mütəxəssislərə və bu sahənin tədqiqi ilə məşğul olan şəxslərə məlumdur.

Rusiya imperiyası ərazisində təbii qazdan praktiki istifadə haqqında ilk məlumat 1837-ci ilin sonlarına aiddir. Dağ-mədən mühəndisi Nikolay Voskoboynikovun (1803-1860) Abşeron yarımadası ərazisində inşa etdiyi sınaq məqsədli neft emalı qurğusunda xammalın qızdırılması üçün əsas yanacaq kimi yaxınlıqdakı yarğandan çıxan təbii qazdan istifadə edilmişdi.[1]

Abşeron yarımadasında ilk qaz quyularının qazılması XX əsrin əvvəllərinə təsadüf edir. Bakı Neft Cəmiyyəti Abşeron yarımadasındakı Suraxanı mədənlərində qaz axtarışı məqsədilə 1901-ci ildən kəşfiyyat qazma işlərinə başladı. Qurum 1902-ci il fevralın 14-də 97 sajın (təqribən 207 metr) dərinliyindən gündə 2 milyon kubfut (56,6 min kubmetr) axınla ilk qaz fontanını aldı.[2] Amma o zamanlar təbii qaz quyularının istismar edilməsi dayanıqlı deyildi, quyulardan qazın çıxarılma həcmləri qısa müddət ərzində kəskin şəkildə azala bilərdi. Bu baxımdan hasil edilən həcmlər də böyük

deyildi. Çıxarılan qaz, adətən, neft mədənlərinin istismarı üçün daxili ehtiyacların ödənilməsinə yönəldilirdi.

1908-ci ildə Abşeron mədənlərində fəaliyyət göstərən beş şirkətin qaz quyuları mövcud idi və onlar qazın nəql edilməsi üçün ümumi uzunluğu 40 verst (42,7 km) olan mədəniçi qaz kəmərlərini istismar edirdilər.

Azərbaycanda qazın sənaye üsulu ilə hasilatında dönüş XX əsrin 20-ci illərinə təsadüf edir. 1923-cü ildə "Azneft" İstehsalat Birliyinin strukturuna daxil olan Əmtəə İdarəsinin nəzdində "qazın hasilatı və işlənilməsi üzrə" köməkçi şöbə[3] yaradılmışdı. Bu şöbə qazın hasilatı, neftlə birgə çıxan səmt qazının tutulması, süni qazın hasilatı, qazın istehlakçılar arasında bölgüsü və hesabatı, qazın istehlakçılara nəql edilməsi, daşıyıcı qaz kəmərlərinin və qazbölüşdürücü şəbəkənin qurulması, bunlarla yanaşı, "Azneft" İB-nin, Suraxanı, Sabunçu, Lökbatan, Qala, Yeni Suraxanı, Bibiheybət, Binəqədi, Qara şəhər rayonlarının balansında olan mənzillərin qazlaşdırılması və qaz təchizatı işlərini həyata keçirirdi.

1935-ci ildə Bakı Sovetinin nəzdində "Bakıqaz" tresti yaradıldı. Onun vəzifəsi Bakı şəhərinin mərkəzində mənzil fondunun qazlaşdırılması, qazbölüşdürücü şəbəkənin qurulması, habelə qaz təsərrüfatının istismarı, istehlakçıları təbii qazla etibarlı, fasiləsiz və təhlükəsiz şəkildə təmin etməkdən ibarət idi. Qeyd etmək lazımdır ki, "Bakıqaz" Bakı Baş Qaz İstismar İdarəsi kimi 2011-ci ilin iyul ayına qədər səmərəli fəaliyyət göstərib.

1936-cı ildə SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Azərbaycan Dövlət "Azqaz" tresti yaradıldı. "Azqaz" tresti fəaliyyəti dövründə 350 mm diametrli "Qaradağ-30-cu sahə", 300-350 mm diametrli Köhnə Çaxnaqlar və Təzə Çaxnaqlar, "Dairəvi" (400 mm diametrli "Bayıl 8-ci mədən-30-cu sahə", 300-350 mm diametrli "Qaraçuxur-Suraxanı-Qazanlar", 350 mm diametrli "Qala-Duda" zavodu, 400 mm diametrli "Duvannı-8-ci mədən" və "Qaradağ-30-cu sahə", 500 mm diametrli "Qaradağ-Şimal DRES", 300 mm diametrli "Zirə-Şüvəlan", 500 mm diametrli "Zirə-Buzovna" və "Qaradağ-Sumqayıt" 1-ci və 2-ci xətt) magistral qaz kəmərlərinin tikintisi və istismarını həyata keçirdi.

1958-ci ildə "Bakqaz" idarəsinin yaradılması ilə əlaqədar "Azqaz" tresti Azərbaycan Respublikası neft sənayesi qurumundan

və "Bakıqaz" tresti Bakı Sovetinin tabeliyindən çıxarılaraq yeni yaradılmış "BaşQaz" idarəsinin tabeliyinə keçirildi.

Əgər Azərbaycandakı yataqlardan neft hasilatının mərkəzləşdirilmiş statistikası 1871-ci ildən aparılırdısa, qazın statistikası öz tarixini 1928-ci ildən götürür. Qaz hasilatı stabil olmadığından onun müntəzəm statistikası yalnız 1932-ci ilə təsadüf edir. O zaman ölkəmizdə hasil edilən qazın həcmi cəmi 522 milyon kubmetr təşkil edib. Maraqlıdır ki, 1950-ci ilə qədər Azərbaycanda hasil edilən mavi yanacaq yalnız səmt qazı, yəni neftlə birgə quyulardan çıxan qaz olub. 1950-ci ildə ölkədə 1 milyard kubmetr səmt qazı hasil etməyə nail olunduğu zaman ilk dəfə 234 milyon kubmetr də təbii qaz çıxarılmışdı.[4]

Azərbaycanda 1956-cı ildə hasil edilən təbii qaz həcmləri səmt qazı həcmlərinə təqribən bərabər oldu. Bu isə qurudakı "Qaradağ" qaz-kondensat yatağının 1955-ci ildə istismara verilməsi ilə əlaqədar idi. Növbəti il təbii qaz həcmləri (2341 milyon kubmetr) səmt qazı göstəricilərini 2,2 dəfə üstələdi.

## Azərbaycan nə zamandan qaz ixrac edən ölkə olub?

*Düzdür, bu bir ölkə daxilində baş vermiş haldır, amma ixrac Azərbaycanındır*

XX əsrin 50-ci illərinin ikinci yarısında Azərbaycanda təbii qaz hasilatının yüksək templə artımı Moskvanın nəzərindən yayınmır və qonşu respublikaların mərkəzi şəhərlərinin ittifaq büdcəsi hesabına təbii qazla təmin edilməsi məsələsi gündəmə gəlir. 1958-ci ildə ümumi uzunluğu 856 km olan Qaradağ-Qazax-Tiflis-İrəvan yüksək təzyiqli magistral qaz kəmərlərinin çəkilişinə qərar verilir. Boru kəməri Qazax rayonundan Gürcüstan və Ermənistana doğru ayrılır. Borunun Ermənistana gedən hissəsinin diametri 720 mm, Gürcüstana istiqamətlənmiş borunun diametri isə 529 mm idi.[5]

Ümumilikdə magistral kəmərin buraxıcılıq gücü 1,8 milyard kubmetr təşkil edirdi. Gürcüstan paytaxtı 1959-cu ilin dekabrında, Yeni il bayramı ərəfəsində tarixində ilk dəfə təbii qaz almağa başladı. 1960-cı il fevralın 12-də isə İrəvanda Qaradağ-Qazax-İrəvan magistral kəməri ilə nəql edilən Azərbaycan qazının Ermənistan paytaxtına yetişməsi münasibətilə təntənəli mərasim keçirildi.



İrəvana təbii Azərbaycan qazının verilməsi münasibətilə keçirilən təntənəli mərasim, 12 fevral 1960-cı il

Həmin il Azərbaycanın qaz yataqlarından Ermənistan SSR-ə 112 milyon kubmetr qaz ixrac edildi.[6]

1959-cu ildə Zaqafqaziya Qaz Kəmərləri İdarəsi yarandı. Beləliklə, Azərbaycan Cənubi Qafqazın iki respublikasının qaz təminatçısına çevrildi. 1959-cu ilin dekabrını Azərbaycanın qaz ixracı tarixinin başlanğıcı saymaq olar.

Amma Azərbaycanın qaz sənayesinin uğurları bununla bitmir, belə ki, Azərbaycan hələ sovet dövründə qaz tranzit ölkəsi kimi də çıxış etməyə müvəffəq olub. Bu isə tam başqa bir tarixçədir.

## Azərbaycan sovet dövründə qaz tranzit respublikası rolunda

İran şahı Rza Pəhləvi 1965-ci ildə Sovet İttifaqına səfər edir və bu səfər çərçivəsində enerji sahəsində əməkdaşlığa dair sənəd imzalanır. Bu sənədə görə, Sovet İttifaqı İranın Fars körfəzi sahillərində yerləşən yataqlarından onun şimal sərhədlərinə qədər uzanacaq magistral qaz kəmərinin tikməyi öz öhdəsinə götürməyə

boyun olur. Özü də təkcə həmin kəməri yox, həm də İsfahan metallurgiya zavodunu.

Kəmərin tikintisi üçün lazım olacaq bütün boruların təchizatı da Sovet İttifaqı tərəfindən həyata keçiriləcəkdi. Nəticədə İran ərazisində sonradan "Trans-İran" adını alacaq ilk iri diametrli magistral qaz kəməri yaradılacaqdı. Bu kəmərdən ayrılan 112 km birləşdirici qolla (interkonnektor) Tehranın qaz təminatı həyata keçirilməli idi. Kəmər daha sonra Sovet İttifaqı ərazisinə daxil olacaq və bu, Azərbaycan SSR-in ən cənub yaşayış məntəqəsi olan Astarada baş verəcəkdi. Daha sonra sovet mütəxəssisləri kəməri Azərbaycan ərazisindəki qaz qovşağı hesab edilən Qazıməmməd (indiki Hacıqabul) yaşayış məntəqəsinə qədər çəkəcəkdilər. "Trans-İran" qaz kəmərinin təkcə İran ərazisindəki uzunluğu 1200 km-dən çox idi.[7]

İran Astarasında SSRİ-yə qaz ixracının başlamasına həsr edilmiş mərasim, 28 oktyabr 1970-ci il



Kəmərin fiziki tikintisi 1968-ci ildə başladı və o, 1970-ci il oktyabrın 28-də İran Astarasında təşkil edilmiş təntənəli mərasimlə istismara verildi. Kəmərin açılış mərasimində İran şahı Pəhləvi və SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Nikolay Podqornı iştirak etmişdilər.

Bəs Sovet İttifaqının bunda marağı nə idi? Əvvəla, Sovet İttifaqı o zaman nəinki böyük qaz ölkəsi deyildi (SSRİ Avropaya ilk 1 milyard kubmetr qazını yalnız 1970-ci ildə ixrac edib), heç ölkə daxilində qazlaşdırmanın ilkin mərhələsini də başa vura bilməmişdi. Ona görə də sovet hökuməti İrandan qaz idxalı hesabına Cənubi Qafqaz respublikalarının qazlaşdırılmasını sürətləndirməyi və sənayenin inkişafı üçün imkanlar əldə etməyi planlaşdırmışdı.

İkincisi, SSRİ İranla ticari münasibətləri genişləndirməklə ABŞ-yə simpatiya bəsləyən kapitalist ölkəsi olan cənub qonşusu ilə münasibətlərini mülayimləşdirmək niyyətində idi.

SSRİ-nin sonuncu arzusu isə kommersiya marağından doğurdu: belə ki, İranda görüləcək işlərə görə valyuta ilə qazanc əldə etmək və bunu sonradan daha yaxşı faizlə əvəzləmək imkanı qazanacaqdı. Bu isə ondan irəli gəlirdi ki, Sovet İttifaqı İrandan alacağı illik 10 milyard kubmetrlik təbii qaza görə gördüyü işlərin haqqı tam ödənilməyənə qədər vəsait ödəməyəcəkdi.

Belə də oldu. İran İslam Respublikasına qədər Sovet İttifaqı İrandan idxal etdiyi təqribən 80 milyard kubmetrə yaxın təbii qaza görə heç bir vəsait ödəmədi. Şahın yerinə gəlmiş yeni hökumətin ilk addımlarından biri isə bunun İranın milli maraqlarına cavab verməyən bir addım olduğunu qəbul etməsi və 1965-ci ildə imzalanmış razılaşmanı birtərəfli qaydada pozması oldu.

Amma ona qədər Azərbaycan SSR ərazisində bu həcmdə təbii qazın daşınmasını təmin etmək üçün yeni infrastruktur yaradıldı, mövcud magistral qaz kəmərlərinin, paylayıcı sistemlərin imkanları genişləndirildi. Nəticədə Azərbaycanın qaz təsərrüfatı uzun illər qazın tranzit nəqlini həyata keçirdi, özü isə SSRİ-nin beynəlxalq müqavilələrlə qəbul etdiyi mavi yanacağın tranzit daşıyıcısına çevrildi.

İran-SSRİ qaz kəmərinin istismara verilməsindən sonra respublikanın cənub rayonlarının: Astara, Lənkəran, Masallı, Cəlilabad və

Biləsuvar rayonlarının yaşayış məskənlərinin inkişafı və qaza olan tələbatı maksimum nəzərə alınmaqla magistral kəmərdən qolların ayrılması, kəmərin sonunda qazbölüşdürücü stansiyanın tikintisi həyata keçirildi. Bunun nəticəsində həmin rayonların qazlaşdırılması və iqtisadiyyatın inkişafı üçün imkanlar əldə edildi.

Məhz o zaman respublika ərazisi ilə qaz nəqlini genişləndirmək üçün yeni marşrutlara olan ehtiyac gündəmə gəldi. XX əsrin 70-ci illərinin ortalarında Yevlax-Ağdam-Xankəndi-Gorus-Naxçıvan marşrutu üzrə çətin coğrafi şəraitdə yüksək təzyiqli (5,5 MPa) 148,3 km uzunluğunda 700/500 mm-lik magistral qaz kəmərinin tikintisinin həyata keçirilməsinə başlanıldı. Tikinti ittifaq miqyaslı nazirliklərin vəsaiti hesabına aparılırdı.

Həmin magistral kəmərdən Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Əsgəran, Xankəndi, Şuşa, Laçın, Zəngilan, Qubadlı, Qafan, Qacaran rayon mərkəzlərinə qolların ayrılması və qazpaylayıcıların tikilməsi bilavasitə Azərbaycan SSR-yə böyük əzmkarlıqla rəhbərlik edən Heydər Əliyevin tələbkarlığı nəticəsində mümkün olmuşdu. Sonradan bu kəmərdən Naxçıvan-Culfa-Ordubad və Şahbuz-Sədərək-Şərur yaşayış məntəqələrindən keçən 700 mm diametrlik magistral qaz kəməri çəkildi, qazpaylayıcı stansiyalar inşa edildi.

Qayıdaq qaz statistikasına. Çünki rəqəmlər özləri çox şeyi izah edir.

## Qaz statistikası

1976-cı ildə Azərbaycan tarixində ilk dəfə 10 milyard kubmetrdən çox (10 989 milyon kubmetr) qaz hasil etməyə nail oldu. İrandan qaz idxalı başlayan il, yəni 1970-ci ildə Azərbaycanda qaz hasilatı 5 milyard 521 milyon kubmetr səviyyəsində idi.

Sovet Azərbaycanı tarixində qaz hasilatının zirvə nöqtəsi 1982-ci ildə qeydə alınıb – 14 milyard 890 milyon kubmetr. Məhz bu dövr təbii qazın ən çox hasil olunduğu ilə təsadüf edir – 11 milyard 624 milyon kubmetr. Yəni hasil edilən qazın 78,1%-ni təbii qaz, 21,9%-ni isə səmt qazı təşkil edirdi.

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra kəskin qaz çatışmazlığı ilə üzləşdi. 1991-ci ildəki 8,62 milyard kubmetr qaz

hasilatı 2004-cü ildə müstəqillik dövrünün minimum həddinə (4,99 milyard kubmetr) düşdü. Bu isə 42,1% azalma demək idi.

2006-cı ilin sonunda "Şahdəniz" yatağının istismara verilməsi ilə Azərbaycan Respublikası qaz hasilatını cəmi bir ildən sonra yenidən 10 milyard kubmetri aşan səviyyəyə çatdırdı (bu da təqribən 1976-cı il göstəricisinə bərabər idi). Azərbaycan o zamandan başlayaraq mütəmadi surətdə qaz hasilatının artımına nail olub və 2019-cu ildə əmtəəlik qaz həcmləri 20 milyard kubmetr səviyyəsini ötərək 24,5 milyard kubmetrə çatıb. 2022-ci ildə isə bu həcmlər 35 milyard kubmetrədək artdı.

Azərbaycan 2007-ci ildən qaz ixracatçısına çevrilib. Ona qədər 2000-ci ilin oktyabr ayından 2007-ci ilədək Azərbaycan Rusiyadan mütəmadi qaz idxal edən ölkə olub.

"Şahdəniz" yatağının geoloji quruluşu



II FƏSİL

# "ŞAHDƏNİZ" LAYİHƏSİNƏ GEDƏN YOL

## "Şahdəniz" strukturu haqda

"Şahdəniz" strukturu geoloji kəşfiyyat tədqiqatları nəticəsində 1954-cü ildə müəyyən olunub. Bakıdan təqribən 70 kilometr cənub-şərqdə yerləşir, strukturun şimalında dənizin dərinliyi 50, cənubunda isə 500 metrə qədər artır. Strukturun uzunluğu 22 kilometrə qədər uzanır, sahəsi isə 140 kvadrat kilometr ərazini əhatə edir.

1983-cü ildə bu struktur dərin axtarış qazmasına hazırlanıb, ancaq həmin sahədə dənizin dərinliyinin çox olması və perspektiv neftli-qazlı layların böyük dərinlikdə yerləşməsi qazma işlərinin aparılmasına imkan verməyib.

Təxminən 1990-cı ilə kimi bu strukturun öyrənilməsinə ciddi cəhdlər göstərilməyib. O dövrdə Azərbaycanın təbii qazla təchizatını təmin etmək üçün "Şahdəniz" strukturunda Dövlət Neft Şirkəti tərəfindən bir quyunun qazılmasına başlanılıb. 90-cı illərin əvvəllərində bu quyuda kəşfiyyat qazma işləri başlayıb və iki ilə yaxın bir zamanda 3152 metr[8] dərinliyə qədər qazma gedişi aparmaq mümkün olub, ancaq iqtisadi və texnoloji imkanlar olmadığından qazma işləri sonradan davam etdirilməyərək yarıda dayandırılıb.

## "Şahdəniz" layihəsinin tarixçəsi

| | |
|---|---|
| **7 sentyabr 1992** | Azərbaycan hökuməti ilə Böyük Britaniyanın "BP Eksploreyşn Opereytinq Kompany Limited" və Norveçin "Den Norske Stats Olyeselskap A.S." şirkətləri arasında "Şahdəniz" və "Dostluq" (sonradan "Çıraq" adlandırılıb) yataqlarının işlənilməsi üzrə eksklüziv danışıqlar hüququ əldə etməyə dair saziş imzalanır. |
| **23 fevral 1994** | ARDNŞ, Böyük Britaniyanın "BP Eksploreyşn Opereytinq Kompany Limited" və Norveçin "Den Norske Stats Olyeselskap A.S." şirkətləri arasında "Şahdəniz" strukturunun işlənilməsi üzrə eksklüziv danışıqlar hüququnu tənzimləyən sənəd imzalanır. |
| **4-7 may 1995** | İstanbulda ARDNŞ-lə BP/"Statoil" alyansı və Türkiyənin TPAO şirkəti arasında "Şahdəniz" layihəsi üzrə danışıqlar keçirilir. |
| **4 oktyabr 1995** | Azərbaycan Respublikası Prezidentinin 222 nömrəli Sərəncamı ilə ARDNŞ-ə "Şahdəniz" strukturu ilə bağlı xarici şirkətlərlə danışıqlar aparmaq və saziş imzalamaq hüququ verilir. |
| **13 dekabr 1995** | Rusiyanın "LUKoil" özəl neft şirkətinin rəhbəri Vahid Ələkbərov bildirir ki, həm başçılıq etdiyi şirkət, həm də Rusiya hökuməti "Şahdəniz" layihəsində iştirak etmək üçün Azərbaycan hökumətinə müraciət edib. |
| **29 mart 1996** | ARDNŞ prezidenti Natiq Əliyev "Şahdəniz" layihəsində 10% payın Fransanın "Elf Akiten" şirkətinə verilməsinə dair razılıq əldə edildiyini açıqlayır. |
| **3 aprel 1996** | Rusiyanın "LUKoil" şirkətinin nümayəndə heyəti Bakıda "Şahdəniz" layihəsində pay almaq haqda danışıqlar apararaq Azərbaycan tərəfi ilə razılığa gəlir, amma bu fakt ictimailəşdirilmir. |
| **4 iyun 1996** | Bakıda Gülüstan sarayında "Şahdəniz" yatağının birgə işlənilməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında müqavilə imzalanması mərasimi keçirilir. |

| | |
|---|---|
| **17 oktyabr 1996** | "Şahdəniz" yatağının birgə işlənilməsi haqqında hasilatın pay bölgüsü sazişi (HPBS) qüvvəyə minir. |
| **5 mart 1997** | "Şahdəniz" Konsorsiumu Rəhbər Komitəsi Azərbaycan Prezidentinə layihəni necə icra etməklə bağlı planlarını açıqlayır. |
| **31 mart 1997** | ARDNŞ-lə "BP Exploration (Shah-Deniz) Ltd." şirkəti arasında "Şelf-5" yarımdalma üzən qazma qurğusunun modernləşdirilməsi üzrə müqavilə imzalanır. Onun vasitəsilə "Şahdəniz" strukturunda kəşfiyyat quyularının qazılması həyata keçirilməli idi. |
| **31 mart 1998** | BP/"Statoil" alyansının Bakıda yeni ofisinin açılışı keçirilir. |
| **16 iyun 1998** | "BP Exploration (Shah-Deniz) Ltd." şirkəti Azərbaycan Milli Elmlər Akademiyasında ictimaiyyətə "Kəşfiyyat-qazma əməliyyatları zamanı ətraf mühitə təsirlərin qiymətləndirilməsi" haqqında hesabat təqdim edir. |
| **7 iyul 1998** | "Dədə Qorqud" üzən qazma qurğusundan layihə dərinliyi 6069 metr olan 1 nömrəli quyunun ("SDX-1") qazılmasına başlanılır. |
| **9 avqust 1998** | "SDX-1"də quyu dibi 2550 metr dərinliyə çatdırılır, bununla da birinci kəşfiyyat quyusunun yuxarı intervalında qazma işləri başa çatdırılır, "Dədə Qorqud" qazma qurğusu quyunu tərk edir. |
| **2 sentyabr 1998** | "İstiqlal" (keçmiş "Şelf-5") qazma qurğusunun işə salınmasına həsr olunmuş təntənəli mərasim keçirilir, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev tədbirdə iştirak edir. "İstiqlal" yarımdalma üzən qazma qurğusunun modernləşdirilmə xərcləri ilkin olaraq 120 milyon dollar həcmində proqnozlaşdırılsa da, sonda 210 milyon dollara başa gəlir. Bunun 14 milyon dolları onun modernləşdirildiyi ARDNŞ-nin Bibiheybətdəki Gəmi təmiri zavodunun təmirinə xərclənir. |
| **14 dekabr 1998** | "SDX-1" quyusunun qazılması "İstiqlal" üzən qazma qurğusu vasitəsilə davam etdirilir. |

| | |
|---|---|
| **1999-cu il fevralın sonu** | "İstiqlal" üzən qazma qurğusundakı üç dizel generatorunda nasazlıq baş verdiyindən qazma işləri müvəqqəti olaraq dayandırılır. |
| **1999-cu il martın əvvəli** | "Şahdəniz" layihəsi tərəfdaşları birinci kəşfiyyat quyusunun müvəqqəti olaraq "Dədə Qorqud" üzən qazma qurğusu ilə davam etdirilməsi haqda qərar verirlər. |
| **31 may 1999** | BP/"Amoco" şirkəti və ARDNŞ ictimaiyyət üçün birgə açıqlamalarında ilk kəşfiyyat quyusunun 6316 metr dərinliyinə qədər qazıldığını və məhsuldar laylarda karbohidrogen ehtiyatlarının aşkar olunduğunu bəyan edirlər. |
| **23 iyun 1999** | "SDX-1" kəşfiyyat quyusunda sınaq işləri başlayır, quyu kəsilişində "Fasilə" lay dəstəsinin 6225-6289 metr intervalı perforasiya olunur və quyu bir neçə rejimdə yoxlanılır. Nəticədə 15 millimetr diametrli ştutser və 500 atmosfer quyuağzı təzyiqlə quyudan gündəlik 1,5 milyon kubmetr, 400 tonadək kondensat alınır. |
| **12 iyul 1999** | Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından əldə olunmuş nəticələrin Azərbaycan Prezidenti Heydər Əliyevə təqdim edilməsi mərasimi keçirilir. |
| **12 iyul 1999** | Konsorsium rəhbərliyi Azərbaycan Prezidentinə məlumat verir ki, "Şahdəniz" yatağında ehtiyatların 700 milyard kubmetr olduğu güman edilir. |
| **12 iyul 1999** | Konsorsium rəhbərliyi Azərbaycan Prezidentini məlumatlandırır ki, "Şahdəniz" yatağının açıldığı günə qədər çəkilmiş xərclər 367 milyon dollar təşkil edib. |
| **15 fevral 2000** | Azərbaycan Prezidenti Heydər Əliyev Vaşinqtonda ABŞ-nin energetika naziri Bill Riçardsonla görüşdə bəyan edir ki, "Şahdəniz" yatağının ehtiyatları 1 trilyon kubmetrdir. |
| **21 fevral 2002** | Azərbaycan hökuməti "Şahdəniz" müqaviləsi üzrə "Mərhələ-1" layihəsini sanksiyalaşdırır. |

| | |
|---|---|
| **22 mart 2006** | Azərbaycan Prezidenti İlham Əliyev “Şahdəniz” müqaviləsinin “Mərhələ-1” layihəsi üzrə inşa olunan TPG-500 özüqalxan platformasının tikintisinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak edir. |
| **15 dekabr 2006** | “Şahdəniz” müqaviləsi üzrə “Mərhələ-1” layihəsi çərçivəsində təbii qazın stabil hasilatına başlanılır. |
| **3 iyul 2007** | “Şahdəniz” müqaviləsi üzrə “Mərhələ-1” layihəsi çərçivəsində təbii qaz Türkiyə bazarına çatdırılır. |
| **28 noyabr 2007-ci il** | “Şahdəniz” layihəsi üzrə Azərbaycan dövlətinə çatan ilk mənfəət (1,8 milyon dollar) AR Dövlət Neft Fonduna ödənilir.[8] |
| **19 sentyabr 2013** | “Şahdəniz” müqaviləsi üzrə “Mərhələ-2” layihəsi çərçivəsində qazın Avropadakı istehlakçılarla alqı-satqısına dair sazişlər imzalanır. |
| **17 dekabr 2013** | Bakıda “Şahdəniz-2” üzrə yekun investisiya qərarının imzalanması mərasimi keçirilir. |
| **1 sentyabr 2016** | “Şahdəniz-2” layihəsi üzrə dayaq blokunun dənizə yola salınmasına start verilir. |
| **1 iyun 2017** | Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə “Şahdəniz” müqaviləsi üzrə “Mərhələ-2” üçün inşa olunan platformalardan birinin üst tikililərinin dənizə yola salınması mərasimi keçirilir. |
| **30 iyun 2018** | “Şahdəniz-2” layihəsi çərçivəsində Türkiyəyə qazın nəqli başlayır. |
| **30 iyul 2018** | “Şahdəniz-2” layihəsindən ilk hasilat. |
| **31 dekabr 2020** | Avropaya ilk qazın çatdırılması. |
| **9 dekabr 2021** | BP “Petronas” şirkətinin “Şahdəniz” layihəsindəki 1,16%-lik iştirak payını 168 milyon dollara almaq haqqında razılığa gəldiyini açıqlayır. Nəticədə BP-nin payı 29,99%-dək artmalı idi. Bu sövdələşmənin 2022-ci ilin yanvar ayının sonunadək başa çatacağı gözlənilirdi. |

## Xarici şirkətlərdə "Şahdəniz" layihəsinə maraq necə yarandı?

Hələ Sovet İttifaqı dağılmamışdan əvvəl xarici şirkətlər Xəzərin Azərbaycan sektorunda, onun dərin sularında yerləşən yataqlarla maraqlanır, onların imkanlarını öyrənirdilər. Bununla bağlı hamının diqqəti "Azəri" yatağının imkanlarına yönəlmişdi.

Belə bir zamanda iki şirkət geoloji materialları əsas tutaraq bütün diqqətini "Azəri" yatağı ilə müqayisədə Xəzərin daha dərin hissəsində yerləşən başqa bir struktura yönəltdi. Düzdür, bu, yataq deyildi, amma əldə olan geoloji-kəşfiyyat məlumatları onu diqqətdən kənar qoymamağa səsləyirdi. Söhbət "Şahdəniz" strukturundan gedirdi. O sahəyə ki, burada Azərbaycan qazmaçıları çox çətin şəraitdə bir xeyli dərinliklərə irəliləyə bilmişdilər.

1992-ci il sentyabrın 7-də Azərbaycan hökuməti ilə Britaniyanın "BP Eksploreyşn Opereytinq Kompany Limited" və Norveçin "Den Norske Stats Olyeselskap A.S." şirkətləri arasında "Şahdəniz" və "Dostluq" (sonradan "Çıraq" adlandırılacaqdı) yataqlarının işlənilməsi üzrə eksklüziv danışıqlar hüququ əldə etməyə dair saziş imzalandı. Bu müqavilədə həmin strukturda birgə işlərin aparılması və yatağın işlənilməyə hazırlanması barədə "British Petroleum" və "Statoil" şirkətlərinə xüsusi səlahiyyətlər verilirdi. Bu iki şirkət sonradan alyans yaradaraq işə başladı, daha sonra isə Türkiyənin "Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) şirkəti də layihədə iştirak etməklə bağlı danışıqlar prosesinə qoşuldu.

Azərbaycanda Dövlət Neft Şirkəti (ARDNŞ) yaradılandan və bu şirkətlər "Şahdəniz" üzrə danışıqları ayrıca layihə kimi davam etdirmək istəklərini ifadə edəndən sonra – 1994-cü il fevralın 23-də ARDNŞ-lə Böyük Britaniyanın "BP Eksploreyşn Opereytinq Kompany Limited" və Norveçin "Den Norske Stats Olyeselskap A.S." şirkətləri arasında "Şahdəniz" strukturunun işlənilməsi üzrə eksklüziv danışıqlar hüququnu tənzimləyən sənəd imzalandı.

"Şahdəniz" layihəsi iştirakçıları ilə ARDNŞ arasında layihənin işlənilməsinə dair danışıqların növbəti raundu 1995-ci ilin 4-7 may tarixlərində İstanbulda baş tutdu. BP/"Statoil" alyansı və Türkiyənin TPAO şirkəti ilə Azərbaycan tərəfi səmt qazının

əvəzsiz (pulsuz) çatdırılma nöqtəsində təhvil verilməsinə dair razılığa gələ bilmədi. Qeyd edək ki, Xəzərin Azərbaycan sektorunda heç bir xarici şirkət iri qaz yatağı açılmasını ehtimal etmədiyindən gələcəkdə bölüşdürüləcək məhsulu neft və ya kondensat kimi təxmin edirdilər.

Bundan əlavə, onlar İstanbul görüşlərində kəşfiyyat dövrünün minimum 3,5 il davam edəcəyinə dair təxminlərini bildirib təkliflərini də bunun üzərində qurdular. Bu isə Azərbaycan tərəfini qane etmirdi. Azərbaycan tərəfi işlərin sürətlə aparılmasında maraqlı idisə, xarici şirkətlər bir layihəni bitirib digərinə başlamağa üstünlük verirdi (ən azı kəşfiyyat dövrü üçün). Ona görə də "Şahdəniz" layihəsi üzrə 1992-ci ildə başlayan danışıqlar 4 ilə yaxın davam etdi.

Bu layihənin bir maraqlı tərəfi də var ki, digər müqavilələrdə ona bənzər hadisələr ortaya çıxmamışdı. İran tərəfi "Əsrin müqaviləsi" layihəsinə qatılmaq üçün vaxtilə böyük səylər göstərmişdi. Lakin bu layihədə təmsil olunan Amerika Birləşmiş Ştatlarını təmsil edən şirkətlər qətiyyən belə anlaşmaya getməyəcəklərini bildirirdi. Nəticədə rəsmi Bakı cənub qonşusu ilə digər layihələrin birində əməkdaşlıq məsələlərinin mümkünlüyü ideyasını ortaya qoymuşdu.

Bu baxımdan ikinci müqavilədə də ABŞ şirkətləri olduğundan rəsmi Bakı "Şahdəniz" layihəsini elə formalaşdırmağa çalışırdı ki, burada qonşuların iştirakını əngəlləyə biləcək hansısa baryer qalmasın.

Azərbaycan Prezidenti Heydər Əliyev 1995-ci il noyabrın 29-da Londonda "Azərbaycanda investisiya imkanları" adlı beynəlxalq konfransa həsr olunmuş mətbuat konfransında "Plats" agentliyi müxbirinin "Sizcə, İran "Şahdəniz" layihəsində iştirak etməyi qərara alacaqmı?" sualını belə cavablandırmışdı: "Azərbaycanın İranla mehriban qonşuluq, dostluq münasibətləri var, normal münasibətləri var. Azərbaycanla İran arasında uzun sərhəd var, bizim tarixi əlaqələrimiz var. Azərbaycanın keçmişi bir çox cəhətlərdən İranla bağlı olubdur. Bütün bunlar bizim bugünkü münasibətlərimizin əsasını təşkil edir. Şübhəsiz ki, bu münasibətlər iki müstəqil dövlət: İran ilə Azərbaycan Respublikası arasında olan münasibətlərdir. Biz iqtisadi əməkdaşlığı, ancaq qarşılıqlı surətdə faydalı, həm İranın, həm də Azərbaycanın mənafelərinə cavab verən əməkdaşlığı inkişaf etdirmək üçün tədbirlər görürük. O ki qaldı "Şahdəniz"

yatağının neft və qaz ehtiyatlarından istifadə etmək üçün yaradılacaq konsorsiumda İranın iştirakı məsələsinə, bu, İranın özündən asılıdır. İrana belə bir təklif edilibdir”.

Rusiyanın “LUKoil” özəl neft şirkətinin rəhbəri Vahid Ələkbərov 1995-ci ilin dekabrında bildirmişdi ki, həm başçılıq etdiyi şirkət, həm də Rusiya hökuməti “Şahdəniz” layihəsində iştirak etmək üçün Azərbaycan hökumətinə müraciət edib. Həmin andan “LUKoil”un Azərbaycanda daha bir layihəyə qoşulması üçün səylərini gücləndirməsi müşahidə edilməyə başladı.

İran tərəfi də özünün bu layihədə iştirakı ideyasına biganə olmadığını bildirirdi. Amma Azərbaycan Prezidenti Heydər Əliyevin açıqlamasından bəlli olur ki, rəsmi Bakı İranı layihədə iştiraka dəvət edib, amma rəsmi Tehranın məsələyə daha ehtiyatlı yanaşdığı da sezilirdi.

ARDNŞ prezidenti Natiq Əliyev 1996-cı ilin fevralında jurnalistlərlə söhbətində bildirmişdi ki, Azərbaycanın sayca üçüncü neft müqaviləsi xarici şirkətlərlə imzalanmaq üçün faktiki olaraq hazırdır. N.Əliyev söyləmişdi, əldə edilmiş razılaşmaya görə, layihədə 60% pay üç şirkət arasında bölünəcək: BP/“Statoil” alyansı hərəyə yarıbayarı olmaqla 51%, TPAO - 9%. Yerdə qalan pay Azərbaycan tərəfinə məxsus olacaqdı və layihədən əlavə pay almaq niyyətində olanlarla sövdələşmək rəsmi Bakının istəyinə buraxılırdı. ARDNŞ prezidenti Natiq Əliyev 1996-cı il martın 29-da isə “Şahdəniz” layihəsində 10% payın Fransanın “Elf Akiten” şirkətinə verilməsinə dair razılıq əldə edildiyini açıqladı.

“LUKoil” şirkətinin nümayəndə heyəti başda Vahid Ələkbərov olmaqla həmin il aprelin 3-də Bakıya gəldi. ARDNŞ-də görüş zamanı Rusiya şirkətinin “Şahdəniz” layihəsində iştirak payı alması məsələsi müzakirə edildi. Tərəflər razılaşsalar da, müqavilə imzalanan ana qədər onun heç bir detalı mətbuata açıqlanmadı.

Burada işin ən maraqlı məqamı isə İran tərəfinin “Şahdəniz” layihəsində iştirak edib-etməyəcəyi məsələsi ilə bağlı idi. Bu məsələ son anadək sanki “tam məxfi” qrifi ilə qorunub saxlanıldı. Müqavilənin imzalanmasına yalnız bir gün qalmış Bakıya səfər edən İran nümayəndə heyətinin geniş tərkibindən məlum oldu ki, rəsmi Tehran “Şahdəniz” layihəsindən pay almağa müvəffəq olub.

III FƏSİL

# "ŞAHDƏNİZ" MÜQAVİLƏSİNİN İMZALANMASI

## Müqavilə nələri nəzərdə tutur?

| | |
|---|---|
| **Müqavilənin müddəti** | 30 il |
| **Əlavə müqavilə müddəti** | ARDNŞ-nin razılığı ilə daha 5 il uzadıla bilər |
| **Kəşfiyyat müddəti** | 3 il |
| **Kəşfiyyat dövründəki öhdəliklər** | azı 800 kv.km[10] ərazidə üçölçülü seysmik kəşfiyyat aparmaq, nəticələri təhlil etmək, müqavilə sahəsində ən azı iki kəşfiyyat quyusu qazmaq, qazmanın nəticələri ilə bağlı ARDNŞ-yə hesabat təqdim etmək (işlənilmə dövrünə keçid edilmirsə, kəşfiyyat dövründə çəkilən xərclərin əvəzi qaytarılmır) |
| **Əlavə kəşfiyyat müddəti** | 1 il |
| **Əlavə kəşfiyyat dövründəki öhdəliklər** | azı bir kəşfiyyat quyusu qazılmalıdır |
| **Mənfəət vergisi** | 25 faiz |
| **Səmt qazı** | pulsuz verilir |
| **Bonus** | müqavilə qüvvəyə minəndən sonrakı 30 gün ərzində 37 milyon dollar ödənilir. BP/"Statoil" və TPAO alyansının ixtiyarı var ki, bu saziş imzalanmazdan öncə Azərbaycan hökumətinə ödənilmiş 10 milyon dolları həmin məbləğə daxil etsin. |

İşlənilmə proqramında müəyyən edilmiş, sənaye miqyasında çıxarıla biləcək hər 100 milyon barel xam neft və ya onun neft ekvivalenti üçün 1 milyon dollar ARDNŞ tərəfindən işlənilmə proqramının faktik və ya nəzərdə tutulmuş təsdiqindən 30 gün sonra ödənilir.

50 milyon dollar aşağıda göstərilmiş tarixdən sonrakı 30 gün ərzində ödənilir:

- Podratçının sənaye üsulu ilə çıxardığı xam neftin və ya neft ekvivalentinin gündəlik orta həcminin 60 ardıcıl gün ərzində 12 min barel səviyyəsində sabit qaldığı tarixdən;
- Podratçının iki istismar quyusundan sənaye hasilatının 60 ardıcıl gün ərzində sabit qaldığı tarixdən.

Podratçı tərəflərin bonus ödənişlərinin əvəzi qaytarılmır.

Müqavilə iştirakçıları:

- ARDNŞ (Azərbaycan) 10%
- BP (Böyük Britaniya) 25,5%
- “Statoil” (Norveç) 25,5%
- “Elf Akiten” (Fransa) 10%
- “LUKoil” (Rusiya) 10%
- OİEK (İran) 10%
- TPAO (Türkiyə) 10%

## Müqavilənin imzalanması mərasimi

### “Şahdəniz” yatağının birgə işlənilməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında müqavilə imzalanması mərasimində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin çıxışı

*4 iyun 1996-cı il, Bakı, Gülüstan sarayı*

– Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün, 1996-cı il iyunun 4-ü Azərbaycan Respublikasının həyatında neft və qaz istehsalına, neft və qaz sənayesinə həsr olunmuşdur. Azərbaycanda, Bakıda biz bu gün səhər böyük

beynəlxalq neft-qaz sərgisi açdıq. Ardıcıl olaraq dalbadal üç ildir ki, Azərbaycanda belə böyük neft-qaz sərgisi təşkil olunur, açılır və bu sərginin iştirakçılarının sayı ilbəil artır, sərginin miqyası genişlənir.

Biz hamımız bu gün eyni fikrə gəldik ki, beynəlxalq neft-qaz sərgisi bundan sonra Azərbaycanda hər il açılacaq, fəaliyyət göstərəcək və bu bir ənənəyə çevriləcəkdir. Bu, Azərbaycan Respublikasında zəngin neft-qaz yataqlarının bundan sonra da işlənilməsi üçün respublikamıza göstərilən maraqdır, eyni zamanda neft ölkəsi kimi Azərbaycana verilən yüksək qiymətdir. Eyni zamanda bu, müstəqil Azərbaycan Respublikasının dünya ölkələri, şirkətləri ilə müstəqil əlaqə qurmasını nümayiş etdirən əlamətdar bir hadisədir.

Azərbaycanda neft qədim zamanlardan hasil olunur. Azərbaycan hələ ötən əsrdən dünyada neft ölkəsi kimi məşhurlaşıbdır. Ancaq son illərə qədər ölkəmizin həyatında belə sərgi heç vaxt olmamışdır.

Bu gün bu möhtəşəm Gülüstan sarayına biz eyni zamanda yeni bir əlamətdar hadisə münasibətilə yığışmışıq. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" neft-qaz yatağının müştərək işlənilməsi barədə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə böyük neft şirkəti arasında müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Son iki il ərzində üçüncü dəfədir ki, biz böyük neft müqaviləsi imzalayırıq. Üçüncü dəfədir ki, bu əlamətdar hadisə münasibətilə buraya – Gülüstan sarayına toplaşırıq. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış böyük neft müqaviləsi – Azərbaycan Respublikası ilə dünyanın nüfuzlu neft şirkətləri arasında müqavilə artıq yaşayır, işləyir və öz nəticələrini verir. "Əsrin müqaviləsi" adlandırılan bu müqavilə Xəzər dənizinin Azərbaycana məxsus olan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının müştərək işlənilməsi ilə əlaqədardır.

Xəzər dənizinin Azərbaycana aid sektorundakı "Qarabağ" neft yatağının müştərək işlənilməsi ilə istifadə olunması üçün keçən ilin noyabrında ARDNŞ dünyanın bir neçə böyük neft şirkəti ilə ikinci neft müqaviləsini imzalamışdır. Bu müqavilə də işləyir, yaşayır və ümidvaram ki, öz nəticələrini verəcəkdir.

Bu gün imzalanmaq üçün hazırlanmış müqavilə Xəzər dənizinin Azərbaycana məxsus sektorundakı "Şahdəniz" neft-qaz yatağının müştərək işlənilməsinə, istifadə edilməsinə həsr olunubdur. "Şahdəniz" yatağı Azərbaycanın geoloqları, alimləri, neftçiləri tərəfindən açılmış, kəşf edilmiş çox zəngin yataqlardan biridir. Bu yataq geoloqlarımıza, alimlərimizə hələ on illər bundan əvvəl məlum olmuş, 80-ci illərdə açılmışdır. Nəhayət, biz bu yataqdan əməli surətdə istifadə edilməsi üçün böyük bir addım atırıq.

Deyilənlərə görə, təxminən 1990-cı ildə Dövlət Neft Şirkəti tərəfindən Azərbaycanın qazla təchizatını təmin etmək üçün "Şahdəniz" yatağında bu quyunun qazılmasına başlanılmış, verilən məlumata görə, təxminən 2000 metr dərinliyə qədər qazılmış, ancaq vəsaitin, imkanların olmamasından bu iş davam etdirilməmiş və başlı-başına buraxılmışdır. 1992-ci ilin sentyabrında Azərbaycan hökuməti "Şahdəniz" yatağının işlənilməsi ilə əlaqədar Böyük Britaniya Krallığının "British Petroleum" və Norveçin "Statoil" şirkətləri ilə müqavilə imzalamışdır. Bu müqavilədə həmin yatağın birgə işlənilməsi üçün danışıqlar aparılması və yatağın işlənilməyə hazırlanması barədə "British Petroleum" və "Statoil" şirkətlərinə xüsusi səlahiyyətlər verilmişdir. Bu iki şirkət alyans yaradaraq işə başlamış, sonra həmin alyansa Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkəti də qoşulmuş, onlar bu işləri öz imkanları çərçivəsində aparmışlar.

Son illərdə ARDNŞ ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikasının neft-qaz ehtiyatlarından, mövcud yataqlardan səmərəli istifadə edilməsi üçün lazımi işlər görmüşdür. Azərbaycan Dövlət Neft Şirkəti, alimlərimiz, geoloqlarımız, neftçilərimiz "Şahdəniz" yatağında son illər müəyyən tədqiqatlar aparmış, işlər görmüşlər. Bunların nəticəsində 1995-ci ilin oktyabrında ARDNŞ "Şahdəniz" yatağının dünyanın böyük neft şirkətləri ilə birlikdə, müştərək işlənilməsini zəruri hesab etmiş və bu barədə təklif irəli sürmüşdür. Həmin təklif əsasında bu sahədə iş görülməsi üçün mən onlara həm səlahiyyət, həm də lazımi tapşırıqlar vermişəm. Aparılan işlər nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti "Şahdəniz" yatağının dünyanın bir sıra neft

şirkətləri ilə birgə işlənilməsi, istifadə olunması haqqında müqavilə layihəsi hazırlayıb mənə təqdim etmişdir.

Bu müqavilə layihəsini hazırlayarkən “Şahdəniz” yatağından əməli surətdə istifadə edilməsi üçün tədbirlər görərkən ARDNŞ “British Petroleum”, “Statoil”, “Türkiyə Petrolları Anonim Ortaqlığı” şirkətləri ilə bərabər, dünyanın başqa neft şirkətlərinin də bu neft yatağının işlənilməsinə cəlb edilməsi haqqında təkliflər irəli sürmüş və bu təkliflərin həyata keçirilməsinə nail olmuşdur. Beləliklə, bu neft-qaz yatağının işlənilməsinə Rusiya Federasiyasının “LUKoil”, Fransanın “Elf Akiten” şirkətləri və İran İslam Respublikasının neft şirkəti də qoşulmuşdur. Hazırlanmış müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın “British Petroleum”, Norveçin “Statoil”, Türkiyənin “Türkiyə Petrolları Anonim Ortaqlığı”, Rusiyanın “LUKoil”, Fransanın “Elf Akiten” şirkətləri və İranın neft şirkəti arasında müştərək iş görmək barədə müqavilədir.

Mən bu neft-qaz yatağının və eyni zamanda bu müqavilənin bir neçə göstəricisi haqqında da söhbət açmaq istəyirəm. Verilən məlumatlara görə, “Şahdəniz” yatağından 400 milyard kubmetr qaz çıxarılması, 200 milyon ton qaz-kondensat əldə olunması və 100 milyon ton neft hasil edilməsi gözlənilir. Beləliklə, bu çox böyük bir sərvətə malik olan neft-qaz yatağıdır və belə bir yatağın işlənilməsi və istifadə edilməsi, şübhəsiz ki, həm Azərbaycan Respublikasına, həm də bu müqavilənin iştirakçısı olan şirkətlərə, həmin şirkətlərin mənsub olduğu ölkələrə çox böyük faydalar verəcəkdir.

Müqavilədə nəzərdə tutulmuş layihəni həyata keçirmək üçün dörd milyard ABŞ dolları məbləğində vəsait qoyulması planlaşdırılmışdır və müqavilə 30 il müddətinə yerinə yetiriləcəkdir. Beləliklə, bu müqavilə həm Azərbaycan Respublikası üçün, həm də müqavilənin həyata keçirilməsində iştirak edəcək şirkətlər və onların mənsub olduğu ölkələr üçün iqtisadi cəhətdən çox səmərəlidir.

Bütün bu göstəriciləri nəzərə alaraq, mən bu müqaviləni bəyənmişəm və həmin layihə əsasında müqavilənin imzalanması haqqında fərman vermişəm. Məhz bunların da nəticəsində biz bu gün buraya bu müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Mən məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın yeni neft-qaz yatağının istifadə olunmasında bizimlə artıq bir neçə il əməkdaşlıq edən Böyük Britaniya Krallığının hökuməti və bu ölkənin "British Petroleum" şirkəti yenə də bizimlə bir yerdədir. Bu baxımdan mən Böyük Britaniya Krallığının energetika və sənaye naziri cənab Tim Eqqarı xüsusi salamlayıram və onun bu işlərdə xidmətlərini qeyd edirəm. Mən bunu xüsusi qeyd edirəm ki, biz bu işlərə başlayarkən – ilk müqaviləni imzaladıqdan indiyədək cənab Tim Eqqar bizimlə birlikdədir və bu gün də bu tədbirdə iştirak edir.

Azərbaycanla Norveç arasında əməkdaşlıq da çox sabit xarakter daşıyır. Norveçin "Statoil" şirkəti bizim birinci böyük müqavilənin iştirakçısıdır və bu gün də yenidən bu müqavilənin fəal iştirakçısıdır. Bu münasibətlə mən Norveç hökumətinin Azərbaycana olan diqqətini, marağını və Norveç dövlətinin, hökumətinin sənaye və energetika naziri cənab Stoltenberqin burada olmasını xüsusi qeyd edirəm. O, sərgidə iştirak etdi və vacib məsələ olduğu üçün indi öz ölkəsinə qayıtmalı oldu. Ancaq o bizimlə bərabərdir. "Statoil" şirkətinin rəhbərləri və Norveçin Sənaye və Energetika Nazirliyinin nümayəndələri də indi burada bizimlə birlikdədirlər, bu müqavilənin imzalanmasında iştirak edirlər. Mən onları salamlayıram.

Xəzər dənizinin Azərbaycana məxsus neft-qaz yataqlarının dünya şirkətləri ilə müştərək işlənilməsi prosesinə başlayarkən biz ilk əvvəldən indiyədək Rusiya Federasiyası ilə əməkdaşlıq edirik. 1993-cü ilin oktyabrında Rusiya Federasiyasının yanacaq və energetika naziri cənab Yuri Şafrannik böyük nümayəndə heyəti ilə Azərbaycanda olmuşdur. Xəzər dənizinin Azərbaycana məxsus olan sektorundakı neft yataqlarının müştərək işlənilməsi haqqında o vaxt biz Azərbaycan Respublikasının hökuməti ilə Rusiya Federasiyasının hökuməti arasında saziş imzalamışıq. Rusiya Federasiyası və onun böyük neft şirkəti "LUKoil" bizim indiyədək imzaladığımız müqavilələrin hamısının – 1994-cü ilin sentyabrında imzalanmış müqavilənin, 1995-ci ilin noyabrında "Qarabağ" neft yatağının birgə işlənilməsi ilə əlaqədar imzalanmış müqavilənin üzvüdür. Rusiya Federasiyasının "LUKoil"

[redacted]

gücləndiririk. Qeyd etmək istəyirəm ki, bizim bu əməkdaşlığımız var. Xəzər dənizinin İran sektorunda Azərbaycan neftçiləri iki quyu qazma barədə sifariş alıblar və orada işləyirlər. Biz bunu İranla əməkdaşlığımızın bir nümunəsi hesab edirik. Xəzər dənizində İranın öz sektoru var. Amma eyni zamanda Xəzər dənizinin Azərbaycan sektorunda olan – "Şahdəniz" yatağının işlənilməsinə İranın da cəlb edilməsini mən müsbət hadisə kimi qeyd edirəm. Güman edirəm ki, bu, əməkdaşlığımızı daha da inkişaf etdirəcəkdir. Bu gün imzalanan müqavilədə İran İslam Cümhuriyyətinin OİEK şirkəti də iştirak edir. Mən İran İslam Cümhuriyyətindən gələn qonaqlarımızı salamlayıram, milli neft şirkətinin birinci vitse-prezidenti cənab Seyid Əli Əkbər Haşimini salamlayıram.

İmzalanmaq üçün təqdim olunan müqavilə Azərbaycanın neft yatağında yeddi ölkənin şirkətlərinin müştərək işi üzərində qurulubdur: Azərbaycan Respublikası, Böyük Britaniya Krallığı, Norveç, Rusiya, Türkiyə, Fransa, İran. Bu çox əlamətdar bir haldır.

Mən sizi, bütün Azərbaycan xalqını bu əlamətdar hadisə münasibətilə, yeni neft müqaviləsinin imzalanması münasibətilə ürəkdən təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, iqtisadi əməkdaşlıq, iqtisadiyyatın inkişaf etdirilməsi sahəsində atdığımız bu böyük addım Azərbaycan xalqının rifahı naminə yeni uğurlar gətirəcəkdir.

Bu müqavilənin imzalanması münasibətilə bu salona toplaşanları: xarici ölkələrdən gəlmiş qonaqlarımızı, xarici ölkələrin Azərbaycandakı səfirlərini, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələrini, bütün qonaqlarımızı ürəkdən salamlayıram, ümidvar olduğumu bildirmək istəyirəm ki, biz gələcəkdə belə böyük hadisələrin yenə də şahidi olacağıq. Hamınızı bir daha təbrik edirəm. Hesab edirəm ki, müqavilənin imzalanmasına başlamaq olar.

## YEKUN NİTQ

– Hörmətli xanımlar və cənablar!

Azərbaycanda, Bakıda üçüncü böyük neft müqaviləsi imzalandı. Bugünkü mərasimin iştirakçıları bu müqavilə haqqında,

əvvəllər imzalanmış müqavilələr haqqında dəyərli sözlər dedilər. Heç şübhə yoxdur ki, bu müqavilələr əməli surətdə həyata keçiriləcək, öz bəhrəsini, nəticələrini verəcək və Azərbaycan xalqının rifah halının yüksəlməsi üçün böyük xidmətlər göstərəcəkdir.

Mən bir daha qeyd etmək istəyirəm ki, biz bu gün dünyanın məşhur və çox güclü neft şirkətləri ilə bu neft müqaviləsini imzalayarkən Azərbaycan Respublikasının iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın, vətəndaşlarımızın rifah halını yaxşılaşdırmaq məqsədi daşıyırıq.

Allah Azərbaycan xalqına zəngin sərvətlər bəxş etmişdir. Bizim borcumuz, vəzifəmiz bu sərvətlərdən ehtiyatla istifadə etmək, eyni zamanda bu yataqları ardıcıl olaraq aşkara çıxarıb hərəkətə gətirmək, onlardan müstəqil respublikamızın inkişafı, xalqımızın rifahı naminə istifadə etməkdən ibarətdir. Hamı bilməlidir ki, belə müqavilələrin hazırlanması və onları imzalamaq haqqında qərarlar qəbul edilməsi çox böyük əmək, eyni zamanda böyük iradə tələb edir.

Mən bu gün bildirmək istəyirəm ki, biz bu müqavilələri hazırlayarkən bütün məsələlərə çox diqqətlə, məsuliyyətlə yanaşırıq. Həm bugünkü, həm də gələcək nəsillər qarşısında məsuliyyətimizi dərk edirik. Yalnız dərin və geniş təhlildən, tədqiqatdan, müzakirədən, onların birinci növbədə Azərbaycan üçün gərəkli, faydalı olduğunu hiss edəndən sonra biz bu müqavilələrin imzalanması haqqında qərar qəbul edirik. Bu müqavilələrin imzalanması haqqında qərar qəbul edərkən Azərbaycan Respublikasının Prezidenti kimi mən üzərimə böyük məsuliyyət götürürəm, bu məsuliyyəti dərk edirəm. Əmin ola bilərsiniz ki, bu müqavilələr yalnız və yalnız Azərbaycan üçün çox zəruri olduğuna, ölkəmizin gələcəyi üçün çox xeyirli olduğuna, gələcək nəsillərimiz üçün lazım olduğuna görə mən bu məsuliyyətli qərarları qəbul edirəm.

Bu müqavilələr, onların imzalanması Azərbaycan Respublikasının dövlət müstəqilliyini və suverenliyini dünyaya bir daha nümayiş etdirir. Azərbaycan qədim və böyük neft ölkəsidir. Azərbaycanın təbii sərvətlərindən on illərlə, əsrlərlə istifadə olunubdur. Ancaq Azərbaycan xalqı heç vaxt indiki kimi öz sərvətlərinin sahibi olmayıb və heç vaxt da özü, yalnız özü belə

iri, cəsarətli, iradəli addımlar atmaq imkanına malik olmayıbdır. Bunlar hamısı dövlət müstəqilliyimizin, suverenliyimizin bəhrəsidir və bizim də borcumuz bu müstəqilliyi, suverenliyi göz bəbəyi kimi qoruyub saxlamaqdan ibarətdir.

Bu müqavilələrin imzalanması Azərbaycanda hüquqi, demokratik dövlətin mövcud olmasını, ölkəmizdə demokratik proseslərin bərqərar olub inkişaf etməsini, respublikamızda siyasi, iqtisadi islahatların həyata keçirilməsini nümayiş etdirir. Azərbaycanın sərbəst bazar iqtisadiyyatı yolu ilə getməsini və dünya iqtisadiyyatına sıx bağlanmasını nümayiş etdirir. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan Respublikasının Konstitusiyasında əks edilmiş bu prinsiplər bu gün də, gələcəkdə də həyatımızın qanunu, bütün sahələrdə işlərimizin əsası olacaqdır.

Təsəvvür edin, Azərbaycan bu müqavilələr üzrə 13 ölkə ilə əməkdaşlıq edir. Bunlar hələ işin başlanğıcıdır. Bizim təbii sərvətlərimiz zəngindir, imkanlarımız böyükdür. Biz gələcəkdə də bu yolla gedəcəyik və Azərbaycan Respublikasının təbii sərvətlərindən xalqımızın rifah halını yaxşılaşdırmaq, ölkəmizin iqtisadi potensialını yüksəltmək üçün səmərəli istifadə edəcəyik.

Bu gün iyunun 4-dür. Düz üç il bundan əvvəl, məhz iyunun 4-də Azərbaycan xalqı, respublikamız böyük təhlükə qarşısında idi. Azərbaycanda qardaş qanı tökülmüşdü, vətəndaş müharibəsi başlanmışdı. Üç il bundan əvvəli xatirinizə salın, o vaxt Azərbaycan necə ağır vəziyyətdə idi. Azərbaycan qarma-qarışıq vəziyyətdə idi, insanlar gələcəyə ümidini itirmişdilər. Azərbaycan xalqı, dövlətimiz bu üç il müddətində çox ağır, böyük uğurlu bir yol keçib. Azərbaycanda demokratiya bərqərar olub, ilk konstitusiya qəbul edilib, ölkəmizdə demokratik prinsiplər əsasında Azərbaycanın ilk parlamenti seçilibdir. Bu ağır, çətin illərdə xalqımız yenə də öz müdrikliyini göstərdi. Məhz Azərbaycan xalqının müdrikliyinə, mənəviyyatına görə biz ölkəmizi, xalqımızı bu fəlakətlərdən xilas edə bildik, vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycanın daxilində olan qarma-qarışıqlığı aradan götürdük, cinayətkar qüvvələri zərərsizləşdirdik və respublikamızda daxili ictimai-siyasi sabitlik yaratdıq.

İndi Azərbaycanın daxili həyatı sabitdir. İnsanlar rahat yaşayırlar və məhz ictimai-siyasi sabitliyin bərqərar olunması nəticəsində xarici ölkələr Azərbaycana sərmayə qoymaq səylərini günü-gündən artırır. Məhz bunların nəticəsində 1994-cü ildə birinci neft müqaviləsini imzaladıq və bu gün üçüncü böyük neft müqaviləsini imzalayırıq.

Təsəvvür edin, üç il bundan əvvəl, iyunun 4-də respublikamız, xalqımız çabalayırdı, təhlükə qarşısında, qan içində, vətəndaş müharibəsi içində idi. Amma üç ildən sonra biz məhz bu gün – iyunun 4-də artıq üçüncü böyük neft müqaviləsini imzalayırıq.

Qonaqlarımız əmin ola bilərlər ki, Azərbaycanda ictimai-siyasi sabitlik möhkəmdir və günü-gündən möhkəmlənəcəkdir. Azərbaycanda demokratik proseslər gedir və bundan sonra daha da sürətlə gedəcəkdir. Azərbaycan demokratik, hüquqi, sivilizasiyalı dövlət kimi dünya birliyində öz yerini bundan sonra da tutacaqdır.

Hörmətli dostlar, qonaqlar!

Sizi və bütün Azərbaycan xalqını, vətəndaşlarını bu gün, yəni 1996-cı il 4 iyun günü münasibətilə, üçüncü neft müqaviləsinin imzalanması münasibətilə təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Müqavilə uğurlu olsun! Gələn görüşlərə, müqavilələrə qədər.[11]

IV FƏSİL

# "ŞAHDƏNİZ" MÜQAVİLƏSİNİN İCRASI

## Konsorsium iş planını hazırlayır

### "Şahdəniz" neft yatağı üzrə müqavilə layihəsinin İdarəetmə Komitəsi üzvləri ilə görüşdə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin çıxışı

*5 mart 1997-ci il, Prezident sarayı*

– Hörmətli xanımlar və cənablar!

Bu gün "Şahdəniz" neft müqaviləsi layihəsinin İdarəetmə Komitəsinin iclası keçirilmişdir. Bu iclasda "Şahdəniz" neft müqaviləsi layihəsinin həyata keçirilməsi məsələləri müzakirə olunmuşdur. Bu barədə mənə vaxtilə məruzə edilmişdir. Mən İdarəetmə Komitəsinin üzvlərini bu gün buraya dəvət etmişəm ki, gördükləri işlər və nəzərdə tutduqları proqram haqqında məlumat versinlər.

Fevralın 28-də biz 1994-cü il sentyabrın 20-də imzalanmış ilk neft müqaviləsinin – "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi üzrə layihənin Rəhbər Komitəsinin üzvləri və ABƏŞ-in rəhbərləri ilə görüşdük. Həmin görüşdə son iki ildə görülən işlər, 1997-ci və 1998-ci illərdə görüləcək işlər haqqında məruzələr dinlənildi.

Bu gün "Şahdəniz" neft yatağının birgə işlənilməsi üzrə müqavilə layihəsinin həyata keçirilməsi məsələləri bizi maraqlandırır. Güman edirəm ki, biz imzalanmış digər müqavilələrin layihələrinin həyata keçirilməsini nəzarət altında saxlayaraq,

onlarla da belə görüşlər keçirəcəyik. Mən məmnuniyyətlə qeyd etmək istəyirəm ki, "Şahdəniz" müqaviləsi layihəsinin İdarəetmə Komitəsi bu məsələlərlə vaxtında məşğul olubdur. Onlar bu məsələləri bu gün müzakirə ediblər. Mən məmnuniyyətlə onları dinləmək istəyirəm.

## YEKUN NİTQ

– Birincisi, mən çox məmnunam ki, "Şahdəniz" neft-qaz yatağının (onun neft və ya qaz yatağı olması sonra məlum olacaqdır) müştərək işlənilməsi haqqında keçən ilin iyun ayında imzalanmış müqavilə qısa bir müddətdə əməli surətdə həyata keçirilir. Müqavilə keçən ilin oktyabr ayında təsdiq edildi. Beləliklə, o vaxtdan beş ay keçir. Hesab edirəm ki, bu müddətdə görülən işləri müsbət qiymətləndirmək lazımdır.

Cənab Şerman öz məruzəsində bu qısa müddətdə görülən işlər barədə məlumatı bizə çatdırdı, həm də gələcək planları, proqramları haqqında danışdı. Bu məlumatlardan aydın görünür ki, "Şahdəniz" neft-qaz yatağı Xəzərin Azərbaycan sektorunda çox zəngin və perspektivli bir yataqdır və onun müştərək işlənilməsi haqqında imzalanmış müqavilə çox böyük əhəmiyyət kəsb edir. Mən bu gün bu məlumatları dinləyəndən sonra daha da çox ümidlə deyə bilərəm ki, bu müqavilə çox gözəl nəticələr verəcəkdir.

Bu müqaviləni həyata keçirən şirkətlər böyük və zəngin təcrübəyə malikdir. "British Petroleum", "Statoil", "Elf Akiten", "LUKoil", İranın OİEK, Türkiyənin "Türk petrolları" şirkətləri çox təcrübəli, yenə də deyirəm, böyük, zəngin təcrübəyə malik olan şirkətlərdir. Onların bir yerdə, müştərək iş görməsi və işin bu qısa müddətdə lazımi səviyyədə təşkil olunması, şübhəsiz ki, yaxşı qiymətə layiqdir.

Təbiidir ki, bu konsorsium, yəni bu layihəyə daxil olan şirkətlər, – buraya Azərbaycan Dövlət Neft Şirkəti də daxildir, – bütün işləri bilavasitə Azərbaycan Dövlət Neft Şirkəti ilə birgə görür. Mən məmnunam ki, görülən işlərin əksəriyyəti Azərbaycan Dövlət Neft Şirkəti, respublikamızın sənaye müəssisələri, şirkətləri ilə müştərək şəkildə həyata keçirilməklə planlaşdırılır.

"Şahdəniz" neft-qaz yatağı çox mürəkkəb yataqdır. Bu yatağın yerləşdiyi sahədə suyun dərinliyi 400-500 metrə çatır.

[redacted]

üçün də lazımdır. Bu işləri sürətlə aparmaq və son nəticəni əldə etmək hamımız üçün lazımdır.

Eyni zamanda sizin bu məlumatınızı dinləyərkən mən bir daha düşündüm – nə qədər düzgün iş gördük ki, "Şahdəniz" yatağının müştərək işlənilməsi haqqında müqaviləni biz keçən ilin iyun ayında imzaladıq. Bunu ona görə deyirəm ki, o vaxt bu məsələni müzakirə edərkən ətrafımızda olan, bizimlə bərabər işləyən, o cümlədən kənardakı adamlardan bəziləri hesab edirdilər ki, bu müqaviləni imzalamaq lazım deyil. Onlar deyirdilər ki, biz gözləyək, "Şahdəniz" yatağının işlənilməsinə gələcəkdə – bağlanmış birinci müqavilədən alacağımız vəsait vasitəsilə başlayarıq. İndi təsəvvür edin, birinci müqavilədən neft almaq, gəlir əldə etmək, müəyyən texnika, texnologiya yaratmaq və bundan sonra "Şahdəniz" yatağının işlənilməsinə başlamaq üçün bizə nə qədər vaxt lazım idi?! İşə bu cür başlayandan sonra onun gələcəkdə nə qədər vaxt alacağı göz qabağındadır.

Bu müqavilələrin əleyhinə çıxanlar, yaxud ona şübhə edən adamlar belə hərəkətləri bir tərəfdən bu məsələləri dərk edə bilmədiklərinə görə edirdilər, digər tərəfdən isə Azərbaycanın irəli getməsinə, bizim işlərimizə mane olmaq istəyirdilər. Bugünkü müzakirə onu açıq-aydın göstərir ki, həm "Şahdəniz" müqaviləsini, həm "Qarabağ" müqaviləsini, həm "Əşrəfi-Dan ulduzu" müqaviləsini, həm də "Lənkərandəniz-Talışdəniz" müqaviləsini imzaladığımıza görə biz çox doğru yoldayıq. Onların hamısı bir vaxtda işə düşməlidir. Onların hər birinin icrası, son nəticənin əldə olunması, respublikamız üçün fayda verməsi böyük vaxt tələb edir.

"Dədə Qorqud" yarımdalma qazma qurğusunun bərpa olunması, modernləşdirilməsi üçün əvvəlcə 37 milyon dollar deyirdilər, indi isə bildirirlər ki, 40 milyon dollar vəsait xərclənibdir. Burada deyildi ki, "Şelf-5" qurğusunun hazırlanması və modernləşdirilməsi, – verilən məlumata görə, onun əsas hissəsindən az bir şey qalacaq, – həmin qurğunun tamamilə yeni texnika və texnologiya ilə quraşdırılması üçün 115 milyon dollar vəsait lazımdır. Təsəvvür edin, bu işləri görmək, müəyyən texnika, texnologiya yaratmaq üçün nə qədər böyük xərclər lazımdır.

[redacted]

imzalanmış beş müqavilə, hər bir müqavilənin layihəsini həyata keçirmək üçün orqan var – birinci müqavilə üzrə idarəetmə orqanı konsorsiumdur, Beynəlxalq Əməliyyat Şirkətidir, ondan sonra imzalanan müqavilələrin hər biri üzrə İdarəetmə Komitəsi vardır. Mən bu fikirdəyəm ki, məsələnin sürətlə və səmərəli həll edilməsi üçün bu təşkilatlar, kollektivlər arasında sıx əlaqə olmalıdır. Gərək bu kollektivlər bir-biri ilə çox sıx əlaqədə işləsin. Onu siz də, biz də nəzərə alırıq ki, bir çox işlərin görülməsi, yəni infrastrukturların yaranması, neft kəmərlərinin, terminalların tikilməsi, yaxud bütün müqavilələrin həyata keçirilməsində gələcəkdə səmərəli istifadə olunacaq müəssisələrin yaradılması bu müştərək işi daha da çox tələb edir. Ona görə də sizin bir-birinizlə sıx əlaqədə işləməyiniz lazımdır.

Mən bir-birinizlə fikir, təcrübə mübadiləsi aparmaq barədə cənab Şermanın verdiyi məlumatlardan çox məmnunam. Amma hesab edirəm ki, bu əlaqələr bundan sonra daha da sıx olmalıdır. İndi bizim imzalanmış beş müqaviləmiz vardır. Düşünürəm ki, işlər qaydaya düşəndən sonra bu müqavilələrin hər birinin layihələrini həyata keçirən təşkilatların bir yerdə toplantısını, görüşünü keçirib, qarşılıqlı əlaqələr məsələlərini müzakirə etmək olar. Mən belə bir vəzifəni öz üzərimə götürürəm.

Nəhayət, görüşümüzə yekun vuraraq demək istəyirəm ki, qısa bir müddətdə, cəmisi beş ay içərisində siz çox iş görmüsünüz. Mən gördüyünüz bu işlər münasibətilə sizi təbrik edirəm. 1997-ci ildə nəzərdə tutulmuş proqramın vaxtından əvvəl yerinə yetirilməsini arzu edirəm. İş prosesində nə vaxt ehtiyacınız olsa, siz mənə müraciət edə bilərsiniz. Mən sizi həmişə dinləməyə hazıram.

Bilməlisiniz ki, həm bu layihənin, həm də bütün başqa müqavilələrin həyata keçirilməsi Azərbaycan dövlətinin ən mühüm bir vəzifəsidir. Bu məsələlər mənim şəxsi nəzarətimdədir.

Bu gün elan etdiyiniz proqramın həyata keçirilməsində sizə uğurlar arzulayıram. Sağ olun, gələn görüşlərədək.[12]

# BP/“Statoil” alyansının Bakıda yeni ofisinin açılışı

## BP/“Statoil” alyansının Bakıda yeni ofisinin açılışı mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı

*31 mart 1998-ci il*

– Hörmətli dostlar, qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün burada artıq Azərbaycanda özünə çox dəyərli yer tutmuş dünyanın iki böyük neft şirkətinin: BP və “Statoil” şirkətlərinin yeni ofisinin, binasının açılması münasibətilə sizi təbrik edirəm. Mən bu gün burada sizinlə birlikdə bu hadisəni təkcə bir binanın inşa edilib, avadanlıqla təmin olunub yüksək səviyyəyə gətirilməsi kimi qeyd etmək fikrində deyiləm. BP və “Statoil”un Azərbaycanda işlədiyi zaman gördükləri işlərə müəyyən qədər yekun vurmaq məqsədilə sizinlə görüşə gəlmişəm. Şübhəsiz ki, sizin təmir etdiyiniz, yaratdığınız və indi artıq istifadə etməyə başladığınız bu bina Azərbaycanda, Bakıda olan gözəl binaların sırasında özünəməxsus yer tutur. Təbiidir ki, bu bizim qədim İçərişəhərin abadlaşdırılması sahəsində də atılan bir addımdır.

Xarici ölkələrin şirkətlərinin, o cümlədən neft şirkətlərinin və maliyyə mərkəzlərinin Azərbaycandakı ofislərinin İçərişəhərə daha çox meyil etmələri təsadüfi hal deyildir. Bu, təbiidir. Çünki İçərişəhər Azərbaycanın, Bakının qədim tarixini əks etdirən gözəl bir muzeydir. Siz də çalışırsınız ki, özünüzə məhz bu muzeydə yer tutasınız və buna da nail olursunuz. Mən bunu müsbət qiymətləndirirəm və təqdir edirəm. Hesab edirəm ki, bu, yaxşı meyildir. Bu münasibətlə sizi təbrik edirəm.

Ancaq bugünkü görüşdə məni daha çox sevindirən və bu günə məna verən odur ki, siz Azərbaycanda gördüyünüz işlərin yeni mərhələsinə gəlib çatmısınız. Biz dünən sizinlə görüşərkən 1994-cü ilin sentyabr ayında birlikdə imzaladığımız ilk müqavilənin həyata keçirilməsi barəsində ətraflı fikir mübadiləsi apardıq və hamımız birlikdə məmnunuq ki, bu müqavilə

müvəffəqiyyətlə həyata keçirilir, nəzərdə tutulmuş proqramın yerinə yetirilməsi təmin olunur.

BP və "Statoil" şirkətlərinin ilk müqavilədə böyük payı, hissəsi var və bu müqavilənin həyata keçirilməsində siz çox dəyərli işlər görürsünüz. Ancaq siz ondan sonra – 1996-cı ilin iyun ayında "Şahdəniz" qaz və neft yatağının işlənilməsi ilə əlaqədar yeni bir müqaviləni bizimlə imzaladınız. "Şahdəniz" yatağının işlənilməsi ilə əlaqədar gördüyünüz işlər haqqında sizin bu gün burada mənə verdiyiniz məlumat məni məmnun edir. Binanın böyük bir hissəsinin məhz "Şahdəniz" layihəsinin həyata keçirilməsi üçün ayrılması da bu layihənin sizin üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Mən çox məmnunam ki, "Şahdəniz" layihəsi ilə siz ciddi məşğul olursunuz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu gün mənə verilən vədlər, sözlər vaxtında yerinə yetiriləcəkdir. Biz "Şahdəniz" yatağına böyük əhəmiyyət veririk, ümidlər bəsləyirik və sizinlə birlikdə apardığımız işlər, güman edirəm ki, qısa bir zamanda bu yatağın neft və qaz məhsullarının istifadə olunması üçün bizə imkan yaradacaqdır.

"Şelf-5" qazma qurğusunun modernləşdirilməsi, onun müasir tələblərə uyğun olaraq hazırlanması və bu ilin sentyabr ayında işə başlaması ilə əlaqədar sizin verdiyiniz məlumatları da mən çox diqqətlə dinlədim. Mən bunu məmnuniyyətlə qəbul edirəm. Çox sevindirici haldır ki, siz bu qazma qurğusunu yaxşı düzəldirsiniz. Bu gün mənə dedilər ki, "Şelf-5" qazma qurğusu hətta "Dədə Qorqud" qurğusundan daha da yüksək səviyyədə olacaqdır. Belə qazma qurğularının hazırlanması və istifadəyə verilməsi nəticəsində onlardan bir yataqda yox, Xəzər dənizinin digər yerlərində də istifadə olunacaqdır. Beləliklə, bu işlər çox geniş miqyas alır.

Bugünkü görüşdə məni məmnun edən cəhətlərdən biri də ondan ibarətdir ki, burada, sizin bu ofisinizdə çoxlu Azərbaycan gəncləri də işləyirlər. Güman edirəm ki, bu ənənə get-gedə daha da genişlənəcəkdir. Bu da təbiidir. Çünki siz, böyük təcrübəyə malik olan şirkətlər, burada öz işlərinizi yaxşı qurmaq üçün yerli kadrlardan istifadə etməlisiniz. Siz də yaxşı bilirsiniz ki, Azərbaycanda neft və qaz sahəsində, ümumiyyətlə, elmin və

[redacted]

Mərasimdə Böyük Britaniyanın “British Petroleum” şirkətinin baş icraçı direktoru Con Braun və Norveçin “Statoil” şirkətinin vitse-prezidenti Yohan Nik Vold çıxış ediblər.

# "İstiqlal" qazma qurğusunun işə salınmasına həsr olunmuş mərasim

## "İstiqlal" qazma qurğusunun işə salınmasına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin nitqi

*2 sentyabr 1998-ci il, Bakı, ARDNŞ-nin gəmi təmiri zavodu*

– Hörmətli xanımlar, cənablar!

Əziz dostlar!

Biz, buraya toplaşmış insanlar, bu gün Azərbaycanın neft sənayesinin həyatında, bütün Azərbaycanın həyatında əlamətdar bir hadisənin iştirakçısıyıq: Xəzər dənizinin dərin sularının altında zəngin neft və qaz yataqlarının kəşfi, neft və qaz hasilatının təmin olunması layihəsinin həyata keçirilməsi çərçivəsində bu işlər üçün üzən yarımdalma qazma qurğusunun işə başlaması mərasimində iştirak edirik.

Bu, adi bir hadisə deyildir. Çünki önünə toplaşdığımız qazma qurğusu nəhəng, əzəmətli və eyni zamanda müasir texnikanın, texnologiyanın tələbləri ilə təchiz olunmuş böyük bir qurğu, böyük bir istehsal müəssisəsidir. Cənab Mayk Şerman rica etdi ki, bu qurğuya ad qoyulsun. Mən bir neçə gün bundan öncə bu qurğuya ad qoymuşam – onun adı "İstiqlal"dır.

Bu nəhəng istehsal müəssisəsinə, qazma qurğusuna bu ad heç də təsadüfi olaraq verilməyibdir. Bilirsiniz ki, bir neçə vaxt bundan əvvəl biz böyük qazma qurğusunun bərpa olunub modernləşdiriləndən sonra işə başlamasını təntənəli surətdə qeyd etdik və ona "Dədə Qorqud" adı verdim. Bu adı mən vermişəm.

Nə üçün "Dədə Qorqud"? Çünki Qorqud bizim ulu babamız, dədəmizdir, tarixi kökümüz, soyumuzdur. İkinci qazma qurğusuna "İstiqlal" adı verərkən bununla mən keçmişimizi bu günümüzlə daha da sıx bağlamaq arzusunda, istəyində olmuşam. Bizim tarixi keçmişimiz Dədə Qorquddur, bu günümüz, gələcəyimiz isə əbədi müstəqillikdir, istiqlaliyyətdir.

Mən əminəm ki, bu üzən qazma qurğusu "İstiqlal" adını şərəflə daşıyacaq, onun ömrü uzun olacaq və daim Azərbaycan

[redacted]

Müstəqil dövlət olaraq bu işləri başlayarkən Azərbaycan neftçilərinin bir neçə nəslinin əməyi nəticəsində Azərbaycanın ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda kəşf edilmiş zəngin neft və qaz yataqlarının mövcud olması bizim bugünkü və gələcək işlərimizin əsasını təşkil edir. Keçmişdə yaşamış və bu gün bizim sıralarımızda olan Azərbaycan neftçiləri, alimləri, geoloqları öz xalqının təbii sərvətlərinin aşkar edilməsi üçün dəyərli işlər görmüş, böyük neft və qaz yataqları açmışlar və bunlar da indi müstəqil Azərbaycan dövləti üçün böyük proqramlar tərtib etməyə əsas yaradır. Bu gün, bu əlamətdar bayram günü Azərbaycan neftçilərinin bütün nəsillərini minnətdarlıq hissi ilə xatırlayır və bildirmək istəyirəm ki, Azərbaycan xalqı onların gördüyü işləri heç vaxt unutmayacaqdır. Mən bu gün onların xatirəsi qarşısında baş əyirəm.

Allah Azərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmişdir. Azərbaycan xalqının da dəyərli insanları, böyük alimləri, fədakar neftçiləri və başqa mütəxəssisləri bu zəngin sərvətlərin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüşlər. Bu işlərdən biri də neft sənayesinin texniki, istehsal bazasının, infrastrukturunun yaranması olmuşdur.

70-80-ci illərdə dənizdə neft və qaz yataqlarının işlənilməsi üçün, suyun dərinliklərində olan yataqlardan neft hasil etmək məqsədilə yeni qurğuların, cihazların, texnikanın yaradılması zərurəti meydana çıxmışdı. Bu məqsədlə o illərdə üzən yarımdalma qazma qurğularının yaradılması və istifadə edilməsi məsələsi həll olunmuşdu. O illərdə "Şelf-1" üzən qazma qurğusunun istifadəsinə başladıq. Bundan sonra ardıcıl olaraq "Şelf-2", "Şelf-3", "Şelf-4" və "Şelf-5" qazma qurğuları yarandı.

Bildiyiniz kimi, "Şelf-2" üzən qazma qurğusu keçən illərdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən, Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə modernləşdirildi, bərpa olundu və işə başladı. İndi o, "Dədə Qorqud" adı ilə Xəzər dənizinin "Şahdəniz" yatağında quyu qazmaqla məşğuldur.

Bu gün isə biz "Şelf-5" üzən qazma qurğusunun təmirindən, bərpa olunmasından, modernləşdirilməsindən, yeniləşdirilməsindən sonra onun işə başlamasını bayram edirik. Biz bu

[redacted]

dörd-beş dəfə artıq neft verir. Gündə 10 min tondan artıq neft alınır. Mənə bir neçə gün bundan öncə məlumat verdilər ki, yeddinci quyu daha da gözəl nəticələr veribdir. O quyudan gündə 500 ton neft çıxarılması nəzərdə tutulduğu halda, indi gündə üç min ton, bəlkə də, dörd min ton neft alınması gözlənilir. Budur bizim gördüyümüz işlərin nəticəsi!

Xatirimdədir, "Şahdəniz" müqaviləsinin imzalanması ərəfəsində Azərbaycanda yenə də bəzi şəxslər belə bir müqavilənin respublikamız üçün əhəmiyyətli olmaması, yaxud da ki mənfəətli olmaması haqqında cürbəcür fikirlər irəli sürürdülər. Ancaq bizim mütəxəssislər bu məsələni hərtərəfli müzakirə etmişdilər və "Şahdəniz" yatağında böyük qaz ehtiyatları, eyni zamanda böyük neft ehtiyatları olduğunu dəfələrlə sübut etmişlər. Buna baxmayaraq, bəziləri heç bir əsas olmadan əksinə sübut etmək istəyirdilər. Milli Məclisin keçmiş sədri, özünü neft sahəsində guya böyük mütəxəssis hesab edən Rəsul Quliyev 1996-cı ildə "Şahdəniz" müqaviləsinin imzalanmasının əleyhinə çıxdı. Biz bunu geniş müzakirə etdik.

Şübhəsiz ki, mənə də və başqalarına da yaxşı məlum idi ki, bu əks fikir heç bir şeyə əsaslanmayıbdır. Sadəcə olaraq, Azərbaycanın gördüyü işlərə ləkə salmaq, yaxud da onlara mane olmaq, Azərbaycan iqtisadiyyatının inkişafına mane olmaq məqsədi daşıyırdı. Bu bəd niyyətlər bizə məlum idi. Amma buna baxmayaraq, mən bu barədə geniş müzakirə apardım və burada iştirak edən bizim neft sahəsində çox böyük alimlərimiz, mütəxəssislərimiz, Dövlət Neft Şirkətinin rəhbərliyi bu müzakirədə iştirak etdilər. Bir daha təsdiq olundu ki, "Şahdəniz" neft və qaz yatağı zəngin yataqdır və bunun istifadə edilməsi üçün mütləq işə başlamaq lazımdır, müqavilə imzalanmalıdır. Beləliklə, 1996-cı il iyun ayının 4-də Bakıda, Gülüstan sarayında bu müqavilə imzalandı. İndi o vaxtdan iki il keçibdir. Artıq biz bunun gözəl nəticələrini görürük.

Məhz "Şahdəniz" müqaviləsinin imzalanması nəticəsində, "Şahdəniz" proqramı əsasında bir konsorsium yarandı. Bu konsorsiuma BP, "Statoil", "Türk petrolları" şirkəti, ondan sonra isə "Elf Akiten", "LUKoil" və İranın OİEK şirkəti daxil oldu. Bunlar işə başladılar və biz bu gün bunun bəhrələrini görürük. Bu bəhrələr nədən ibarətdir?

[redacted]

və bununla bərabər, Azərbaycan vətəndaşlarının, mütəxəssislərinin, bu qurğuda çalışan bütün işçilərin hamısının müasir, yüksək səviyyəyə qalxmasını təmin edir. Bu da böyük nailiyyətdir.

Mən hesab edirəm ki, biz gələcəkdə yenə belə qurğuların, yəni o "Şelf" adlanan qurğuların bərpasını davam etdirəcək və yenə belə bir qurğunun işə salınmasının şahidi olacağıq. 1994-cü il sentyabr ayının 20-də biz ilk böyük müqaviləni – "Əsrin müqaviləsi"ni imzalamışıq. Az bir vaxt keçibdir, hələ dörd ili də tamam deyildir. Amma ötən illər yeni-yeni müqavilələr imzalanmışdır. İndi Azərbaycan Dövlət Neft Şirkəti həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm də Azərbaycan ərazisində dünyanın böyük neft şirkətləri ilə 15 müqavilə imzalayıbdır və onların icrasına başlanıbdır. İmzalanmış müqavilələrin əsasında sərmayə qoyuluşunun həcmi təxminən 35-38 milyard dollar miqdarında nəzərdə tutulubdur. Onlar Azərbaycanın bu gün və ən çox gələcəkdə iqtisadiyyatının, həyatın bütün sahələrinin inkişafını təmin etmək üçün çox böyük vasitədir.

Görülən işlər bu gün öz bəhrəsini verir. Neft sənayesində çalışan insanlar işləyirlər, iş yerləri əldə edirlər, yüksək maaş alırlar və onların maddi vəziyyəti günü-gündən yaxşılaşır. Ancaq bu gördüyümüz işlər daha da çox Azərbaycanın gələcəyinin xoşbəxtliyini təmin edir, Azərbaycanın parlaq gələcəyini təmin edəcəkdir. Biz çalışırıq ki, gələcək nəsillər, övladlarımız, nəvələrimiz, nəticələrimiz bizim çəkdiyimiz çətinlikləri çəkməsinlər, firavan yaşasınlar. Biz bu addımlarla Azərbaycanı iqtisadi cəhətdən inkişaf etmiş bir ölkə etmək istəyirik. Biz bu addımlarla Azərbaycan vətəndaşlarını, xalqını xoşbəxt etmək istəyirik, onlara firavan yaşayış təmin etmək istəyirik. Biz bu işləri dünyanın böyük neft şirkətləri ilə və onların vasitəsilə başqa böyük şirkətlərlə birgə görürük.

Bu gün "İstiqlal" qazma qurğusunun işə başlaması Azərbaycanın dünyanın bir neçə neft şirkəti ilə 1996-cı ildə başladığı işin gözəl nəticəsidir. Mən bu münasibətlə Azərbaycanda neft sahəsində, iqtisadiyyatın bütün başqa sahələrində Azərbaycan vətəndaşları ilə yan-yana işləyən, çalışan xarici şirkətlərin nümayəndələrinə, mütəxəssislərinə, xarici ölkələrin hər bir vətəndaşına müştərək, faydalı birgə işlərimizə görə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Ötən bir neçə ildə Azərbaycanda iş görən xarici ölkələrin şirkətləri inandı ki, Azərbaycanda iş görmək olar, Azərbaycanda iş görmək üçün bütün imkanlar və ən əsası, əlverişli şərait yaranıbdır. Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik, respublikamızda xarici şirkətlərin səmərəli iş görməsi üçün mövcud olan qanunlar və qaydalar xarici sərmayənin Azərbaycana gəlməsi üçün böyük imkanlar yaratmışdır və bu da hər iki tərəf üçün olduqca faydalıdır. Bugünkü mərasim – xarici şirkətlərin nümayəndələri ilə Azərbaycan neftçiləri və ictimaiyyətin nümayəndələrinin birlikdə keçirilən bu təntənəli mərasimi bizim gözəl əməkdaşlığımızın parlaq təzahürüdür.

Bu, bir daha sübut edir ki, Azərbaycanda görülən işlərin hamısı böyük gələcəyə malikdir və Azərbaycana sərmayə gətirən insanlar öz sərmayəsinin xeyrini görəcəklər. Azərbaycanda yaranmış şərait bundan sonra da respublikamıza xarici sərmayənin gəlməsini təmin edəcəkdir. Görülən işlər və əldə olunmuş bəhrələr yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir və Azərbaycan dövlətinin bu müstəqillikdən, azadlıqdan istifadə edərək apardığı doğru, düzgün, düşünülmüş daxili və xarici siyasətin parlaq nəticəsidir.

Biz bu gün "İstiqlal" adı daşıyan üzən qazma qurğusunun işə başlaması mərasimində iştirak edərək və bu nəhəng istehsal müəssisəsinə gələcək uğurlar arzu edərək bir daha bəyan edirik ki, Azərbaycanın dövlət müstəqilliyi bundan sonra günügündən yüksələcək, möhkəmlənəcək və bu qurğu kimi qüdrətli, möhkəm, əyilməz, dönməz olacaqdır. "İstiqlal" qurğusunun işləməsini təmin edən insanlar bir neçə gündən sonra sahildən ayrılıb qurğunun üzərində Xəzər dənizinin dərin yerlərinə, demək olar ki, dənizin ortasına doğru gedəcəklər. Dənizdə çalışan işçilər, mütəxəssislər, adətən, çox mətin, qoçaq, qəhrəman olurlar. Ümid edirəm ki, onlar yeni-yeni qəhrəmanlıq nümunələri nümayiş etdirəcəklər. Onların hamısına cansağlığı arzu edirəm və bu qurğunun səmərəli işləməsində uğurlar arzulayıram.[14]

"İstiqlal" qurğusuna bir daha uzun ömür, xoşbəxt gələcək və yeni-yeni uğurlar arzulayıram. Azərbaycan neftçilərinə eşq olsun! Azərbaycanın milli azadlığına, istiqlaliyyətinə eşq olsun! "İstiqlal" qurğusuna eşq olsun, eşq olsun, eşq olsun!




QLAL

## “Şahdəniz” yatağı necə kəşf edildi?

“Şahdəniz” strukturunun yenidən dərin kəşfiyyat qazmasına daxil edilməsi 1996-cı il iyunun 4-də xarici şirkətlərlə “Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz” perspektivli sahəsinin kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında” Sazişin imzalanması hesabına mümkün olub.

1998-ci il fevralın 4-də Bakıda “Şahdəniz” layihəsi üzrə tərəfdaş şirkətlərin VIII iclası keçirildi. “BP Exploration (Shah-Deniz) Ltd.” şirkətinin mətbuat xidmətinin yaydığı məlumata görə, ilk kəşfiyyat quyusunun qazılması üçün təklif olunan yer tərəfdaşlar tərəfindən təsdiq edilirdi. Bundan əlavə, iclasda ikinci kəşfiyyat quyusunun qazılması variantlarına da baxıldı. Tərəfdaşlar həmçinin quyunun layihələndirilməsini vaxtında başa çatdırmağa, 1998-ci il iyunun sonu – iyulun əvvəlində birinci quyunun qazılmasına başlamağa imkan verən qazma strategiyasını müzakirə edərək təsdiqlədilər.

Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) və “BP Exploration (Shah-Deniz) Ltd.” 1997-ci il martın 31-də “Şelf-5” yarımdalma üzən qazma qurğusunun modernləşdirilməsi üzrə müqavilə imzaladılar. Onun vasitəsilə “Şahdəniz” strukturunda kəşfiyyat quyularının qazılması nəzərdə tutulurdu. “Şahdəniz” konsorsiumu iştirakçıları artıq aprel ayında üzən qazma qurğusunun modernləşdirilməsi üzrə işlərə başladılar. 1998-ci il iyunun 16-da isə Azərbaycan Milli Elmlər Akademiyasında “BP Exploration (Shah-Deniz) Ltd.” şirkəti ictimaiyyətə “Kəşfiyyat qazma əməliyyatları zamanı ətraf mühitə təsirlərin qiymətləndirilməsi” haqqında hesabat təqdim etdi.

Aparılan axtarış-kəşfiyyat işləri nəticəsində “Şahdəniz” strukturunda qazılacaq quyunun yeri dəqiqləşdirildi və 1998-ci il iyulun 7-də “Dədə Qorqud” üzən qazma qurğusundan layihə dərinliyi 6069 metr olan 1 nömrəli quyunun (“SDX-1”) qazılmasına başlanıldı. Həmin il avqustun 9-da quyu dibi 2550 metr dərinliyə çatdırıldı və “Dədə Qorqud” qazma qurğusu quyunu tərk etdi. “SDX-1” quyusunun qazılması 1998-ci il dekabrın 14-dən etibarən “İstiqlal” üzən qazma qurğusu vasitəsilə davam etdirildi.

1999-cu ilin fevral ayında quyunun layihə dərinliyinin təqribən 200 metr artırılması haqda qərar qəbul edildi. Burada məqsəd

“Balaxanı-10” və “Fasilə” məhsuldar laylarından nəticələrin əldə edilməsi idi. Həmin il fevralın sonlarında “İstiqlal” üzən qazma qurğusu kəşfiyyat işlərini dayandırmalı oldu. Buna səbəb isə qazma qurğusundakı dörd dizel generatorundan üçünün işində yaranan nasazlıqlar idi. Nəticədə böyük dərinlikdə, yüksək təzyiq altında qazma işlərinin aparılması mümkün olmadı. Əvvəlcə dizel generatorlarının yerindəcə təmiri məsələsinə baxılsa da, sonradan məlum oldu ki, onlardakı nasazlıqların aradan qaldırılması sahildə stasionar şəraitdə həyata keçirilməlidir. Bu isə xeyli vaxt itkisi demək idi.

Bununla əlaqədar olaraq “Şahdəniz” layihəsi tərəfdaşları martın əvvəllərində birinci kəşfiyyat quyusunun “Dədə Qorqud” üzən qazma qurğusu vasitəsilə davam etdirilməsi haqda qərar verdilər. Layihənin operatoru olan BP şirkətinin ictimaiyyət üçün açıqlamasında bildirilirdi ki, “İstiqlal” üzən qazma qurğusu sahilə aparılaraq enerji blokunda yaranmış nasazlıqlar aradan qaldırılacaq, “Əşrəfi” və “Dan ulduzu” müqavilə sahəsində qazma əməliyyatlarına cəlb olunmuş “Dədə Qorqud” üzən qazma qurğusu isə, əldə olunan razılaşmaya əsasən, “Şahdəniz” yatağında ilk kəşfiyyat quyusunun qazılmasını davam etdirəcək.

Artıq martın 7-də “Dədə Qorqud” üzən qazma qurğusu “Şahdəniz” müqavilə sahəsinə aparılaraq ilk kəşfiyyat quyusunun qazma nöqtəsində lövbər saldı. Amma dənizdə qeyri-stabil hava şəraiti olduğundan onun qazma nöqtəsində tam şəkildə yerləşdirilməsi bir neçə gün uzandı.

Nəhayət, 1999-cu il martın 19-da “Dədə Qorqud” üzən qazma qurğusu “Şahdəniz” strukturundan ilk kəşfiyyat quyusunun qazılmasını 5800 metr dərinlikdən davam etdirməyə başladı. Təqribən bir aydan sonra “Dədə Qorqud”dan aparılan işlər nəticəsində quyuda 6200 metr olmaqla layihə dərinliyi əldə edildi. Buna baxmayaraq, qazmanın bir qədər də davam etdirilməsi məqbul sayılırdı. Artıq aprelin sonlarında “İstiqlal” qazma qurğusundakı dizel generatorlarının istehsalçısı olan Finlandiyanın “Wartsila” şirkəti onları dəyişdi və qazma qurğusunun enerji təminatı tam bərpa olundu. Mayın əvvəlində qurğu yedək gəmiləri vasitəsilə “Şahdəniz” strukturundakı ikinci quyunun qazma nöqtəsinə nəql edildi. 1999-cu il mayın 7-də “İstiqlal” qazma qurğusu “Şahdəniz”də ikinci kəşfiyyat quyusunun qazma əməliyyatlarına başladı.

Birinci kəşfiyyat quyusuna gəldikdə isə, aparılmış geoloji-geofiziki araşdırmaların nəticələrinə əsasən, quyunun qazılması mayda 6316 metr dib dərinliyində ("Fasilə" lay dəstəsi) dayandırıldı.

"Şahdəniz"dəki ilk kəşfiyyat quyusunun işlənilməsinin nəticələrinə dair jurnalistlərin suallarını cavablandıran ARDNŞ prezidenti Natiq Əliyev mayın 17-də bildirirdi: "Hələlik ehtiyatlarla bağlı nəsə proqnoz vermək çətindir, amma bizdə o inam var ki, "Şahdəniz"də böyük bir yataq açılacaq. Quyunun mənimsənilməsi göstərəcək ki, orada neft, qaz və kondensat nə qədərdir".

Maraqlı fakt odur ki, hələ "Şahdəniz" strukturu üzrə müqavilə imzalanandan bəri orada geofiziki kəşfiyyat göstrəriciləri əsasında 400 milyard kubmetr təbii qaz, 200 milyon ton kondensat və 100 milyon ton neftin olması güman edilirdi və açılmış məhsuldar laylar üzrə hansı nəticənin əldə ediləcəyi haqda dürüst məlumatlar son ana qədər də yox idi.

1999-cu il mayın 31-də isə BP/"Amoco" ("Şahdəniz" layihəsinin operatoru, ABŞ-nin "Amoco" şirkəti ilə 1998-ci ilin sonunda birləşəndən sonra bazar dəyərinə görə dünyanın üçüncü neft-qaz şirkəti belə adlanırdı) və ARDNŞ "Şahdəniz" strukturunda qazılmış birinci kəşfiyyat quyusunun yekunları ilə bağlı ictimaiyyət üçün birgə açıqlamalarında bildirirdilər ki, müqavilə sahəsində qazılan ilk kəşfiyyat quyusu 6316 metr layihə dərinliyinə çatıb və quyuda karbohidrogen ehtiyatları aşkar edilib, lakin açılan yataqda nə - neft, qaz, yoxsa qaz kondensatının olması hələlik dəqiqləşdirilməyib.

BP/"Amoco" şirkətinin Azərbaycandakı layihələr üzrə kəşfiyyat qrupunun rəhbəri Endi Hopvud bununla bağlı deyirdi: "Alınan ilkin nəticələr ümidvericidir və qazma zamanı əldə edilən məlumatların toplanması və təhlili prosesi artıq başlayıb".

Onun sözlərinə görə, məlumatların təhlili bir aya qədər zaman tələb edə bilər.

Buna nail olmaq üçün 1999-cu il iyunun 23-də quyuda sınaq işləri başladı. Quyu kəsilişində "Fasilə" lay dəstəsinin 6225-6289 metr intervalı perforasiya olundu və quyu bir neçə rejimdə yoxlanıldı. Nəticədə mədən-geofiziki tədqiqatlara əsasən, açılmış kəsilişdə 5620-6307 metr dərinlikdə yerləşən ("Balaxanı-8", "Balaxanı-10"

və “Fasilə” lay dəstəsindən ibarət) intervalların karbohidrogenlə zəngin olduğu müəyyən edildi. Daha sonra 15 millimetr diametrli ştutser və 500 atmosfer quyuağzı təzyiqlə quyudan gündəlik 1,5 milyon kubmetr, 400 tonadək kondensat alındı. Beləliklə, Xəzər dənizinin Azərbaycan sektorunda “Şahdəniz” - iri qaz-kondensat yatağı kəşf olundu.

## “Şahdəniz”də əldə edilmiş nəticələrin təqdimatı

### Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağında əldə edilmiş nəticələrin təqdimat mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi

*12 iyul 1999-cu il, Bakı, Prezident sarayı*

– Hörmətli xanımlar və cənablar!

Bu gün biz çox əlamətdar bir hadisə münasibətilə buraya toplaşmışıq. Azərbaycan dövlətinin yeni neft strategiyası, neft doktrinasının əməli surətdə həyata keçirilməsinin müsbət nəticəsi ilə tanış olmaq və bu məsələni müzakirə etmək məqsədilə biz bu gün buradayıq.

Məlumdur ki, 1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir.

Gənc, müstəqil Azərbaycan bu arzularla yaşayaraq, eyni zamanda dərk edirdi ki, bu böyük işləri təkbaşına görə bilməz. Ona görə də bizim zəngin neft, qaz yataqlarının işlənilməsini və xalqın mənafeyi üçün istifadə olunmasını, yalnız dünyanın inkişaf etmiş ölkələri ilə, onlara məxsus olan neft şirkətləri ilə, yüksək texnologiyası ilə həyata keçirmək mümkündür. Məhz buna görə də 1994-cü il sentyabr ayının 20-də Azərbaycan, Azərbaycanın Dövlət Neft Şirkəti dünyanın bir çox böyük neft şirkətləri ilə ilk böyük müqaviləni imzaladı. Bu müqaviləyə də

“Əsrin müqaviləsi” adı verildi. Bu müqavilə ardıcıl surətdə həyata keçirilir, onun müsbət nəticələrini biz artıq bir müddət bundan öncə müşahidə, hiss etmişik və ondan istifadə edirik.

Məlumdur ki, “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarından çıxarılan neftlə əlaqədar olan bu konsorsium çox müvəffəqiyyətlə işləmişdir və 1997-ci il noyabr ayının 12-də biz “Çıraq” neft yatağından ilkin nefti almışıq.

Bu münasibətlə Azərbaycanda çox işlər görülübdür. Onlardan biri də ondan ibarətdir ki, biz neftin dünya bazarına ixrac edilməsi üçün neft kəmərləri yarada bilmişik: birinci – Bakı-Novorossiysk, ikinci – Bakı-Supsa. Onların hər ikisi Qara dənizdəki limanlara çıxır – biri Rusiyaya, biri Gürcüstana. Təəssüf ki, bizim ilk qurduğumuz neft borusu – Bakı-Novorossiysk neft kəməri normal işləmir, vaxtaşırı orada neftin hərəkəti bağlanır və son üç ayda tamamilə bağlanıbdır. Bu bizə bir çox çətinliklər yaradır.

Mən bu münasibətlə onu deyə bilərəm ki, biz 1994-cü ildə “Əsrin müqaviləsi”ni imzalayanda Rusiya hökuməti bizə vədlər verirdi ki, siz bu hasil olan neftin hamısını Rusiya vasitəsilə ixrac edin və başqa marşrutlara göz dikməyin, biz bunların hamısını təmin edəcəyik.

Biz buna inandıq və ona görə də ilkin neftin ixracı üçün birinci neft kəmərini Rusiyanın ərazisindən Novorossiysk limanına çəkdik. Ancaq təəssüflər olsun ki, Rusiyanın hökuməti verdiyi vədləri yerinə yetirmir və bizim bu boru xətti üzrə neft ixracımız çox çətinliklərlə rastlaşır. Bununla da həm xarici şirkətlər çox şey itirir, həm də Azərbaycan Respublikası çox şey itirir.

Ancaq inşa etdiyimiz və bu ilin aprel ayında istifadəyə verdiyimiz Bakı-Supsa neft kəməri işləyir. Tam gücü ilə işləyir və “Çıraq” neft yatağından hasil olunan neft bu kəmər vasitəsilə dünya bazarına çıxarılır. Yaxşı ki, biz bu neft kəmərini vaxtilə planlaşdırdıq və tikdik.

Bizim böyük nefti ixrac etmək üçün planlaşdırdığımız böyük neft kəməri – Bakı-Ceyhan, Bakı-Gürcüstan-Türkiyə-Ceyhan neft kəməri də mütləq tikilməlidir və məlumdur ki, biz bu sahədə çox işlər görmüşük. Son zamanlar Azərbaycan Dövlət Neft Şirkəti Türkiyə hökuməti ilə, Türkiyənin bu barədə səlahiyyətli

şəxsləri ilə danışıqlar aparıbdır. Bildiyimə görə, Türkiyənin Böyük Millət Məclisi bu məsələyə baxıbdır və zəmanət haqqında hökumətə razılıq veribdir. Beləliklə, biz tezliklə Bakı-Ceyhan xəttinin də tikilməsinə başlayacağıq. Bu, mütləq lazımdır. Bizim bu tədbirlərimizi bəyənməyən, yaxud onun əleyhinə çıxanlar artıq görürlər ki, bir müqavilə – "Azəri-Çıraq-Günəşli" müqaviləsi işləyir, neft verir. İndi digər bir müqavilə haqqında da biz burada danışacağıq. Burada da artıq böyük imkanlar açılır və beləliklə, Azərbaycan, nəzərdə tutduğu kimi, öz neft strategiyasını həyata keçirir. Əvvəldə nəzərdə tutulduğu kimi, Azərbaycanda böyük neft ehtiyatları vardır, böyük qaz ehtiyatları vardır və bunların işlənilməsi, dünya bazarlarına çıxarılması bizim bugünkü və gələcək vəzifələrimizdir. Bunları həyata keçirmək üçün biz bu boru xətlərini mütləq tikməliyik.

1996-cı il iyun ayının 4-də Azərbaycan Dövlət Neft Şirkəti dünyanın bir neçə böyük şirkətləri ilə yeni bir müqavilə imzalamışdır. Bu müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən çox böyük, zəngin "Şahdəniz" neft yatağının işlənilməsi üçün imzalanmışdır. Müqavilə imzalanandan sonra konsorsium təşkil olunmuşdur. Bu konsorsiuma Böyük Britaniyanı təmsil edən BP/"Amoco", Norveçi təmsil edən "Statoil", Fransanı təmsil edən "Elf Akiten", həm Rusiyanı, həm İtaliyanı təmsil edən "LUKoil-Acip", Türkiyəni təmsil edən "Türk petrolları" şirkəti, İranı təmsil edən OİEK şirkətləri daxildir. Bilmirəm hamısını dedim, yoxsa yox. Deyəsən, çatışmayan olmadı.

Siz bu konsorsiumun tərkibinə fikir verin. Burada Avropanın bir neçə böyük dövlətinin böyük neft şirkətləri vardır. Amerikanın neft şirkəti var, Rusiyanın, Türkiyənin, İranın neft şirkətləri vardır. Görürsünüz, biz nə qədər böyük dairəni əhatə etmişik. Bu müqavilə 1996-cı ilin oktyabr ayında Azərbaycanın Milli Məclisi tərəfindən təsdiq olunubdur və ondan sonra da yaranmış konsorsium işə başlayıbdır.

"Şahdəniz" yatağı Azərbaycanın Xəzər dənizindəki sektorunda, demək olar ki, ən böyük və ən zəngin neft və qaz yataqlarından biridir. Bu daha çox qaz yatağıdır, nəinki neft yatağıdır. Bu yatağı ilk dəfə Azərbaycanın neftçiləri, neft kəşfiyyatçıları 1954-cü

ildə kəşf etmişlər. 1976-cı ildə bu yataqda müəyyən qazma, geoloji işlər aparılıbdır və yatağın zəngin qaz sərvətlərinə malik olduğu müəyyən edilibdir. Ondan sonra 1980-ci illərdə müəyyən işlər aparılıbdır. Hətta mənim xatirimdədir, Xoşbəxt Yusifzadə bir dəfə mənə dedi ki, onlar, – bilmirəm 1990-cı ildə idi, haçan idi, – orada bir quyu qazıb qaz çıxarmaq istəmişdilər. Ancaq o illər belə böyük yataqları işlətmək, şübhəsiz ki, asan məsələ deyildi.

Mən sizə açıq deyim, biz Sovet İttifaqının tərkibində olarkən sovet hökuməti də bu yataqların işlənilməsinə o qədər fikir vermirdi və Azərbaycana vəsait ayırmırdı. Ancaq bu, çox yaxşı olubdur. Çünki biz bu yataqları, demək olar, qoruyub saxlamışıq ki, indi, Azərbaycan müstəqil olduğu zaman bu yataqlardan sərbəst, özü istədiyi kimi istifadə etsin. Yəni bu "Şahdəniz" yatağının böyük tarixi vardır. Azərbaycan neftçilərinin, geoloqlarının, kəşfiyyatçılarının bu yatağın kəşf olunmasında və orada qazma işləri aparılmasında, bu yatağın imkanlarının müəyyən edilməsində böyük xidmətləri vardır. Mən bunu həmişə olduğu kimi xüsusi qeyd etmək istəyirəm.

"Şahdəniz" neft yatağında yaranmış konsorsium tərəfindən aparılan işlər bizim, Azərbaycan neftçilərinin ondan əvvəl gördüyü işlərin nə qədər səmərəli və nə qədər dəqiq olduğunu təsdiq edir. Bu müqaviləni imzalayarkən, şübhəsiz ki, biz hamısına çox diqqət veririk və hər bir şeyi ölçüb-biçirik. Bunu imzalayarkən bizim geoloqların, neftçilərin proqnozu belə idi ki, buradan, "Şahdəniz" yatağından 400 milyard kubmetr qaz almaq olar və xeyli miqdarda da kondensat almaq olar. Azərbaycanda olan bu yataq haqqında materiallarla tanış olan BP, "Statoil" və başqa şirkətlər də bu müqaviləni imzalamaqdan əvvəl bunu bilirdilər və inanaraq bu müqaviləni imzalamağa getmişdilər.

1997-1998-ci illərdə və bu ilin birinci hissəsində konsorsium tərəfindən çox böyük iş görülübdür. Mənə verilən məlumatlara görə, yaxşı nəticələr əldə olunubdur. Bu nəticələri dinləmək üçün mən konsorsiumun üzvlərini və bu məsələ ilə əlaqədar olan başqa şəxsləri, o cümlədən xarici ölkələrin – bu şirkətlərin mənsub olduqları ölkələrin səfirlərini buraya dəvət etmişəm.

## YEKUN NİTQ

– Birinci növbədə mən Azərbaycan Dövlət Neft Şirkətini, "Şahdəniz" konsorsiumunu və bu konsorsiuma daxil olan şirkətləri bu böyük nailiyyət münasibətilə ürəkdən təbrik edirəm.

"Şahdəniz" konsorsiumunun prezidentinin və başqa natiqlərin burada verdikləri məlumatlar bizi həddən artıq sevindirir və güman edirəm ki, bu, dünya miqyasında böyük bir hadisəyə çevriləcəkdir. Əgər "Şahdəniz" konsorsiumunun prezidenti bu gün bu ilkin məlumatı verərək, eyni zamanda hasil olunacaq qazın dünya bazarlarına ixrac edilməsi haqqında məsələ qoyursa və bunun da müvafiq marşrutunu göstərirsə, bu o deməkdir ki, əldə olunan nailiyyət o qədər əsaslıdır ki, – bu nailiyyət təkcə rəqəmlərlə sayılmır, yəqin, ondan da çoxdur, çünki dünyaya qaz ixrac etmək üçün gərək lazımi qədər qaz olsun, – demək, "Şahdəniz" yatağında deyilən qədər və bəlkə də, deyiləndən çox qaz var. Bu ən sevindirici haldır.

Bu gün şəxsən mənim üçün böyük bir bayramdır. Çünki hörmətli Xoşbəxt Yusifzadə burada xatırlatdı, 1969-cu ildə mən Azərbaycana başçılıq etdiyim zamandan – 70-80-ci illərdə Azərbaycanın neft sənayesinin inkişaf etdirilməsi üçün çox böyük işlər görmüş və böyük xidmətlər göstərmişdim. Xoşbəxt Yusifzadə düz deyir, əgər o illərdə biz Xəzərin dərinliklərində olan neft və qaz yataqlarından istifadə edilməsi üçün lazımi maddi-texniki baza yaratmasaydıq və bu işləri aparmasaydıq, şübhəsiz ki, indiki nailiyyətləri əldə edə bilməzdik.

Mən vaxtilə böyük məmnuniyyətlə "Dədə Qorqud" qurğusunun və "İstiqlal" qazma qurğusunun açılışında iştirak etdim. Ona görə ki bu qurğular bizim qarşıda duran planlarımızın həyata keçirilməsi üçün ən vacib vasitələrdən biri idi. Amma bir də ona görə ki, bu qurğular yeni deyildir, onlar məhz mənim təşəbbüsümlə 70-ci və 80-ci illərdə Azərbaycana, Xəzər dənizinə gətirilmiş "Şelf-2", "Şelf-3", "Şelf-4", "Şelf-5" qazma qurğularıdır. Onları o vaxt biz gətirdik, mənim təşəbbüsümlə gətirdik. Gətirdik ki, Xəzər dənizində suyun dərinliyi artıq 20 metr yox, 80 metr, 90 metr, 120 metr, 200 metr olan sahələrdə quyu qaza bilək.

Biz bunlara nail olduq. O "Şelf"lər öz işlərini gördü, çox quyular qazdılar. Doğru deyirsən, əgər o "Şelf" olmasaydı, biz "Günəşli" yatağından neft ala bilməzdik. İndi sən buyurdun ki, "Günəşli" yatağı Azərbaycan neftinin 60 faizini verir. Bunları biz etdik. Əgər onu etməsəydik, o qurğuları buraya gətirməsəydik, Sovet İttifaqının, necə deyərlər, əlindən çətinliklə dartıb alıb buraya gətirməsəydik, indi "Günəşli" yatağı yox idi, Azərbaycan neft ölkəsi olaraq neftsiz qalacaqdı.

İndi isə onlar bizim müasir həyatımıza xidmət edirlər. Amma onlardan ikisi modernləşdirilib, gör növbədə neçəsi qalıb! Onların da modernləşdirilməsindən söhbət gedir, elədirmi? Olacaq, çünki biz 20-yə qədər müqavilə imzalamışıq. Bunların hamısını iki qazma qurğusu ilə etmək olmaz. Bunlar da olacaqdır.

Demək, biz bunun əsasını o vaxt yaratmışdıq. Bu da bu gün gördüyümüz işlər üçün çox böyük əhəmiyyət kəsb edir.

"Şahdəniz" Azərbaycan alimləri, neftçiləri, geoloqları tərəfindən kəşf olunan yataqlar içərisində ən böyüklərindən biridir. Burada onun sahəsi haqqında slaydlar da göstərildi və hamıya məlum oldu ki, nə qədər sahəni əhatə edir. Amma bu gün bizim üçün daha da əhəmiyyətli odur ki, "Şahdəniz" konsorsiumunun prezidenti bəyan etdi ki, "Şahdəniz" yatağı dünya əhəmiyyətli yataqdır.

Mən görüşümüzün əvvəlində dedim ki, biz "Şahdəniz" yatağının potensialını bilirdik. Ona görə də bu yatağın əsasında müqavilə imzalamışdıq və bilirdik ki, bundan yaxşı nəticələr əldə edəcəyik. Onlar hamısı proqnozlar idi. Amma indi görünür ki, bu proqnozlar əsaslı olub, düz olubdur. Bu, Azərbaycan neftçilərinin, alimlərinin, Azərbaycan geoloqlarının nə qədər yüksək səviyyəli biliyə malik olduqlarını göstərir ki, belə bir şəraitdə proqnoz verirlər və bu proqnoz da artıqlaması ilə təsdiq olunur.

Bu gün "Şahdəniz" konsorsiumunun prezidenti bəyan etdi ki, 400 milyard kubmetr qaz var, ancaq 700 milyard kubmetrə qədər çata bilər. Bizim çox hörmətli geoloqumuz isə, – demək olar ki, Azərbaycanda Xəzər dənizini Yusifzadə kimi bilən ikinci adam yoxdur, – deyir ki, orada bir trilyon kubmetrə qədər qaz olacaqdır.

Bu gün fürsətdən istifadə edərək “Şahdəniz” yatağını kəşf edənlərə və Xəzər dənizindəki bütün başqa yataqları kəşf edən bizim alimlərə, neftçilərə, geoloqlara, – dünyasını dəyişənlərə də, bu gün yaşayanlara da, – bütün Azərbaycan neftçilərinə bir daha, bir daha təşəkkür edirəm.

Eyni zamanda bugünkü məlumat, dünyaya bəyan etdiyimiz təqdimat bir çox adamlara artıq onların nə qədər yanlış fikirdə olduqlarını, yaxud da qəsdən Azərbaycanın əleyhinə fikir söylədiklərini göstərəcəkdir. 1994-cü ilin sentyabrında biz Azərbaycanda ilk müqaviləni – “Əsrin müqaviləsi”ni imzalayandan sonra başımıza böyük bəlalar gəldi: terror aktları, dövlət çevrilişinə cəhdlər və başqa cinayətlər. Xarici və daxili düşmənlər artıq gördülər ki, Azərbaycan öz iqtisadiyyatının inkişaf yolunu müəyyən edib və bu yolla gedir. Ancaq heç kəs heç bir şeyə nail ola bilmədi, Azərbaycan dövləti öz iradəsi ilə gedib, getdi və bu gün də gedir. Təəssüf ki, Azərbaycanın daxilində olan Azərbaycan vətəndaşları – müxalifət qrupları da bu müqavilələrin imzalanmasının, bu sahədə görülən işlərin əleyhinə çıxdılar.

Onların bu məsələlər barədə lazımi təsəvvürləri olmadığı halda, sadəcə, “Azərbaycanda hər şey yaxşı yox, pis olsun” mövqeyindən çıxış edirdilər, ona görə də bunun əleyhinə çıxırdılar.

Xatirimdədir, ilk neft müqaviləsi – “Əsrin müqaviləsi” Azərbaycanın Milli Məclisində müzakirə olunarkən müxalifət qüvvələri bunun əleyhinə çıxaraq belə fikirlər söyləyirdilər ki, nə üçün biz öz sərvətlərimizi xarici ölkələrə, şirkətlərə veririk, bu sərvətləri saxlamalıyıq, nefti sonra özümüz çıxarmalıyıq və ondan xalqımız üçün istifadə etməliyik. Ancaq anlaya bilmirdilər ki, özümüz bu işləri hələ 10, 15, 20 il də bundan sonra görə bilmərik. Mən bunu Azərbaycanın və Sovet İttifaqının neft sənayesi ilə 30 il məşğul olan bir adam kimi deyirəm. Lakin neft sənayesinin nə olduğunu bilməyən, küçədən gələrək Azərbaycan parlamentinə girən və gündə orada cürbəcür müxalif fikirlər söyləyən adamlar bunu bilmirdilər və bilə də bilməzdilər. Onlara yalnız o lazım idi ki, bu müqavilə müzakirə zamanı qəbul edilməsin.

1996-cı ildə, "Şahdəniz" müqaviləsinin imzalanması ərəfəsində ölkəmizdə bizimlə işləyən bir şəxs bu müqavilənin imzalanmasının tam əleyhinə çıxdı. Həmin adam üç il bundan əvvəl Azərbaycanı tərk edəndən sonra mən onun adını heç vaxt çəkməmişəm. Çünki o, layiq deyil ki, mən onun adını çəkim. Ancaq bu gün həqiqəti bildirmək üçün mən onun adını çəkməliyəm. O, Milli Məclisin həmin dövrdəki sədri Rəsul Quliyev idi.

Bu müqavilə bir neçə ay idi ki, hazırlanırdı, bütün şirkətlərlə razılaşdırılmışdı, artıq imzalanmağa hazır idi. Müqavilənin imzalanmasından bir həftə əvvəl o mənim yanıma gəlib dedi ki, bu müqaviləni imzalamaq olmaz. Soruşdum ki, nə üçün. Dedi ki, Dövlət Neft Şirkətindən olan adamlar Sizə düzgün məlumat verməyiblər, burada çoxlu səhvlər, bizim üçün zərərli olan çoxlu şeylər var, ona görə də bunu imzalamaq olmaz. Mən soruşdum ki, bəs sən indiyə qədər harada idin. O, Milli Məclisin sədri səlahiyyətini daim aşaraq Neft Şirkəti ilə həmişə əlaqədə idi və çalışırdı ki, bu şirkətin işlərinə rəhbərlik etsin. O bu müqavilənin hazırlanması prosesi ilə yaxşı tanış idi. Bilirdi ki, hər şey yaxşıdır.

Biz burada neft-qaz sərgisi keçirirdik. Bu müqavilə həmin gün imzalanmalı idi. O bu məsələni bir həftə qabaq ortaya atdı ki, işi pozsun. Mən hər fikri nəzərə alıram. Ona görə də onun fikrini nəzərə aldım, Dövlət Neft Şirkətinin bütün rəhbərlərini bax bu otağa dəvət etdim. Rəsul Quliyev də, Artur Rasizadə də və Dövlət Neft Şirkətinin bütün rəhbərləri də orada idilər. Mən ona dedim, dur fikrini sübut et ki, bu müqaviləni niyə imzalamaq olmaz. Şübhəsiz ki, o, cəfəngiyyat danışdı, Dövlət Neft Şirkətinin nümayəndələrini təhqir etməyə başladı. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, bu sahədə ən böyük mütəxəssis Xoşbəxt Yusifzadə, yadımdadır, Valeh Ələsgərov və başqaları bir-bir onun üzünə durub dedilər ki, sənin fikirlərinin heç bir əsası yoxdur. Sən, sadəcə, işə mane olmaq istəyirsən. Ümumiyyətlə, sənin bu məsələlərdən başın çıxmır. O, çox pərt oldu. Bəyan etdi ki, mən bu barədə Sizə rəsmi yazacağam. Bildirdim ki, sən nə istəyirdin dedin, cavabını da aldın, yazırsan yaz. Ancaq o heç nə yazmadı, çünki axı yaza bilməzdi.

Bu adam, əlbəttə, neft sənayesində neftin emalı işini bilirdi. Mən vaxtilə, 1981-ci ildə onu neft emalı zavoduna direktor təyin etmişdim, bu işi bilirdi. Ancaq o, neftdən nə qədər qanunsuz qazanc götürmək işini yaxşı bilirdi. Amma onun neft sənayesindən, qurğulardan, quyulardan, neftçıxarmadan, dənizdən – bütün bu işlərdən xəbəri yox idi. Təkcə ona görə yox ki onun bu işlərdən xəbəri yox idi, – o, sadəcə, həmin məqamda, işimizi qurduğumuz zaman bizə zərbə vurmaq, təxribat törətmək istəyirdi, ancaq buna nail ola bilmədi. Biz heç vaxt heç kəsə bunu etməyə imkan verməmişik.

Müqavilə imzalandı, oktyabrın 4-də Milli Məclisdə təsdiq edildi və indi həyata keçirilir. İndi biz bunun gözəl nəticələrini görürük. O isə deyirdi ki, bunu nə üçün indi edək, saxlayaq, biz birinci müqavilədən gəlir götürəcəyik, sonra texnika alacağıq, imkanlarımızı yaradacağıq və bütün bu işləri özümüz edəcəyik. Bilirsiniz, bunlar hamısı cəfəngiyyatdır. Birincisi, o gəliri nə vaxt götürəcəyik? İkincisi, o gəliri götürüb neft sənayesinə yönəltsək, onda Azərbaycanın başqa sosial-iqtisadi məsələləri necə olacaq? Aydındır ki, buna heç izahat vermək lazım deyil. O, sadəcə, belə fikirləri irəli sürərək bizim işimizə mane olmağa çalışırdı. Ancaq mane ola bilmədi, ona görə də qaçdı, indi Amerika Birləşmiş Ştatlarında gizlənir. Neft sənayesindən xəbəri olmayan adam guya neft haqqında kitab yazır, özü də rus dilini "yaxşı bilən" adam kimi, rus dilində yazır.

Bizim bu işimizə indi də mane olmağa çalışanlar vardır. Ancaq heç kəs heç bir şeyə nail ola bilməyəcəkdir. Azərbaycan dövlətinin yeni neft strategiyası müəyyənləşdirilibdir. Biz bu strategiyanı bundan sonra da ardıcıl surətdə həyata keçirəcəyik.

"Şahdəniz" neft yatağına qoyulan 367 milyon dollar sərmayə haqqında burada söhbət açıldı. Təsəvvür edin, cəmi iki il müddətində Azərbaycana 367 milyon dollar sərmayə qoyulubdur. Konsorsiumun prezidenti bəyan etdi ki, onun böyük bir hissəsi işlədiklərinə görə həm Azərbaycanın müxtəlif şirkətlərinə verilib, həm əməkhaqqı, həm də vergi ödənilibdir. Demək, bunun əsas hissəsi bu gün Azərbaycana xeyir, gəlir gətirir.

Bizim bu neft müqavilələri hələ son nəticəyə qədər – bu iş başlayandan, iş prosesində həm ölkəmizə sərmayə gətirir, həm də

xalqımızın böyük bir hissəsini, Azərbaycan şirkətlərini, gəmilərini, qurğularını, mütəxəssislərini işə cəlb edir, işlə təmin edir, onlara əməkhaqqı verir. Demək, hələ son nəticəyə qədər Azərbaycan bu sərmayələrdən bəhrələnir ki, bu da çox əlamətdar bir hadisədir.

"Şahdəniz" konsorsiumunun prezidentinin verdiyi məlumatlar tam aydındır. Ona əlavə etməyə bir şey yoxdur. Mən bir daha deyirəm ki, bu məlumatlar çox sevindiricidir. Ancaq məni daha da sevindirən o oldu ki, konsorsiumun prezidenti məsələ qaldırdı: qazın ixracı üçün artıq bu gün iş görmək lazımdır. Bəli, mən də belə hesab edirəm. Ona görə də mən bu gün Azərbaycan Dövlət Neft Şirkətinə və konsorsiuma göstəriş verirəm ki, onlar indiyə qədər əldə etdikləri nailiyyətlər əsasında yeni quyuların qazılmasını sürətləndirsinlər. Bəlkə də, özləri bilirlər. Amma mən tövsiyə edərdim ki, bir geniş plan hazırlayıb onun həyata keçirilməsi ilə məşğul olsunlar. Çünki yeni quyular nə qədər tez qazılarsa, orada olan qazın və neft kondensatının həcmi daha da dəqiq olacaqdır. Bu da qazın ixracı üçün lazımi işlər görməkdə bizə kömək edəcəkdir.

Mən Nazirlər Kabinetinə tapşırıram ki, Dövlət Neft Şirkəti və konsorsiumla birlikdə Azərbaycan Respublikasının qaza olan ehtiyaclarını ödəmək üçün lazımi infrastrukturun yaranmasını təmin etsin, bu infrastrukturun, qurğuların yaranması üçün planlar hazırlasın və mənə təqdim etsin.

Qazı dünya bazarlarına ixrac etmək üçün, şübhəsiz ki, boru kəməri lazımdır. Biz indi bununla bilavasitə məşğul olmalıyıq. Mən konsorsiumun rəhbərinin təklifi ilə tam razıyam ki, bizim üçün ən əlverişli bazar Türkiyədir. Bir müddət bundan əvvəl, Türkiyənin Prezidenti hörmətli cənab Süleyman Dəmirəllə danışarkən o mənə dedi ki, Türkiyənin gələcəkdə, bəlkə də, 2010-cu ilə qədər 40 milyard kubmetr qaza ehtiyacı vardır. Biz bu ehtiyacı təmin edə bilərik.

Güman edirəm, verilən məlumatlar, əldə etdiyimiz yeni nailiyyətlər əsasında, demək olar ki, Azərbaycan "Şahdəniz" yatağından 25 il müddətində ildə 16-20 milyard kubmetr qaz ixrac edə bilər. Nazirlər Kabinetinə göstəriş verirəm ki, bu məsələnin kompleks şəkildə həll olunması üçün müəyyən təkliflər hazırlayıb mənə təqdim etsinlər.

Demək, beləliklə, biz indi yeni bir mərhələyə keçirik. Neft kəmərləri ilə yanaşı, Azərbaycandan dünya bazarına qaz ixrac etmək üçün də boru kəməri tikməliyik və bu işə başlamalıyıq. Bir daha deyirəm ki, bu kəmər də Bakı-Gürcüstan-Türkiyə istiqamətində olmalıdır. Beləliklə, “Əsrin müqaviləsi”ndən sonra ikinci böyük müqavilədir ki, biz qısa bir müddətdə bunun gözəl nəticələrini görürük.

Azərbaycanın gələcəyinə nəzər salın. İmzalanmış bütün müqavilələr üzrə Azərbaycana 60 milyard dollar sərmayə qoyulacaqdır. Təsəvvür edin, bu sərmayələr birinci növbədə həmin sərmayəçilərə, xarici ölkələrin şirkətlərinə və Azərbaycana nə qədər böyük yeni sərvətlər gətirəcəkdir. Mən buna beş il bundan əvvəl də inanırdım, bu gün də inanıram. Mən bu inamla, bu nikbinliklə də bugünkü toplantını bağlayıram.

“Şahdəniz” konsorsiumunu və Azərbaycan Dövlət Neft Şirkətini bir daha təbrik edirəm! Sağ olun.[15]

Təqdimat mərasimində ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev, Böyük Britaniyanın, ABŞ-nin, Norveçin, Rusiyanın, İtaliyanın, Fransanın, İranın, Türkiyənin ölkəmizdəki səfirləri: Deyvid Rocer Tomas, Stenli Eskudero, Olaf Berstad, Aleksandr Bloxin, Alessandro Fallovollita, Jan Pyer Kinyut, Əlirza Biqdeli, Qədri Ecvet Tezcan, “Şahdəniz” müqaviləsinin həyata keçirilməsinin iştirakçısı olan xarici şirkətlərin nümayəndələri, ARDNŞ-nin rəhbər işçiləri iştirak ediblər.

## Prezident Heydər Əliyevin BP/“Amoco” şirkətinin rəhbərləri ilə görüşü

*4 mart 2000-ci il, Prezident sarayı*

**Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti:**

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram. Sizinlə yenidən görüşməyimdən çox məmnunam. Təbiidir ki, sizin

gördüyünüz işlər daim mənim şəxsi nəzarətim altındadır. Mənə həmişə məlumat verilir. Deyə bilərəm ki, işlər yaxşı gedir. Bəzən nəticələr gözlədiyimizdən də yaxşı olur. Ona görə də güman edirəm ki, siz də sevinirsiniz, biz də sevinirik və bizim ölkənin insanları da sevinirlər.

Azərbaycanda Xəzər dənizinin Azərbaycan sektorunun neft və qaz ehtiyatlarından istifadə olunması barəsində son beş ildə aparılan işlər dünya mətbuatının, ümumiyyətlə, dünya ictimaiyyətinin daim diqqətindədir. Müxtəlif fikirlər söylənir, ancaq əksər fikirlər həqiqəti əks etdirir. Doğrudur, mənfi xarakterli məqalələr də dərc olunur. Bu da təbiidir. Çünki dünyada yeni, çox zəngin imkanlara malik və böyük gələcəyə malik Xəzər dənizi hövzəsi kimi neft və qaz yataqları olan bir yer aşkar edilibdir. Daha dəqiq desək, bu yer çoxdan aşkar olunubdur, amma indi bunun həyatının ikinci mərhələsi başlayır.

Məlumdur, bunu dəfələrlə qeyd etmişəm ki, Azərbaycan qədim neft və qaz ölkəsi olaraq, o cümlədən dünyada ilk dəfə dənizin dərinliklərindən neftin hasil olunması işinə başlamışdır. Bu bizim əfsanəvi Neft Daşlarımızdır və ondan sonra Azərbaycan alimlərinin, mütəxəssislərinin, neftçilərinin Xəzər dənizinin Azərbaycan sektorunda, – təkcə Azərbaycan sektorunda yox, Xəzər dənizinin bütün akvatoriyasında, – neft və qaz yataqlarının aşkar edilməsi sahəsində apardıqları çox böyük işdir. Bu bizim gördüyümüz işlərin birinci mərhələsi olubdur.

İkinci mərhələsi isə, bilirsiniz ki, 1994-cü ildə sizinlə birlikdə imzaladığımız "Əsrin müqaviləsi"dir. Bu gün bir daha böyük məmnuniyyət hissi ilə və hətta deyə bilərəm ki, iftixar hissi ilə bəyan edirəm ki, bizim 1994-cü ildə başladığımız işlər gözəl nəticələr veribdir.

Qeyd etdiyim kimi, dünyaya Xəzər dənizi kimi böyük bir neft regionu açılıbdır. Ondan sonra imzaladığımız müqavilələr də tədricən öz nəticələrini verir. Bunların sırasında "Şahdəniz" yatağı da vardır. Biz müqaviləni bağlayanda buna neft yatağı kimi baxırdıq. Ancaq bilirdik ki, orada çox qaz ehtiyatları vardır. İndi sizin apardığınız işlər, aldığınız nəticələr onu göstərir ki, bizim proqnozlarımız artıqlaması ilə təmin olunur.

[redacted]

"Azəri", "Çıraq", "Günəşli" və "Şahdəniz" BP/"Amoco"nun dünya üzrə iş gördüyü ən böyük strukturlardır və buna görə də şirkətimizin rəhbəri cənab Braun Azərbaycanı Meksika körfəzi, Anqola və Trinidadla birlikdə BP/"Amoco"nun beş-on il ərzində böyük sərmayələr qoyacağı dörd ən vacib bölgə adlandırmışdır. Buna görə də Azərbaycan şirkətimiz üçün olduqca böyük əhəmiyyətə malikdir və bu barədə də Sizin dəstəyiniz danılmazdır.

ABƏŞ-ə gəldikdə isə, Sizə bildirməyi özümə borc bilirəm ki, hazırkı fəaliyyətimizdə böyük tərəqqi əldə olunur. Eyni zamanda Dövlət Neft Şirkəti ilə böyük işlər görülür. Bu əməliyyatlar da həm Azərbaycanın, həm də xarici neft şirkətlərinin mənafeyinə xidmət edir və burada da böyük işlər görməyimizdən hədsiz şərəf duyuruq.

İcazənizlə bugünkü təqdimatımızın davamı olaraq biz "Şahdəniz"dən başlamaq istərdik. "Şahdəniz"in hazırkı durumu, oradakı ehtiyatlar və "Şahdəniz" barədə gələcək planlarımızı Sizin diqqətinizə çatdırmaq istərdik. "Şahdəniz"ə dair məlumatı cənab Hopvud təqdim edəcəkdir.

**Heydər Əliyev:** Buyurun.

**Endi Hopvud, BP/"Amoco" şirkətinin geoloji kəşfiyyat bölümünün rəhbəri:** Cənab Prezident, hər şeydən əvvəl, üzr istəyirəm ki, bu cür gözəl bir xəbəri Sizə birinci çatdırmaqdan öncə bu xəbəri biz həm Ankarada, həm də Vaşinqtonda bildirmişik.

**Heydər Əliyev:** Onsuz da bizə çatıbdır, narahat olmayın. Biz bilirdik, amma Siz onu rəsmi olaraq oralarda elan etdiniz. Mən hesab edirəm ki, bu da pis deyil.

**Endi Hopvud:** Cənab Prezident, ona görə də bizim bu gün "Şahdəniz" barədə Sizə qısa bir təqdimatımız var və istərdim ki, elə birinci slayddan başlayaq. "Şahdəniz" barədə, yəqin ki, əksəriyyətin xəbəri var. Lakin üç məsələ var ki, mən bugünkü təqdimatı bu məsələlərdən başlamaq istəyirəm.

İlk növbədə mən 1996-cı ilin iyun ayında Sizin də imza atdığınız "Şahdəniz" yatağında hasilatın pay bölgüsü haqqında sazişi qeyd etmək istərdim. İkinci növbədə, konsorsiumun

artıq Xəzər hövzəsində 400 milyon dollar xərcləməsindən bəhs etmək istərdim. Qeyd etdiyim 400 milyon dolların yarısından çoxu konsorsium tərəfindən “İstiqlal” qazma qurğusunun bərpasına sərf edilmişdir.

**Heydər Əliyev:** 400 milyon “Şahdəniz”ə həsr olunubdur.

**Endi Hopvud:** Bəli. Üçüncü şəkil onu göstərir ki, Şahdəniz” Xəzərin cənubunda olan ilk ən böyük yataqdır ki, ən böyük ehtiyatlar aşkar edilmişdir. Ümid etmək istərdim ki, “Şahdəniz”dən sonra Xəzərin bu ərazisində qazılacaq quyularda da “Şahdəniz”dən geri qalmayan ehtiyatlar aşkar olunacaqdır.

Cənab Prezident, ikinci slayda gəldikdə isə, burada, gördüyünüz kimi, tərəfdaşlıq əks olunubdur. Biz yalnız xarici neft şirkətləri arasında olan tərəfdaşlığı nəzərdə tutmuruq. Eyni zamanda burada Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və hökuməti ilə əldə olunmuş və davam etdirilən əməkdaşlıq xüsusi qeyd olunmalıdır. Bu əməkdaşlığın nəticəsidir ki, bugünkü təqdimatımızda “Şahdəniz”ə dair planlarımızın birinci mərhələsində hansı işləri görəcəyimizi Sizə deməyə imkan yaranır. Bu elə bir tərəfdaşlıqdır ki, burada şirkətlərin fəaliyyəti də, təcrübə mübadiləsi də özünü büruzə verir.

Planlarımızın vaxtından əvvəl aydın olmasına gətirib çıxaran səbəblərdən biri də şəxsən Sizin keçən il verdiyiniz qərar idi ki, “Şahdəniz”ə dair işçi qrupu yaradılsın və bu qrup “Şahdəniz”in planlarını işləyib-hazırlasın. Keçən ilin noyabr ayında İstanbulda Azərbaycan, Gürcüstan və Türkiyə dövlət başçılarının imzaladığı çərçivə sənədi imkan verdi ki, Azərbaycan qazının, “Şahdəniz” qazının Türkiyəyə satılmasına dair planlar işlənib-hazırlansın. Digər tərəfdən, bizim “Şahdəniz”ə dair planlarımızı açıq şəkildə dünyaya bəyan etməyimiz iki məsələ üzərində qurulmuşdur. Onlardan biri “Şahdəniz” tərəfdaşlığına olan əminliyimiz, digəri isə ötən il imzalanan çərçivə sənədidir.

Cənab Prezident, üçüncü slaydda quyunun ehtiyatlarından bəhs olunur və mən bu barədə danışmaq istərdim. Burada ehtiyatların keyfiyyətindən də söz açmaq yerinə düşərdi. Gördüyünüz bu şəkildə ötən ay keçirilən testlər təsvir olunmuşdur. Özünüz gördüyünüz kimi, “İstiqlal” qazma qurğusunun qazdığı bu

quyudan qazın hansı təzyiqlə çıxması açıq şəkildə göstərilmişdir və bu barədə rəqəmləri bir daha demək istərdim.

**Heydər Əliyev:** Budur?

**Endi Hopvud:** Bəli, cənab Prezident. Gündə 1,8 milyon kubmetr qaz və eyni zamanda ikinci quyudan 400 ton kondensat hasil olunur.

**Heydər Əliyev:** Qaz havaya gedir?

**Endi Hopvud:** Hazırda havaya gedir.

**Heydər Əliyev:** Gözəl mənzərədir.

**Endi Hopvud:** Hazırda gördüyünüz bu qaz 425 atmosfer təzyiq altında çıxır və bu rəqəmə qazma qurğusunda olan avadanlığın gücündən tam istifadə edilməklə nail olunmuşdur. Başqa sözlə, avadanlığın gücü çatsaydı, qazı daha böyük təzyiqlə çıxarmaq mümkündür.

**Heydər Əliyev:** Yəni avadanlıq imkan versəydi, daha da çox güclə çıxa bilərdi, hasilat daha da çox olardı. Onda bunlar elə əvvəlki kimi səhv ediblər, avadanlığı zəif qoyublar.

**Natiq Əliyev, Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti:** Cənab Prezident, yataqlarımız çox güclüdür.

**Heydər Əliyev:** Bunlar indiyə qədər bizim yataqlarımızı tanımayıblar.

**Endi Hopvud:** Üzr istəyirik, yalnız belədir.

**Heydər Əliyev:** "Çıraq" yatağından səmt qazının nəqli üçün sizin çəkdiyiniz boru indi oradan çıxan qazı sahilə gətirə bilmir. Siz çəkdiyiniz borunun diametri nə qədərdir, 16 düymdür?

**Natiq Əliyev:** Bəli, cənab Prezident. Onlar orada gündə cəmi 3 milyon kubmetr qaz çıxarırlar. Onu da sahilə tam gətirə bilmirlər. Sahilə bir milyonu gəlmir.

**Heydər Əliyev:** Amma orada nə qədər qaz havaya gedir?

**Natiq Əliyev:** Gündə bir milyon kubmetrə kimi.

**Heydər Əliyev:** Gündə bir milyon kubmetr qaz havaya gedir. Ona görə ki bunlar düz hesablamayıblar.

**Natiq Əliyev:** Cənab Prezident, yadınızdadırsa, neft də belə oldu.

**Heydər Əliyev:** Onu bilirəm. Sən məsələni qarışdırma. Mən qaz haqqında danışmaq istəyirəm. Gərək siz ondan nəticə çıxaraydınız.

**Endi Hopvud:** Bəli, cənab Prezident. Bu məsələyə bu cür də baxmaq mümkündür.

**Heydər Əliyev:** Yox, ancaq mən sizi günahlandırmıram. Mən bundan bir nəticə çıxarıram. O da ondan ibarətdir ki, siz nə qədər böyük təcrübəli olsanız da, Azərbaycanın o qaz, neft yataqlarının imkanlarını düzgün müəyyən edə bilmirsiniz. Yəni nəticə gözlənildiyindən çox-çox artıq olur. Buna sevinmək lazımdır, təbiidir. Ancaq yaxşı olardı ehtiyat avadanlıq qoyaydınız ki, nəticə çox olanda hamısını götürə biləydik.

**Endi Hopvud:** Cənab Prezident, onu da qeyd etmək istərdim ki, indi dediyim rəqəmlər, sadəcə olaraq, üç məhsuldar qatın birindən əldə edilən hasilatdır.

**Heydər Əliyev:** Bəs sonra nə olacaq? O birinci məhsuldar qatlardan yanacaq çıxanda nə olacaq?

**Endi Hopvud:** Cənab Prezident, dediyiniz məsələyə qayıdarkən onu qeyd etmək istərdim ki, hər quyunun potensial imkanı var ki, inkişaf, istehsal zamanı və sistemə qoşulduqdan sonra orta hesabla ildə bir milyard kubmetr qaz çıxarılsın. Yəni hər quyudan bir milyard kubmetr qaz çıxarılsın. Amma ayrı-ayrılıqda götürdükdə bunların hətta üç milyarda çatacağı da gözlənilir.

**Heydər Əliyev:** Hər bir quyunun?

**Endi Hopvud:** Bəli. Bunu deməklə onu da nəzərinizə çatdırmaq istərdim ki, qazın çıxması və onun sürəti olduqca böyükdür. Ona görə də quyunun sistemə qoşulması üçün və yatağın tam işlənilməsi üçün biz gərək ekspertlərimizdən istifadə edək. Eyni zamanda çox doğrudur ki, bu quyu bizim gözlədiyimizdən daha artıq nəticələr vermişdir. İstanbulda imzalanmış sazişlə bərabər, quyudan əldə olunan nəticələr bizim bu gün gəlib Sizə təqdimat verməyimizə və planlarımızı açıqlamağa imkan yaratmışdır.

Yatağın, strukturun ehtiyatlarının tam həcminə gəldikdə, bəli, belə bir ehtimal var və ola bilər ki, oradakı ehtiyaclar bir trilyon kubmetrə gəlib çatsın. Hazırda mən yenə də nisbətən

bir balaca az rəqəm işlətmək istərdim. Amma bir trilyon olması ehtimalı böyükdür.

**Heydər Əliyev:** Mən bilirəm o niyə az rəqəm deyir.

**Endi Hopvud:** Aydın məsələdir ki, strukturun tam ölçüsü çox vacibdir. Lakin qeyd etmək istərdim ki, burada əsas məsələ sürət məsələsidir. Mən "sürət məsələsi" deyəndə "Şahdəniz" qazının ilk molekullarının rəqabət aparan digər amillərdən əvvəl bazara çıxmasını nəzərdə tuturam. Eyni zamanda qazın işlədilməsi üçün, bazar məsələlərinin qeyd olunması üçün hazırda bizim tam əminliklə 150 milyard kubmetr deməyə imkanımız var və bu qaz da bazar planlarımızın həyata keçirilməsi üçün maliyyənin cəlb olunmasına yetərlidir.

**Heydər Əliyev:** O molekul dedin, o nə deməkdir?

**Endi Hopvud:** Yəni çıxarılan qazın ilk hissəsi.

**Heydər Əliyev:** Axı bu, molekul olmadı. Molekul deyəndə mən bir az şübhəyə düşdüm. Mən başa düşdüm. Amma istədim molekulu aydınlaşdırım. Buyurun, buyurun.

**Endi Hopvud:** Cənab Prezident, ümidvaram ki, bundan sonrakı təqdimatınızı nisbətən dar çərçivədə apara bilərik. Lakin son olaraq onu demək istərdim ki, biz əminik ki, "Şahdəniz" yatağı dünya səviyyəli bir yataqdır. "Şahdəniz" yatağından indiyə qədər əldə olunmuş nəticələr gözlənildiyindən artıqdır və biz tərəfdaş kimi "Şahdəniz" layihəsinin böyük müvəffəqiyyətlər gətirəcəyinə tam əminik. Eyni zamanda "Şahdəniz" qazının tez bir zamanda Türkiyə bazarına çıxarılacağına əminik.

**Heydər Əliyev:** Bitdi?

**Endi Hopvud:** Bəli, indi də başqa məsələlərə keçəcəyik.

**Heydər Əliyev:** Biz qalan məsələlər barədə sonra danışacağıq. "Şahdəniz" yatağında birinci quyunun verdiyi nəticələrlə əlaqədar biz bir dəfə görüşmüşük. O vaxt siz ilkin təqdimatı verdiniz. Ondan sonra dediniz ki, işləri davam etdirib ikinci quyunu da qazacağıq. İndi daha da gözəl nəticələr əldə etmisiniz. Mən bu münasibətlə sizi, Azərbaycan Dövlət Neft Şirkətini və Azərbaycan neftçilərini, xalqımızı təbrik edirəm.

[redacted]

yaxşıdır. Çünki ölkədə, cəmiyyətdə vəziyyət pis olanda onlar öz fəaliyyətlərini həyata keçirər və öz məqsədlərinə nail ola bilərlər. Yəni onlar öz şəxsi məqsədlərini güdürlər, ümumi milli mənafedən çox uzaqdırlar. Bizim içimizdə beləlləri bu gün də vardır.

Mən bu gün bir daha xatırlamaq istəyirəm ki, 1996-cı ildə həmin bu masanın arxasında, – müqavilənin imzalanmasına bir həftə qalmış, – müqavilənin pozulmasına cəhd göstərənlər var idi. O vaxt Azərbaycanın Milli Məclisinin sədri işləyən Rəsul Quliyev müqavilənin imzalanmasına bir həftə qalmış gəlib mənə bəyan etdi ki, "bu müqaviləni imzalamaq olmaz, bu, Azərbaycan üçün zərərlidir, ümumiyyətlə, bu müqavilədə Azərbaycan üçün böyük zərərli müddəalar vardır".

Təbiidir ki, biz bu məsələni müzakirə etdik və onun arqumentlərinin əsassız olduğunu ona bildirdik. Gərək bu gün Xoşbəxt Yusifzadəni də buraya çağıraydınız. Bu sizin səhvinizdir. O, bu gün burada olmalı idi. Çünki Dövlət Neft Şirkətində hamı bu işlə məşğul idi. Amma baş geoloq kimi Xoşbəxt Yusifzadə bu yatağın nə qədər böyük imkanlara malik olduğunu hamıdan çox bilirdi və hamıdan da yaxşı sübut edirdi.

Təbiidir ki, Rəsul Quliyevin belə avantürist, təxribat xarakterli hərəkəti bizim işimizə mane ola bilməzdi. Mən onu da, Dövlət Neft Şirkətinin bütün rəhbərlərini də dinlədim. Dövlət Neft Şirkətinin bütün rəhbərləri, mütəxəssislərimiz onun dediyi sözlərin əsassız olduğunu sübut etdilər. Təbiidir ki, mən qəbul etdiyim qərarı dəyişmək fikrində deyildim. 1996-cı il iyunun 4-də müqavilə imzalandı. O vaxtdan üç il keçibdir. Görün nə qədər gözəl nəticələr əldə etmişik. Bəlkə də, bu adam adının burada çəkilməsinə də heç layiq deyildir. Amma bu, faktdır, həqiqətdir. Bu mənada ki, Azərbaycan xalqına qarşı təxribat həyata keçirməyə cəhd göstərmişdi. Nə üçün? Əgər o bunu anlamırdısa, yəni başa düşmürdüsə, ağlı bu səviyyəyə çatmırdısa, onda otursun yerində və heç vaxt deməsin ki, neft sahəsində hansısa mütəxəssisdir. Əgər bunu anlayaraq edirdisə, demək, xalqına xəyanət edirdi. Bizim içimizdə belələri də vardır.

Ancaq qoy onlar hamısı: o vaxtkılar da, bugünkülər də bilsinlər ki, biz Azərbaycanın neft siyasətini hazırlayıb həyata

keçirərkən ölkəmizin elmini, neft sənayesindəki təcrübəni və hər birimizin, o cümlədən mənim şəxsi təcrübəmi, hamısını üst-üstə qoyaraq belə bir strategiya hazırlamışıq. Bu da öz gözəl nəticələrini verir.

Hörmətli dostlar, mən sizin sevincinizi anlayıram. Siz böyük dövlətlərin neft şirkətlərisiniz. Dünyanın bir çox yerlərində böyük sərmayələr qoyursunuz, gəlir əldə etmək istəyirsiniz. Güman edirəm, siz də bizim sevincimizi anlayırsınız. Biz yenicə müstəqillik əldə etmiş dövlətik, böyük təbii sərvətlərə – neft və qaz yataqlarına malikik. Onlardan xalqımızın, millətimizin rifahı, Azərbaycanın iqtisadiyyatının inkişafı naminə istifadə etməyə çalışırıq. Buna görə də biz qarşımıza çıxan bütün maneçiliklərin, təxribatların, müxtəlif çirkin hərəkətlərin qarşısını alırıq, bundan sonra da alacağıq.

"Şahdəniz" yatağının verdiyi nəticələr müxtəlif xarici ölkələrin mətbuatında Xəzər dənizində ehtiyatların guya az olmasına, Azərbaycan tərəfindən guya bunun şişirdilməsinə dair verilmiş məqalələrə çox tutarlı cavabdır. Siz çox gözəl dediniz ki, biz hələ Azərbaycanın başqa yataqlarında bundan da çox ehtiyatlar aşkar edəcəyik. Mən buna əminəm. Mən çox sevinirəm ki, artıq siz də buna əminsiniz. Ona görə də sizə təşəkkür edirəm.

Gördüyünüz işlər çox yüksək qiymətə malikdir. Çox məmnunam ki, ötən beş il müddətində Azərbaycana gəlmiş xarici dövlətlərin şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti, Azərbaycan hökuməti, Prezidenti arasında çox gözəl işgüzar əlaqələr yaranıbdır. Əmin ola bilərsiniz ki, bu əlaqələr get-gedə daha da təkmilləşəcək, artacaqdır. Əmin ola bilərsiniz ki, siz həmişə mənim dəstəyimi alacaqsınız. Azərbaycanın Prezidenti kimi mən dövlətimizin yeni neft strategiyasını irəli sürən şəxsəm. Bu strategiyanı sizinlə birlikdə ardıcıl surətdə həyata keçirəcəyik.

Biz Azərbaycan xalqının, millətinin bu günü və gələcəyi üçün çox gözəl işlər görürük və gözəl də nəticələr alacağıq. Mən Dövlət Neft Şirkətinə təşəkkür edirəm. Siz çox səmərəli əməkdaşlıq edirsiniz, belə də davam etmək lazımdır. Deməli, görüşümüzün birinci hissəsi bununla başa çatır.[16]

## BP şirkətinin Azərbaycanda həyata keçirdiyi layihələrin təqdimat mərasimi

*7 may 2001-ci il, Prezident sarayı*

**Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti:** BP şirkətinin başçısı cənab Vudvord Azərbaycanda artıq uzun müddətdir işləyən BP və onun ətrafında birləşmiş konsorsiumun fəaliyyəti haqqında, bu gün bizim ölkəmizdə görülən və gələcəkdə görüləcək işlər haqqında məlumat vermək istəyir. Bir az başqa cür desək, gördükləri işləri təqdim etmək istəyirlər. Mən bundan çox məmnunam.

Məlumdur ki, gedən bu işlər daim bizim nəzarətimiz altındadır. Biz bunları bilirik. Ancaq bunun yığcam şəkildə təqdim olunması, bizə məruzə edilməsi, eyni zamanda gələcəkdə nə vaxt, hansı işlər görüləcək, nə nəticələr əldə olunacaq – bunların bu gün həm bizim üçün, həm də ictimaiyyət üçün açıqlanması çox əhəmiyyətlidir. Ona görə də mən BP-nin bu təklifini qəbul etdim və sizi bu məqsədlə buraya dəvət etmişəm. Cənab Vudvorda söz verirəm və yəqin ki, sonra bəzi suallar, dəqiqləşdirmələr ola bilər.

**Devid Vudvord, BP şirkətinin Azərbaycandakı baş təmsilçi prezidenti:** Cənab Prezident, mən və həmkarlarım çox böyük məmnuniyyət hissi ilə bu imkandan istifadə edərək Azərbaycanda gördüyümüz işlər haqqında Sizə dəqiq məlumat vermək istəyirik. Həmçinin bizim həyata keçirdiyimiz layihələr çərçivəsində gələcək planlarımız haqqında da Sizə tam məlumat vermək istəyirik.

Cənab Prezident, biz təqdimata başlamazdan əvvəl, icazə verin, ilk öncə Sizi və Azərbaycan xalqını qarşıdakı iki böyük, mühüm hadisə münasibətilə təbrik edim, təbriklərimi çatdırım. Bunlardan birincisi Qələbə Günüdür, ikincisi isə, cənab Prezident, Sizin ad gününüzdür.

**Heydər Əliyev:** Sağ olun. Təşəkkür edirəm.

**Devid Vudvord:** Cənab Prezident, təqdimatımızın mövzusu ondan ibarətdir ki, Azərbaycanda həyata keçirdiyimiz layihələr

yeni mərhələyə qədəm qoymaq ərəfəsindədir. Bununla əlaqədar Azərbaycandakı işlərimiz o qədər genişlənəcək ki, bu vaxta qədər həyata keçirdiyimiz ilkin neftin çıxarılması layihəsi ilə müqayisə etsək, onda bu, indiyə qədər görülmüş işlərdən on dəfə çox, genişmiqyaslı bir fəaliyyət olacaqdır.

Bu işlərin uğuru üçün Azərbaycan Dövlət Neft Şirkəti ilə, dövlət və hökumət idarələri ilə məhz sıx əməkdaşlığımız layihələrin vaxtında, cədvəl üzrə həyata keçirilməsi üçün çox mühüm əhəmiyyət kəsb edir.

Cənab Prezident, layihələrimiz elə bir mərhələyə qədəm qoyur ki, burada çox geniş, dünya miqyaslı nəhəng tikinti işləri başlayacaqdır. Üzümüzə gələn 12 ay ərzində işlərimiz elə bir miqyası əhatə edəcək ki, həyata keçirdiyimiz layihələr üzrə təxminən 8-9 milyard dollar sanksiya verəcəyik. Ona görə də bu cür irimiqyaslı, nəhəng layihələrin həyata keçirilməsi üçün, bizim işimizin Sizə deyəcəyimiz cədvəl üzrə irəliləməsi üçün dövlət və hökumət idarələri ilə yaxından əməkdaşlığımız, həmçinin onların yaxın dəstəyi çox böyük əhəmiyyət kəsb edir.

**Heydər Əliyev:** Xahiş edirəm, bir dəqiqə dayanın. Siz bu birinci cədvəldən ümumi məlumat verdiniz. Mənim də qarşımda, təbiidir ki, orada yazılanlar var. Mən bunları da görürəm. Amma yaxşı olardı ki, siz bunu bir az detallaşdıraydınız.

**Devid Vudvord:** Cənab Prezident, bu yalnız giriş slaydı idi. Niyyətimiz bu idi ki, girişdən sonra həmin rəqəmlər, layihələr üzərində təfərrüatı ilə, ətraflı şəkildə dayanaq. Bunları bildirdikdən sonra əgər Sizin sualınız olarsa, yenidən söhbətə qayıda bilərik.

**Heydər Əliyev:** Yaxşı.

**Devid Vudvord:** Əgər nəsə lazımi təfərrüatlı məlumat olmasa, onda əminəm ki, Siz suallar verəcəksiniz və biz mütləq izah edəcəyik.

**Heydər Əliyev:** Razıyam.

**Devid Vudvord:** Cənab Prezident, növbəti slaydda görülmüş işlərimiz çərçivəsində əsas addımları nəzərinizə çatdırırıq. Sözsüz ki, Siz bunların hamısını çox gözəl bilirsiniz. Bu, 1994-cü ildə "Azəri", "Çıraq", "Günəşli" yataqları üzrə hasilatın

[redacted]

[redacted]

Bayaq dediyim kimi, "Şahdəniz" layihəsinin birinci mərhələsi çox böyük və çətindir. Ona görə də bu çərçivədə biz 2,7 milyard dollar investisiya qoymağı planlaşdırırıq. Mən Devid Vudvordun fikrini bir daha təsdiq edərək deyirəm ki, qarşıda duran bu çətin işləri, əsas tədbirləri həyata keçirmək üçün hökumət və dövlət idarələrindən, ümumiyyətlə, kimlərlə işləyəcəyiksə, onların hamısından yaxın əməkdaşlıq və dəstək gözləyirik ki, lazımi sənədləri vaxtında təsdiq edək, cədvələ əməl edə bilək.

**Devid Vudvord:** Bəli, biz "Şahdəniz"dəki kondensatı da buraya daxil etmişik. Amma yalnız "Şahdəniz"in birinci mərhələsi çərçivəsində hasil ediləcək kondensat daxildir. Növbəti mərhələlərdə, sözsüz ki, kondensatın ümumi həcmi artacaqdır. Gözləyirik ki, "Şahdəniz"in birinci mərhələsində, 2004-cü ilin sonundan başlayaraq qaz hasilatı ixrac üçün imkan verəcəkdir. Yəni qazın ilk ixracına 2004-cü ilin sonundan başlanacaqdır. Birinci mərhələ çərçivəsində gözləyirik ki, ildə 8 milyard kubmetr qaz hasil edəcəyik və bu rəqəmə 2007-ci ildə çatacağıq.

Cənab Prezident, növbəti slaydda "Azəri", "Çıraq" və "Günəşli" layihəsi ilə bağlı indiyə qədər görülmüş işləri, Azərbaycanın bu günə qədər birbaşa əldə etdiyi mənfəəti göstərməyə çalışmışıq. Göründüyü kimi, indiyə qədər Azərbaycana çatmış mənfəətə bonuslar, Azərbaycan şirkətləri ilə bağlanmış müqavilələrdən gələn gəlirlər, azərbaycanlı əməkdaşlara verilən maaşlar və Azərbaycanın mənfəət neftindən, "Çıraq"dan gələn gəlirlər daxildir. Azərbaycana indiyə qədər birbaşa 1 milyard 240 milyon dollar mənfəət çatmışdır.

**Heydər Əliyev:** Bu, Azərbaycana gələn mənfəətdir?

**Devid Vudvord:** Cənab Prezident, bəli. Bu rəqəm birbaşa Azərbaycana çatmış mənfəətdir. Buna əlavə olaraq biz Azərbaycanda xarici şirkətlərlə, onların filialları ilə bağlanmış layihələr vasitəsilə də təxminən 1 milyard 800 milyon dollar sərmayə qoymuşuq.

**Heydər Əliyev:** Yox, mən burada sizinlə bir az razı deyiləm. Çünki 360 milyon dollar bonus, bu – aydındır. Bu, Azərbaycana birbaşa gələn mənfəətdir. BP-nin azərbaycanlı əməkdaşlarının maaşı 108 milyon dollardır. Bu, Azərbaycana

gələn mənfəət deyildir. Siz burada öz işçilərinizə maaş verirsiniz və məlumdur ki, Azərbaycandan olan işçilərinizə verilən aylıq maaşın həcmi ölkənizdən gətirilən işçilərə verilən maaşdan azdır. Bu heç, o sizin öz işinizdir. Əgər siz 108 milyon dolları Azərbaycanda işləyən insanlara maaş vermisinizsə, bu, Azərbaycana çatan mənfəət deyildir. Siz deyə bilərsiniz ki, əgər bu olmasaydı, onlar işləyə bilməzdi və bu qədər maaş ala bilməzdilər. Mən bunu anlayıram. Məhz çox səbəblərə görə, o cümlədən bu səbəbə görə də biz sizinlə müqavilələr imzalamışıq ki, burada siz də mənfəət götürəsiniz, biz də mənfəət götürək. Ancaq hər bir işçiyə – istər mühəndisə, istər fəhləyə, yaxud da başqa işçiyə maaş vermisinizsə, o zəhmət çəkib maaşını alıbdır. Mən mənfəət onu hesab edirəm ki, bu, neftdən dövlətə gələn mənfəət olsun.

Mən sizinlə razı deyiləm. Sonra, burada yazırsınız ki, Azərbaycan şirkətləri və birgə müəssisələrlə mallar və xidmətlər üçün bağlanmış müqavilələrin dəyəri 525 milyon dollardır. Dəyəri o demək deyil ki, bu müqavilələrdən gəlir alınıbdır. İkincisi, siz yenə də Azərbaycan şirkətləri ilə çox az iş görürsünüz. Gördüyünüz işlərə daha çox Qərb ölkələrinin şirkətlərini cəlb edirsiniz. Düz deyirəm, ya düz demirəm? Elədirmi?

**Əli Əsədov, Prezidentin köməkçisi:** Cənab Prezident, bəli, düz deyirsiniz.

**Heydər Əliyev:** Ona görə onları cəlb edəndə, gördükləri işə görə siz onların haqqını verdiyiniz kimi, Azərbaycanın şirkətlərini də cəlb edəndə onların gördükləri işin haqqını verirsiniz. Məsələn, siz "İstiqlal" qurğusunu bərpa etdiniz. Elədirmi? Düzdür?

**Devid Vudvord:** Bəli.

**Heydər Əliyev:** Mən bilirəm ki, onun qiyməti təxminən 200 milyon dollar idi. Əgər yadımda düzgün qalıbsa. Doğrudurmu?

**Devid Vudvord:** Bəli, doğrudur.

**Heydər Əliyev:** Ondan 10 milyon dollar bizim Gəmi Təmiri Zavoduna, onların gördüyü işə görə vermişdiniz. Amma qalanını başqa şirkətlərə vermişdiniz. Yaxud sizinlə işləyən adamlara

[redacted]

[redacted]

**Devid Vudvord:** Bəli, bir sıra Qərb ölkələrində vergilər çox yüksəkdir.

Cənab Prezident, düz deyirsiniz. Siz düzgün buyurursunuz, burada biz, sadəcə olaraq, əks etdirmək istəmişik ki, ümumiyyətlə, Azərbaycan hökumətinə, Azərbaycan xalqına və ölkənizin şirkətlərinə nə qədər gəlir gəlibdir.

**Heydər Əliyev:** Azərbaycanın vətəndaşlarına işlədikləri üçün, Azərbaycanın şirkətlərinə bu işlərdə iştirak etdikləri üçün. Amma Azərbaycan bu neftin sahibi, konsorsiumun iştirakçısı olaraq buradan öz gəlirini götürməlidir. O gəlir də dediyim kimidir. Bilirsinizmi, bunun ikinci tərəfi də vardır. Sonra xalq bizdən tələb edəcəkdir. Siz 1 milyard 240 milyon dollar gəlir almısınız. Bu haradadır?

Amma biz xalqa elan etmişik: Neft Fondundadır. 360 milyon dollar bonuslardan əvvəl gələn bonusların bir hissəsi Neft Fonduna getməyibdir. Məlumdur ki, bizim Milli Dövlət Bankındakı valyuta ehtiyatlarına gedibdir. Neft Fondu yaradılandan sonra bonusların, – təkcə sizdən gələn yox, başqalarının da, – bir qismi Neft Fonduna gedibdir.

Bir də ki bu 246 milyon dollar Neft Fonduna gedən təmiz puldur. Ona görə siz bunu bir az ayırın. Yenə də deyirəm, mən indi xalqın qarşısındayam, – görürsənmi neçə kamera var, – sabah mənim sözlərimdən tutacaqlar ki, cənab Prezident, sən bizə düz demirsən, 1 milyard 240 milyon dollar mənfəət veribdir, amma sən deyirsən ki, Neft Fondunda bu qədər, valyuta ehtiyatında bu qədər pul vardır.

Mən bunu sizə də, həm Dövlət Neft Şirkətinə, həm də bizim yeni nazirə tapşırıram. Bu barədə onlarla işləyin. Bilirsiniz, birgə işləmək lazımdır. Belə deyil ki, bunlar elə nə cür istəyirlər, o cür yazırlar. Biz bir yerdə işləyirik. Bu bizim müştərək işimizdir. Ona görə də məsələlər həmişə razılaşdırılmalıdır.

**Devid Vudvord:** Cənab Prezident, növbəti slaydda isə biz gələcək mənfəətləri proqnozlaşdırmağa çalışmışıq. Bir daha nəzərə çatdırmaq istəyirəm ki, buraya Azərbaycan vətəndaşlarının maaşları və Azərbaycan şirkətləri ilə bağlanmış müqavilələrdən əldə olunacaq mənfəət daxil deyildir. Bu, Azərbaycan dövlətinə çatacaq xalis mənfəətdir. Buraya mənfəət nefti, bonuslar daxildir və vergilər daxil olacaqdır.

[redacted]

**Heydər Əliyev:** Bəli, bu barədə də mənə bir sözünüz varmı? Mən bu cədvəli görürəm. Bu, "Şahdəniz" yatağında qaz hasilatına dair rəqəmlərdir. Siz burada maksimum 8 milyard kubmetr qaz hasil etməyi nəzərdə tutmusunuz. Amma siz bizə məlumat vermisiniz ki, "Şahdəniz" yatağında 1 trilyon kubmetr qaz vardır. Elədirmi?

**Devid Vudvord:** Bəli.

**Heydər Əliyev:** Deməli, 1 trilyon kubmetr qaz vardırsa, ildə 8 milyard kubmetr yox, yəqin ki, beş dəfə artıq qaz sata bilərik. Çünki 1 trilyon kubmetr qazı hasil etmək üçün nə qədər vaxt lazımdır? Yəqin ki, 50-60 il. Hələ o vaxta kimi yeni yataqlar da tapacaqsınız. Mən bilirəm, çünki bu məsələ ilə maraqlanmışam. Siz burada bazar məsələsini müəyyən etmək istəyirsiniz.

Bazar məsələsi haqqında da lazımi işlər aparacağıq. Birincisi, bu, Türkiyə ilə bizim ilkin sazişimizdir. Ona görə də hələ qaz vermək imkanına malik olmadığımız üçün Türkiyəyə deyə bilməzdik ki, biz sizə 15 milyard kubmetr qaz verəcəyik. Məsələn, bilirsiniz ki, Türkmənistan Türkiyə ilə müqavilə bağlamışdı və Türkiyəyə ildə 15 milyard kubmetr qaz verməli idi. Türkmənistan bundan imtina etdi. Ancaq nə üçün bu müqavilə imzalanmışdı? Çünki artıq qaz yataqları hazırdır, sadəcə olaraq, qaz kəmərini tikib istifadəyə vermək lazımdır.

Biz indidən onlarla – Türkiyə ilə, məsələn, ildə 10, 15, yaxud 20 milyard kubmetr qaz satmaq barədə danışıq apara bilmərik. Çünki hələ ki biz 2 milyard, sonra 3 milyard kubmetrdən artıq qaz verə bilmərik.

Mən bilirəm, siz indi olan imkanlara görə bunu nəzərə alırsınız. Ancaq gərək biz də işləyək, siz də işləyəsiniz ki, yaxın zamanlarda – iki-üç il ərzində dünyada qaz satmaq üçün özümüzə bazar tapaq. Bu qazı satmaq üçün bazar kimi mən birincisi Türkiyəni görürəm. Çünki onların təbii qaza ehtiyacı çoxdur. İndi onlarda da bəzi qruplar vardır ki, qazı biri oradan, digəri buradan almaq istəyir. Siz bunu yaxşı bilirsiniz.

Amma Türkiyə ilə bizim əlaqələrimiz dostluq, qardaşlıq əlaqələridir. Əgər Türkiyə Türkmənistandan, Xəzər dənizindən çəkiləcək kəmərlə ildə 15 milyard kubmetr qaz almaq istəyirsə,

[redacted]

digər materialların çəkisi təxminən 1,5 milyon tona bərabər olacaqdır.

"Çıraq" yatağında hasil ediləcək ilkin neft layihəsi üçün sərf olunmuş metal, polad və digər materiallarla müqayisə etsək, deyə bilərik ki, burada təxminən 10 dəfə çox material məsrəfi gözlənilir. Sadəcə, müqayisə üçün demək istəyirəm ki, hər gün Azərbaycandan və Gürcüstandan əlavə 400 yük maşını hərəkət edəcəkdir. Bu maşınlar boru kəmərinin çəkilməsi üçün bizim tikinti sahələrimizə materiallar daşıyacaqdır.

Hər gün Azərbaycanın və Gürcüstanın dəmir yollarında əlavə 8 qatar Qara dənizdəki Poti limanından bizə materiallar daşıyacaqdır. Onu da deyim ki, bizim işlərimiz üçün Volqa-Don kanalı ilə hər ay 10 gəmi və 3 barj yük daşıyacaqdır.

Bütün bu tikinti işlərində biz əlavə olaraq təxminən 8500 azərbaycanlı işçi qüvvəsindən bilavasitə istifadə edəcəyik. Sözsüz ki, dediklərimdən əlavə, biz digər işçiləri – Azərbaycan vətəndaşlarını da işə götürəcəyik. Onlar xidmət sahələrində və digər yerlərdə işə cəlb olunacaqlar. İrəlidə bizi çox mühüm işlər, mühüm addımlar, çətin vəzifələr gözləyir.

Cənab Prezident, biz əminik ki, şəxsən Sizin dəstəyinizlə, rəhbərliyinizlə, Azərbaycan hökuməti ilə sıx əməkdaşlıq nəticəsində biz bu çətinliklərin, qarşımızda duran vəzifələrin öhdəsindən uğurla gələ biləcəyik. Cənab Prezident, bu, bugünkü təqdimatımızın sonuncu məsələsi idi ki, Sizin diqqətinizə çatdırmaq istəyirdik. Əgər Sizin suallarınız varsa, onlara böyük məmnuniyyətlə, təfsilatı ilə cavab verərdik. Sonra isə biz Sizinlə başqa bir məsələni müzakirə etmək istəyirik.

**Heydər Əliyev:** Təşəkkür edirəm. Sualı olan var? Sizlərdən kiminsə sualı varmı? Yoxdur. Mən suallarımı verdim.

Ümumiyyətlə, sizin gördüyünüz işlər, proqnozlar və gələcəkdə görəcəyiniz işlər haqqında təqdim etdiyiniz materiallar, məlumatlar, bu təqdimat, hesab edirəm ki, sizinlə əməkdaşlığımızın tarixində xüsusi yer tutur. Birincisi, bu, bir daha təsdiq edir ki, böyük təcrübəyə malik olan, dünyanın böyük bir məşhur neft şirkəti kimi siz Xəzər dənizini, Azərbaycanı çox düzgün seçmisiniz.

İkincisi, onu təsdiq edir ki, Azərbaycanın müəyyən olunmuş, 1993-1994-cü illərdən başlayan neft strategiyası öz müsbət nəticələrini verir. Mən heç şübhə etmirdim ki, belə olacaqdır. Əgər şübhə etsəydim, 1994-cü ilin sentyabr ayında ilk müqavilənin imzalanmasına getməzdim.

Amma bilirsiniz ki, həmin o ilk müqavilənin imzalanması da Azərbaycanın, o cümlədən mənim başıma nə qədər bəlalar gətirdi. Mən müqaviləni imzalayandan sonra bizim həbsxanadan çox qatı cinayətkarlar qaçırıldı. Ondan sonra burada dövlət çevrilişinə cəhd göstərildi. Sonra bizim iki nəfər dövlət xadimi terror nəticəsində öldürüldü. Nəhayət, bunların hamısı mənim aradan götürülməyim üçün idi.

Xatirimdədir, o vaxt bizim içərimizdə olan bəzi əleyhdarlarımız, – hansılar ki, dövlət çevrilişinə cəhd etdilər, – 1994-cü ilin sentyabr ayında biz Gülüstan sarayında müqaviləni imzalayanda deyirdilər ki, bir neçə gündən sonra onlar bu müqaviləni cırıb atacaqlar. Amma onlar bunu edə bilmədilər. Çünki bizimlə bacarmaq çətindir. Ondan sonra da bizim həyatımızda çox çətinliklər oldu.

İndiyə qədər də mən deyə bilmərəm ki, dünyada hamı bizim bu layihələri bəyənir. Bəziləri, məsələn, Bakı-Ceyhan layihəsinin, digər layihələrin həyata keçirilməsinə maneçilik törətmək istəyirlər. Bilirsiniz, bəziləri də sizi və başqa şirkətləri Azərbaycandan ayırmaq üçün Qərb mətbuatında, o cümlədən ABŞ-nin, hətta elə Böyük Britaniyanın, Avropanın başqa ölkələrinin mətbuat orqanlarında belə yazılar verirlər ki, guya Xəzər dənizi, Azərbaycan haqqında vaxtilə irəli sürülmüş proqnozlar özünü doğrultmadı, yaxud da Xəzər dənizində o qədər də böyük karbohidrogen ehtiyatları yoxdur.

Beləliklə də, şirkətləri Azərbaycandan uzaqlaşdırmağa çalışırlar. Demək istəyirəm ki, bu mübarizə indiyə qədər də gedir. Biz daha mübarizə etmək istəmirik. Biz doğru olduğumuzu işlə göstəririk, sübut edirik. Sizin bugünkü təqdimatınız buna əyani sübutdur. Məsələn, mən böyük məmnuniyyət hissi ilə indi sizdən eşitdim ki, BP kimi dünyanın böyük, çox nəhəng şirkəti dünyanın heç bir yerində, heç bir nöqtəsində indi bizim bu layihələrə sərf edəcəyi 8-9 milyard dollar məbləğində vəsait heç vaxt xərcləməmişdir.

BP təcrübəli bir şirkətdir. Özü də əbəs yerə 1 dollar da xərcləməz. Desəm ki, 1 dollar ver, sizdən bunu almaq olmaz. Ona görə də BP yaxşı bilir ki, harada nə var. Ötən illərdə sizin, BP-nin burada olan nümayəndələrinin gördüyü iş şirkətinizin rəhbərlərinə də sübut etdi ki, bəli, burada neft var, burada qaz var. Bunların hasil olunması və nəql edilməsi üçün imkanlar var. Neft və qazın satılması üçün bazarlar vardır. BP burada özünə lazım olan mənfəəti götürə bilər.

Təbiidir ki, əgər biz Azərbaycanda indi mövcud olan ictimai-siyasi sabitliyi yarada bilməsəydik, əgər 1993-cü ilə qədər olan vəziyyət, hətta 1995-ci ilə qədər olan vəziyyət davam etsəydi, siz burada işləyə bilməyəcəkdiniz. Bir az sonra gəlib görəcəkdiniz ki, burada küçəyə çıxmaq, rahat yaşamaq mümkün deyildir. Reketlə, terrorla məşğul olanları görəcəkdiniz. Ona görə də çıxıb gedəcəkdiniz. Amma biz bu şəraiti, sabitliyi yaratdıq. Azərbaycanda indi elə mühit yaranıbdır ki, xarici ölkədən gələn hər bir şirkət burada özünü öz evində olduğu kimi hiss edir. Bəlkə, ondan da yaxşı hiss edir. Əgər iqlim nöqteyi-nəzərindən baxsanız, Bakının iqlimi həm Londonun, həm də Edinburqun iqlimindən yaxşıdır. Elədirmi?

Ona görə də burada işləmək hər cəhətdən xeyirlidir. Bizim birgə işimizin bu cür yaxşı nəticələr verməsi və belə proqnozların artıq əldə olunması həm sizin üçün, həm də bizim üçün tarixi hadisədir. İndi Azərbaycan əgər iki-üç ildən sonra məhz bu müqavilələrdən ildə 500 milyon dollar gəlir əldə edəcəksə və 2011-ci ildə təkcə bu müqavilədən sizin dediyiniz 5-6 milyard dollar gəlir əldə olunacaqsa, onda görün biz gördüyümüz işlərlə Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, ölkəmizi inkişaf etdirmək üçün, Azərbaycanı çiçəklənən, inkişaf edən ölkəyə çevirmək üçün nələr edirik.

Mən həmişə demişəm ki, bizim neft strategiyamız, imzaladığımız bütün bu müqavilələr Azərbaycanın gələcəyi üçündür. Mən burada çox zəhmət çəkmişəm. Ancaq düşünürəm ki, bunların hamısının nəticəsini şəxsən mən görməyəcəyəm. Çünki hər insanın ömrünün bir həddi var. Ancaq bu məni darıxdırmır. Çünki bunu mən özüm üçün etmirəm. Mən bunu xalqım, millətim üçün, gənclərimiz üçün, Azərbaycanın gələcəyi üçün edirəm. Gələcək də bax burada görünür.

Təbiidir ki, siz Azərbaycana gəlmiş bütün şirkətlərdən ən irəlidə olanısınız. Siz indi bu yataqlardan başqa, digər yerlərdə də iş aparırsınız. Elədirmi? Məsələn, "İnam" yatağında siz iş aparırsınız və hiss edirəm ki, oradan da yaxşı proqnozlar gözləyirsiniz. Başqa yerlərdə də iş aparırsınız. Amma sizdən savayı, başqa şirkətlər də var. "Chevron" da, "Exxon" da, "Mobil" də var, o birisi də, bu birisi də var. Sizin bu nümunəniz onları da hərəkətə gətirəcəkdir. Çalışacaqlar ki, sizdən geri qalmasınlar. Çünki siz ABŞ-nin "Amoco" şirkətini aldınız. Əgər digərləri geri qalsalar, siz onları da alacaqsınız. Bunların hamısı həm sizin üçün, yəni bizimlə dost olan Avropa ölkələri üçün, ABŞ üçün, həqiqətən, çox fayda gətirən işlərdir.

Eyni zamanda bunlar Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün, xalqımızın rifah halını yüksəltmək üçün, ölkəmizin müstəqil dövlət kimi yaşaması üçün əsas şərtlərdən biridir. Ona görə indi bizə çox paxıllıq edənlər var. Ancaq iş təkcə paxıllıqla qurtarsaydı, mən narahat olmazdım. Kim paxıllıq edir, qoy etsin. Amma təkcə paxıllıq deyildir. Azərbaycanda söz vardır, "badalaq vurmaq" istəyənlər var.

Bizə birbaşa təxribat etmək istəyənlər vardır. Ancaq biz artıq ayaq üstə möhkəm durmuş dövlətik. Biz indi əvvəlkindən daha çox iradəliyik. Mən sizə təşəkkür edirəm. Gördüyünüz işləri yüksək qiymətləndirirəm. Sizin bu təqdimatınız indi Azərbaycan ictimaiyyəti üçün də xüsusi bir hadisədir.

Ölkəmizin vətəndaşlarında gələcəyə böyük ümid yaradan hadisədir. Azərbaycan-Böyük Britaniya dostluğunun möhkəmlənməsi üçün böyük bir hadisədir. Sizə bu işdə bax burada oturanlarla, – siz üç nəfərsiniz, burada oturanlar görürsünüzmü nə qədərdir, – birlikdə uğurlar arzulayırıq. Mənə dedilər ki, BP-nin prezidenti cənab Con Braun iyunun 22-də buraya gəlmək istəyir. Əgər onun belə bir fikri varsa, ona çatdırın ki, Azərbaycana gəlsin, mən onunla məmnuniyyətlə görüşərəm. Biz onunla oturub 1994-cü ilin sentyabr ayında müqavilənin imzalanması gününü birlikdə yada salarıq və bu gün əldə olunan nəticələri nəzərdən keçirərik.

Sizə bir daha təşəkkür edirəm. Bu işlərdə və gələcək fəaliyyətinizdə sizə uğurlar arzulayıram.

**Devid Vudvord:** Cənab Prezident, çox sağ olun.

**Heydər Əliyev:** Sağ olun.[17]

## "Şahdəniz-1" üzrə yekun investisiya qərarının verilməsi

*21 fevral 2002-ci il*

"Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi layihəsi üzrə tərəfdaşlar Azərbaycan hökuməti ilə aşağıdakı qaz ixracı sazişlərini imzalayıblar:

- Azərbaycan hökuməti ilə "Şahdəniz" səhmdarları arasında dövlət zəmanətləri haqqında Saziş;
- Azərbaycan hökuməti ilə potensial investorlar arasında Bakı-Tbilisi-Ərzurum layihəsi üzrə tranzit əraziyə sahib olan ölkənin hökuməti ilə hökumət sazişinin qəbul edilməsi;
- Layihənin səhmdarları arasında "Şahdəniz" yatağının işlənilməsi layihəsi çərçivəsində qazın verilməsi üzrə şirkətin yaradılması haqqında Anlaşma Memorandumu;
- Cənubi Qafqaz Boru Kəmərinin kommersiya prinsipləri haqqında saziş.

Sənədlər yanacaq və energetika naziri Məcid Kərimovun təmsil etdiyi Azərbaycan hökuməti ilə "Şahdəniz" layihəsinin bütün səhmdarları arasında imzalanıb.

BP-nin ("Şahdəniz" layihəsinin operatoru) press-relizində bu sazişlərin imzalanması 2002-ci ilin iyulunda layihənin təsdiqinə aparan layihələndirmə, tender və kommersiya işlənilməsi fəaliyyətlərinin yekun mərhələsinə keçid kimi təsvir edilir.

İlk dəfə olaraq məlumat verir ki, Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə əvvəllər 2004-cü ilin 4-cü rübünə planlaşdırılan ilk qaz tədarükü 2005-ci ilin oktyabrına planlaşdırılır.

Bu faktı şərh edən SOCAR-ın Xarici İnvestisiyalar İdarəsi qeyd edib ki, qaz kəmərinin istifadəyə verilməsinin, demək olar, bir il gecikməsi Azərbaycan, Gürcüstan və Türkiyə arasında çox uzunmüddətli danışıqların nəticəsidir.

## TPG-500 özüqalxan platformasının tikintisinin başa çatması

### *"Şahdəniz" müqaviləsi "Mərhələ-1" layihəsi üzrə tikilən TPG-500 özüqalxan platformasının tikintisinin başa çatması mərasimi*

*22 mart 2006-cı il, Bakı, Zığ tikinti-quraşdırma sahəsi*

2006-cı il martın 22-də Bakıda "Şahdəniz" qaz ixrac layihəsi üzrə tikilən TPG-500 özüqalxan platformasının inşası başa çatması münasibətilə Zığ tikinti-quraşdırma sahəsində mərasim keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib.

Prezident İlham Əliyevi SOCAR prezidenti Rövnəq Abdullayev, Fransanın "Teknip Məritaym Ofşor Limited" (TMOL) şirkətinin icraçı direktoru Pyer Kerqustanq, BP-nin kommersiya məsələləri üzrə vitse-prezidenti Fil Houm və digər şəxslər qarşılayıblar.

Podratçı şirkət olan TMOL-un icraçı direktoru Pyer Kerqustanq, BP-nin vitse-prezidenti Fil Houm və başqaları görülən işlər, "Şahdəniz" layihəsi və TPG-500 platforması barədə Azərbaycan Prezidentinə ətraflı məlumat veriblər. Bildirilib ki, Zığ tikinti-quraşdırma sahəsi SOCAR-a məxsus obyektdir, onu "Şahdəniz"in tərəfdaşları adından BP şirkəti hərtərəfli modernləşdirib. Hazırda Zığ obyekti əla yanalma körpüsünə, sex və ofislərə malik yüksək keyfiyyətli istismar sahəsidir.

Prezident İlham Əliyev TPG-500 dəniz platforması və onunla əlaqədar tamamlanmaq üzrə olan tikinti işlərinin vəziyyəti ilə tanış olub, sahəni gəzib.

Məlumat verilib ki, bir neçə gündən sonra dənizə aparılacaq platforma dünyada ən nəhəng qurğulardandır. Ümumi çəkisi 32 min tondur. Tikinti işlərinin qızğın çağında Zığ tikinti-quraşdırma sahəsində işə cəlb olunan təxminən 3500 nəfərin 80 faizindən çoxunu Azərbaycan vətəndaşları təşkil etmişdir. Tikinti-quraşdırma sahəsində qəza nəticəsində vaxt itirilmədən 13 milyon adam/saat həcmində iş görülmüşdür. Layihə Zığ tikinti-quraşdırma sahəsində də

iş cədvəlinə əməl olunmaqla tamamlanmışdır və TPG-500 platforması tikinti baxımından çox mürəkkəb və çətin bir konstruksiya olduğundan bu, yüksək nailiyyətdir. Tikinti-quraşdırma sahəsinin avadanlıq, material və xidmətlərlə təchiz olunması üçün təxminən 257 Azərbaycan şirkətinin xidmətlərindən istifadə edilmişdir.

“Şahdəniz” yatağında işləyəcək TPG-500 120 nəfərlik işçi heyəti üçün yaşayış bloku olan qazma və hasilat qurğularından ibarət nəhəng platformadır. Bu, Xəzərdə nadir obyektdir. Modullar Sinqapurda hazırlanıb və Volqa-Don kanalı ilə Bakıya gətirilib. Ayaqları da daxil olmaqla platforma tamamilə Zığ tikinti sahəsində yığılıb. İndiyədək dünyada bu qəbildən olan cəmi iki platforma inşa olunub və onlar hazırda Şimal dənizində Böyük Britaniyanın kontinental şelfində istismar edilir. Platformanın əsas üç ayağı da bu tikinti-quraşdırma sahəsində inşa olunub. Bütün sistemlər Zığdan dənizə yola salınmazdan öncə yoxlanılıb və istismar sınaqlarından keçirilib. “Şahdəniz” yatağında platformanın quraşdırılacağı yerdə dəniz dibinin geotexniki vəziyyəti çox çətin olduğuna görə lazım olan çox böyük və mürəkkəb özül konstruksiyaları da quraşdırılıb.

Platformanın qazma qurğularının 3 kilometrdən artıq radiusda dərinliyi 7 kilometrdən çox olan quyular qaza bilmək imkanı da vardır. Hasilat qurğuları gün ərzində təxminən 1 milyard kubfut (28,5 milyon kubmetr) qazı və 60 min barel (8000 min ton) kondensatı texnoloji emal edəcəkdir. Yataqdan çıxarılacaq qaz və kondensat sualtı boru kəmərləri ilə Səngəçal terminalına nəql olunacaqdır.

TPG-500 Xəzər dənizində, Bakıdan təxminən 100 kilometr cənubda istismar olunacaqdır. “Şahdəniz” layihəsi üzrə ilk qazın Türkiyəyə 2006-cı ilin qışınadək çatdırılması planlaşdırılır.

Dövlət başçısı görülən işləri yüksək qiymətləndirərək və yeni texnologiyalar əsasında hazırlanmış üst modullar, dayaq, yaşayış blokları, kompressorlar, nasoslar, platformanın idarəetmə və avtomatlaşdırma sistemi, vertolyot meydançası ilə tanış olub. Bildirilib ki, burada da ən müasir texnologiyalar tətbiq olunur. Platforma vasitəsilə ümumilikdə 15 quyu qazılacaqdır. Cari ildə 3 quyu, sonra isə 12 quyu istismara hazır olacaqdır. Yaşayış blokunda hər cür şərait yaradılıb, bütün təhlükəsizlik qaydaları nəzərə alınıb.

Prezident İlham Əliyev bəzi tövsiyələrini verib, görülən işlərin çox sevindirici və ölkəmiz üçün faydalı olduğunu bir daha diqqətə çatdırıb.

Sonra **Azərbaycan Prezidenti İlham Əliyev** platformanı inşa edən fəhlələrlə görüşüb söhbət edib:

– Mən sizi təbrik edirəm. Bu çox gözəl platformadır. Azərbaycanın qazını hasil edəcək, bizim vətənimizə təhvil verəcək və eyni zamanda dünya bazarına çıxaracaqdır. Siz, bu işlə məşğul olan şirkətlər, qurumlar, böyük iş görmüsünüz. Sağ olun. Bu, gözəl əməkdaşlıq nümunəsidir. Xarici şirkətlər, Azərbaycan mütəxəssisləri, Azərbaycan hökuməti – hamımız birlikdə işləmişik. Son on il ərzində, 1996-cı ildən bu günə qədər biz bu işləri görmüşük.

Bu platforma bir neçə gündən sonra "Şahdəniz" yatağına aparılacaqdır. Qazın hasilatı başlayacaqdır. Azərbaycana böyük gəlirlər gələcək və ölkəmiz möhkəmlənəcəkdir. Ona görə sizin hamınıza təşəkkürümü bildirirəm. Gözəl işlərdə iştirak etmisiniz, bunu yaratmısınız. İndi görün Azərbaycanda nələr, hansı nəhəng qurğular yaradılır. Dünyanın ən qabaqcıl texnologiyaları burada tətbiq olunubdur və Azərbaycan mütəxəssisləri əksəriyyət təşkil etmişlər. Yaxşı da maaş alırsınız, iş şəraiti, təhlükəsizlik şəraiti də yaxşıdır. Sizə həm təşəkkür edirəm, həm də yeni uğurlar arzulayıram.

Fəhlələr Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər, ona cansağlığı, məsuliyyətli işində uğurlar arzulayaraq deyiblər ki, Sizi təbrik edirik. Ulu Öndərimiz Heydər Əliyevin "Şahdəniz" layihəsini Siz başa çatdırırsınız. Sizə bütün gənclər, fəhlələr adından minnətdarlığımızı bildiririk. Burada 500 fəhlə çalışır. Sizdən xahişimiz odur ki, bundan sonra işsiz qalmayaq.

Prezident İlham Əliyev bundan sonra da belə işlərin çox olacağını vurğulayıb və fəhlələrlə xatirə şəkli çəkdirib.

## Tikintisi ilk dəfə 100 faiz Azərbaycanda həyata keçirilən layihə

2016-cı il sentyabrın 1-də Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimi keçirilib. Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və BP-nin "Şahdəniz-2" üzrə vitse-prezidenti Yuan Dramond "Şahdəniz" layihəsi ilə bağlı görülən işlər barədə dövlət başçısına məlumat veriblər. Bildirilib ki, indiyədək layihənin icrası dənizdə və quruda yerləşən bütün istehsalat-quraşdırma sahələrində uğurla davam edib.

Hazırda mühəndis-layihələndirmə, təchizat-tədarük və tikinti də daxil olmaqla işlərin 77 faizi tamamlanıb. Layihə çərçivəsində ilk qazın nəqlinə və sonradan hasilatın artırılmasına hazırlıq məqsədilə "Heydər Əliyev" və "İstiqlal" qazma qurğularından istifadə etməklə artıq 10 istismar quyusu qazılıb. "Şahdəniz" layihəsinin "Mərhələ-2" çərçivəsində əsas diqqət ildə əlavə 16 milyard kubmetr qaz və gündə 120 min barelədək kondensat əldə etmək üçün hazırda istismar edilən lay intervallarında qalan ehtiyatlara yönəlib. Layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə nəql ediləcək. Qalan həcm, yəni ildə 10 milyard kubmetr Avropa alıcılarına çatdırılacaq.

"Şahdəniz-2" layihəsinə bir-birinə körpü ilə birləşdirilən iki yeni hasilat platformasının, iki yarımdalma qazma qurğusundan qazılan 26 sualtı quyunun, suyun 550 metrədək dərinliyində quraşdırılan 500 kilometr uzunluğunda sualtı boru kəmərlərinin inşası və Səngəçal terminalının genişləndirilməsi işləri daxildir.

Sonra Prezident İlham Əliyev "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basıb.

Bu dayaq blokunun çəkisi 13 min 150 ton, hündürlüyü isə 105 metrdir. Blok 12 hasilat, 3 ixrac dikborusundan və bir idxal dikborusundan ibarətdir. Dayaq bloku suyun 94 metr dərinliyində quraşdırılacaq.

Blok "BOS Shelf", "Star Gulf" və "Saipem" konsorsiumları tərəfindən inşa edilib. Tikinti işləri iki il davam edib. Bu dayaq bloku Xəzərdə ən çox dikboru sayına malikdir. Blokun konstruksiyasının daşınması, suya endirilməsi, yerləşdirilməsi və payalarla quraşdırılması işləri diqqətlə planlaşdırılıb. Bu işlərin təxminən 40 gün ərzində yekunlaşdırılması nəzərdə tutulur.

Dayaq blokunun tikintisi cədvələ uyğun tamamlanıb və 2016-cı il iyulun 29-da dənizə yola salınmaq üçün uğurla Heydər Əliyev




1 sentyabr 2016-cı il, "Şahdəniz-2" layihəsi üzrə dayaq blokunun dənizə yola salınması mərasimi

adına Bakı Dərin Özüllər Zavodunun yanalma körpüsündə Xəzər Dəniz Gəmiçiliyinin "STB-1" daşıma barjına yüklənib.

Blok zavod ərazisində yerli infrastrukturdan və obyektlərdən istifadə edilməklə, bütövlüklə ölkə daxilində inşa edilib. Tikinti işlərinə subpodratçılar və ixtisaslaşmış təchizatçılar da daxil olmaqla 5000-dən çox işçi cəlb edilib. Tikintiyə cəlb olunmuş işçi qüvvəsinin təxminən 90 faizi Azərbaycan vətəndaşları olub.

Onu da deyək ki, ilk dəfə olaraq "Şahdəniz-2" platformalarının tikintisinin 100 faizi ölkə daxilində həyata keçirilir. Tikinti işləri beynəlxalq standartlara uyğun şəkildə tam modernləşdirilmiş dünya səviyyəli istehsalat obyektləri olan Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda və "Amec-Tekfen-Azfen" tikinti-quraşdırma sahəsində həyata keçirilib.

Xəzərdə ən böyük dayaq bloklarından biri olan "Şahdəniz-2" dayaq blokları yerli şirkət olan "BOS Shelf"in üzv olduğu konsorsium tərəfindən Bakı Dərin Özüllər Zavodunda inşa edilir. "BOS Shelf" BP-nin mərkəzləşmiş maddi-texniki və təchizat bazasını idarəetmə xidmətləri ilə təmin edən ilk yerli şirkətdir. Azərbaycanda ən

yüksək dünya standartlarına uyğun qurulmuş özüllər də şirkət tərəfindən inşa olunur. Bundan başqa, şirkət yerli işçi qüvvəsindən istifadə etməklə Azərbaycanda ilk dəfə sualtı strukturların istehsalını həyata keçirir və fəaliyyətində dünyada ən yeni texnologiyalardan istifadə edir.

"Şahdəniz-2" və "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi" layihələrinin əsas töhfələrindən biri tikinti fazası ərzində minlərlə iş yerinin açılmasıdır. Bu vaxtadək Azərbaycanda bütün əsas müqavilələr üzrə tikinti işlərinə 24 min nəfərdən artıq insan cəlb edilib və onların 80 faizdən çoxu Azərbaycan vətəndaşları olub.

Sonra Prezident İlham Əliyev SOCAR və bu layihənin əməliyyatçısı olan BP rəhbərliyi, "Şahdəniz" layihəsinin tərəfdaş şirkətlərinin, layihəni həyata keçirən konsorsiumun nümayəndələri və dayağı inşa edən işçi heyəti ilə görüşüb.

1 sentyabr 2016-cı il, "Şahdəniz-2" layihəsi üzrə dayaq blokunun dənizə yola salınması mərasimi



## Prezident İlham Əliyevin mərasimdəki çıxışı:

– Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz "Şahdəniz-2" platformasının dayaq blokunu dənizə yola salırıq. Bu əlamətdar hadisə münasibətilə sizi, bütün Azərbaycan xalqını təbrik edirəm. Bu, tarixi hadisədir. "Şahdəniz" layihəsi üzrə saziş iyirmi il bundan əvvəl imzalanmışdır və bu illər ərzində uğurla icra edilir, bütün vəzifələr yerinə yetirilir. "Şahdəniz-2" layihəsinin ölkəmiz üçün əhəmiyyəti çox böyükdür.

Bu gün yola saldığımız dayaq bloku onu göstərir ki, Azərbaycan böyük işləri görməyə qadir bir ölkədir. Sevindirici hal ondan ibarətdir ki, bu dayaq bloku və platformanın üst tikililəri 100 faiz Azərbaycanda inşa edilir. Bu nəhəng qurğuların inşasında işləyənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır.

Bu da "Əsrin kontraktı"nın nəticəsidir. Çünki 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"nin şərtlərindən biri də o idi ki, yerli mütəxəssislər, fəhlələr tədricən üstünlük təşkil etsin və artıq işləyənlərin 80 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır. Bu, yeni iş yerlərinin yaradılması deməkdir.

"Şahdəniz" layihəsinin icrasında 20 mindən çox Azərbaycan vətəndaşı işləyir, yaxşı maaş alır, təcrübə toplayır. Bu vətəndaşlar gələcəkdə digər layihələrdə işləyəcəklər. "Şahdəniz-2" layihəsi təkcə Azərbaycan üçün deyil, bütün region, Avropa üçün böyük əhəmiyyət daşıyan bir layihədir. İyirmi il bundan əvvəl saziş imzalanmışdır və bu gün biz bu sazişin gözəl nəticələrini görürük. Artıq neçə ildir ki, Azərbaycan qazı region ölkələrinə ixrac edilir. Azərbaycan öz enerji təhlükəsizliyini tam təmin edibdir və digər ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında öz rolunu oynayır. Bu rol getdikcə artacaq.

"Şahdəniz" və "Cənub Qaz Dəhlizi" layihələri dünyanın ən böyük enerji layihələrindəndir. "Cənub Qaz Dəhlizi"nin inşası da uğurla gedir. Bütün bu işlər əlaqəli şəkildə aparılır. Əminəm ki, cədvəl üzrə gedən işlər 2018-2020-ci illərdə tamamlanacaq və beləliklə, Azərbaycan qazı daha da böyük həcmdə qonşu ölkələrə, Avropa ölkələrinə nəql ediləcəkdir.

"Cənub Qaz Dəhlizi" artıq 7 ölkəni birləşdirir. Azərbaycan bu istiqamətdə öz liderlik fəaliyyətini davam etdirir. Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iki dəfə iclası keçirilmişdir. Biz yeni bir beynəlxalq əməkdaşlıq formatını yaratdıq. Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya bu layihənin iştirakçılarıdır. Bununla bərabər, üç Balkan ölkəsi: Monteneqro, Bosniya və Hersoqovina, Xorvatiya bu layihəyə növbəti mərhələdə qoşulacaqdır. Beləliklə, Azərbaycan qazının gələcəkdə müxtəlif ölkələrə ixracı üçün yeni imkanlar yaranır. Bunu tərəfdaşlarla birlikdə biz yaradırıq, Azərbaycan xalqı yaradır.

Mən bu layihələrin icrası ilə bağlı görülən işlərdə SOCAR-ın və BP-nin rolunu xüsusilə qiymətləndirmək istəyirəm. SOCAR-BP əməkdaşlığı artıq böyük tarixə malikdir. İyirmi ildən çoxdur ki, bu əməkdaşlıq davam edir və bu, uğurlu əməkdaşlıqdır. Görülən və görüləcək işlər ən azı növbəti iyirmi il ərzində də SOCAR-ın və BP-nin yaxın tərəfdaşlar kimi fəaliyyətini təmin edəcək. Azərbaycanda görüləcək işlər həm xarici tərəfdaşlar, xarici kompaniyalar, SOCAR və Azərbaycan xalqı üçün daha da böyük mənfəət gətirəcəkdir.

Əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün təsəvvür etmək mümkün deyil ki, Azərbaycan hansı vəziyyətdə ola bilərdi. Ölkəmizdə görülən quruculuq-abadlıq işlərinin, dayanıqlı iqtisadiyyatımızın, böyük valyuta ehtiyatlarımızın əsas mənbəyi "Əsrin müqaviləsi"dir.

Yaxşı bilirsiniz ki, Azərbaycan o ağır, çətin dövrdə müəyyən təzyiqlərlə də üzləşmişdi. Heydər Əliyevin qətiyyəti, cəsarəti, uzaqgörənliyi, xalqa olan bağlılığı "Əsrin kontraktı"nın imzalanmasını təmin etmişdir. Mən də fəxr edirəm ki, o vaxt – 1994-cü ildə kontraktın imzalanmasına qədər aparılan danışıqlarda iştirak etmişdim. Ondan sonra Dövlət Neft Şirkətində çalışarkən bilavasitə bu məsələlərlə məşğul olmuşam. Bu gün də Prezident kimi bütün işləri nəzarətdə saxlayıram və Azərbaycanın enerji siyasətinin gələcək inkişafı üçün lazımi addımları atıram.

Bu gün Azərbaycan dünya xəritəsində etibarlı tərəfdaş, hörmətə layiq olan ölkə kimi tanınır. Biz bütün öhdəlikləri yerinə yetiririk, xarici sərmayədarlar üçün yaxşı şərait yaratmışıq.

Onların sərmayələri qanun çərçivəsində qorunur. Əgər bu olmasaydı, heç kim Azərbaycana milyardlarla, on milyardlarla dollar sərmayə qoymazdı. Sərmayə qoyuluşu üçün Azərbaycan çox cəlbedici ölkədir. Şadam ki, indi nəinki neft-qaz sektoruna, digər sektorlara da yerli, xarici sərmayələr qoyulur. Bütün bu işlərin təməli 1994-cü il sentyabrın 20-də qoyulmuşdur.

1996-cı ildə “Şahdəniz” layihəsi üzrə sazişin imzalanması növbəti uğurlu addım idi. Baxmayaraq ki, o vaxt dünyada və xüsusilə Avropada enerji təhlükəsizliyi haqqında heç kim danışmırdı, qaz layihələri o qədər də böyük əhəmiyyət daşımırdı. Hesab olunurdu ki, qaz layihələri o qədər də böyük gəlir gətirən layihələr deyil, müəyyən tərəddüdlər var idi. Ancaq biz əmin idik ki, Azərbaycan qaz sektorunda da öz sözünü deyəcək.

Bu gün artıq Azərbaycan böyük qaz dövlətlərinin sıralarına daxil olur. Hasilat, nəqliyyat artacaq, Azərbaycan gələcəkdə tranzit funksiyalarını da oynaya bilər. Necə ki biz indi neftin, neft məhsullarının daşınması üçün bu rolu oynayırıq. Beləliklə, ölkəmizin qüdrəti, əhəmiyyəti artacaq, Azərbaycan xalqı daha da yaxşı yaşayacaq. Görülən bütün bu işlərin məqsədi budur — Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın, ölkəmizin iqtisadi müstəqilliyi daha da möhkəmlənsin və dünyada rolumuz, əhəmiyyətimiz artsın. Biz bütün bunları görürük. Ona görə bugünkü mərasim çox rəmzi xarakter daşıyır. Bu, görülən işlərin bariz nümunəsidir. Azərbaycan vətəndaşları bu böyük, nəhəng işləri xarici tərəfdaşları, xarici sərmayədarlarla birlikdə görürlər. Hər bir vətənpərvər Azərbaycan vətəndaşı bununla fəxr edir. Fürsətdən istifadə edərək bu işlərdə iştirak etmiş bütün insanlara: Azərbaycan fəhlələrinə, mütəxəssislərinə, xarici tərəfdaşlara, BP şirkətinə və digər partnyorlara minnətdarlığımı bildirmək istəyirəm. Bu bizim ümumi işimizdir və hər bir tərəf: xarici şirkətlər, Azərbaycan dövləti, Azərbaycan şirkətləri, Azərbaycan vətəndaşları öz mənfəətini götürür.

Mən sizi bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Platformanın üst tikililəri gələn il istismara veriləcək. İnşallah, gələn il növbəti mərasimdə sizinlə görüşəcəyik. Bir daha təbrik edirəm.[18]

## "Şahdəniz-2" qazının Avropa alıcıları ilə alqı-satqısına dair sazişlərin imzalanması

*19 sentyabr 2013-cü il, Bakı*

"Şahdəniz" konsorsiumu 2013-cü il sentyabrın 19-da elan edib ki, Azərbaycanın "Şahdəniz" yatağının "Mərhələ-2" işlənilməsindən hasil ediləcək qazın ildə 10 milyard kubmetrdən bir az artıq olan həcminin satışı üzrə 25 illik sazişlər bağlanmışdır. Bu qazı İtaliyada, Yunanıstanda və Bolqarıstanda doqquz şirkət alacaq.

"Şahdəniz" müqaviləsi "Mərhələ-2" layihəsi "Cənub Qaz Dəhlizi"ni açmaqla ilk dəfə olaraq Azərbaycandan Avropaya birbaşa qaz çatdıracaq. "Şahdəniz" yatağının "Mərhələ-2" layihəsinin işlənilməsindən ümumilikdə hasil ediləcək ildə 16 milyard kubmetr qaz Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya ərazisindən və Adriatik dənizinin altından keçməklə İtaliyaya qədər 3500 km-dən artıq uzanan boru kəmərləri vasitəsilə çatdırılacaq.

Avropaya qaz satışına dair bu gün – 2013-cü il sentyabrın 19-da imzalanan sazişlərdən əvvəl 2011-ci ildə BOTAŞ şirkəti ilə Türkiyədə ildə 6 milyard kubmetr qazın satışına dair sazişlər imzalanmışdı.

SOCAR prezidenti Rövnəq Abdullayev deyib: "Çoxsaylı Avropa şirkətləri ilə illərdir SOCAR-ın rəhbərliyi altında aparılan danışıqların uğurla başa çatmasından məmnunuq. Bu, ölkəmizin tarixində ən böyük qaz satışı sazişləri olmaqla Azərbaycanın nəhəng qaz ehtiyatları ilə Avropa bazarları arasında birbaşa əlaqələrin başlanğıcını qoyur. Azərbaycan "Şahdəniz" qaz alıcıları ilə uzunmüddətli əməkdaşlığa başlamaqdan məmnundur. Əminəm ki, bu əməkdaşlıq Avropadakı istehlakçılara faydalar gətirəcək və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm rol oynayacaq".

Sazişlər barədə danışan BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti və "Şahdəniz" üzrə hasilatın pay bölgüsü sazişi (HPBS) əməliyyatçısının prezidenti Qordon Birrell deyib ki, "Şahdəniz" konsorsiumu dünya neft və qaz sənayesi tarixində ən böyük qaz satışı sazişlərindən biri olan bugünkü sazişlərin bağlanmasında iştirakından qürur duyur: "Bu sazişlər üzrə danışıqlara cəlb olunmuş bütün şirkətlərə konsorsium adından



"Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimi

minnətdarlığımı bildirirəm. Sazişlərin imzalanmasına gətirib çıxaran geniş əməkdaşlıq uzunmüddətli tərəfdaşlığın təməlini qoyur. "Şahdəniz" qazına olan yüksək tələbat bizə Azərbaycanın qaz ehtiyatlarının uzunmüddətli işlənilməsi üçün əminlik verir. Bu sazişlərin imzalanması daha bir mühüm addımdır və bizi "Şahdəniz" çərçivəsində "Mərhələ-2" layihəsi üzrə yekun investisiya qərarına daha da yaxınlaşdırır".

Bu gün qaz alışı sazişlərini imzalayan alıcılar bunlardır:

- "Axpo Trading AG"
- "Bulgargaz EAD"
- "DEPA Public Gas Corporation of Greece S.A."
- "Enel Trade SpA"
- "E.ON Global Commodities SE"
- "Gas Natural Aprovisionamientos SDG S.A."
- "GDF SUEZ S.A."

- “Hera Trading srl”
- “Shell Energy Europe Limited”.

10 milyard kubmetr ümumi həcmdən hərəsinə təqribən 1 milyard kubmetr olmaqla Bolqarıstan və Yunanıstanı təchiz etmək niyyətində olan alıcılara, qalanı isə İtaliyanı və ona bitişik bazar mərkəzlərini təchiz etmək niyyətində olan alıcılara ötürüləcək.

Bu sazişlərin yekunlaşmasından əvvəl çoxsaylı müxtəlif şirkətlər “Şahdəniz” qazını almaqda maraqlı olduqlarını bildirmişdi. Sazişlərin bağlanması ilə “Şahdəniz-2” qaz satışı prosesi tamamlanmış olur.

Qaz satışına dair sazişlər “Şahdəniz” çərçivəsində “Mərhələ-2” layihəsi üzrə bu ilin sonlarına planlaşdırılan yekun investisiya qərarından sonra qüvvəyə minəcək.

## “Şahdəniz-2” üzrə yekun investisiya qərarının verilməsi

*17 dekabr 2013-cü il*

2013-cü il dekabrın 17-də Bakıda, Heydər Əliyev Mərkəzində “Şahdəniz-2” üzrə yekun investisiya qərarının imzalanması mərasimi keçirilib. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları mərasimdə iştirak ediblər.

“Şahdəniz-2” layihəsi Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsinə xidmət etməklə Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşmasına təkan verəcək, Avropaya yeni qaz dəhlizi açacaqdır.

Layihə çərçivəsində 26 sualtı quyunun qazılması, həmçinin körpü ilə birləşdiriləcək iki platformanın tikintisi, Səngəçalda isə yeni texniki emal və kompressor qurğularının inşası nəzərdə tutulur. 3500 kilometr məsafədə nəql olunacaq qaz Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və digər ölkələrdə milyonlarla istehlakçını təmin edəcəkdir. İlk qazın Avropaya 2019-cu ildə çatdırılması planlaşdırılır.

1999-cu ildə kəşf olunan "Şahdəniz" yatağının işlənilməsinin birinci mərhələsi çərçivəsində 2006-cı ildən Gürcüstan və Türkiyəyə qaz ixrac edilir. "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi" layihələri isə dünyanın neft-qaz sənayesində indiyə qədər həyata keçirilmiş ən böyük və mürəkkəb təşəbbüslərdən hesab olunur.

**Prezident İlham Əliyevin mərasimdəki çıxışı:**

– Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Əvvəlcə hər birinizi bu gün Azərbaycanda salamlayıram. Dövlət və hökumət başçılarına, nazirlərə bizim dəvətimizi qəbul edərək bu tədbirdə iştirak etdiklərinə görə minnətdarlığımı bildirirəm. Bu gün müasir Azərbaycanın tarixində tarixi bir gündür. Bu gün "Şahdəniz-2" enerji layihəsinin icrasına başlanılacaqdır. Bu isə ölkəmizin uzunmüddətli inkişafını təmin edəcəkdir.

"Şahdəniz-2" dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu tarixi layihədə iştirakçı dövlət və şirkətlərin geniş əməkdaşlığı təmin ediləcəkdir. Lakin bu gün mən 19 il bundan öncəyə – Azərbaycanın enerji strategiyasının yarandığı 1994-cü ilə dönmək istəyirəm.

Biz buna Ümummilli liderimiz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi nəticəsində nail olmuşuq. Müstəqillik əldə etdikdən, sadəcə, üç il, Azərbaycanda vətəndaş müharibəsinin bitməsindən bir il, Ermənistanla müharibədə atəşkəsin əldə edilməsindən yalnız dörd ay sonra Azərbaycan xarici tərəfdaşları ilə birlikdə "Əsrin müqaviləsi"ni imzalamışdır. Bu hadisə ilk dəfə Xəzər dənizini xarici sərmayələrə açmışdır və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdır. "Şahdəniz" isə, düşünürəm ki, XXI əsrin müqaviləsi olacaqdır. Bu tədbirdən əvvəl isə müstəqil Azərbaycanın enerji sahəsinin inkişafında bir sıra mühüm tarixi hadisələr baş vermişdi. 1996-cı ildə "Şahdəniz" qaz yatağı ilə bağlı saziş

imzalanmış, sonra 1999-cu ildə Xəzər dənizini Gürcüstanın Qara dəniz sahilləri ilə birləşdirən ilk boru kəməri inşa edilmişdir. Daha sonra – 2006-cı ildə Xəzər dənizini Aralıq dənizi və beynəlxalq bazarlarla birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri, 2007-ci ildə isə Cənub qaz boru kəməri inşa edilmişdir. Bu kəmər Azərbaycan, Gürcüstan və Türkiyəni hazırkı mərasimin tərkib hissəsi olan digər layihə ilə birləşdirmişdir.

2011-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında strateji enerji əməkdaşlığına dair Memorandum imzalanmışdır. Bu da öz növbəsində ölkəmizin enerji strategiyasının həyata keçirilməsinə və Avropa istiqamətində enerji təchizatının şaxələndirilməsinə yardım etmişdir. Ötən il biz Türkiyə ilə Trans-Anadolu boru kəməri – TANAP-a dair tarixi saziş imzalamışıq. Bu il isə TAP layihəsi əsas ixrac marşrutu seçilmişdi. Nəhayət, bu gün biz "Şahdəniz-2" yekun investisiya qərarını imzalayırıq.

Bu, tarixə bir ekskurs, Azərbaycanın ən iri qaz yatağının tam həcmdə işlənilməsi layihəsi istiqamətində keçdiyimiz yolda mühüm hadisələr idi. Bu layihə regionun və Avropanın enerji xəritəsini dəyişdirəcəkdir. Azərbaycanın qaz ehtiyatları bu sərvəti gözləməkdə olan bazarlara nəql ediləcəkdir. Bizim hesablamalarımıza görə, Azərbaycanın qaz ehtiyatı 3 trilyon kubmetrə bərabərdir.

"Şahdəniz-2", TANAP və TAP dünyanın ən iri enerji layihələrindəndir. Layihəyə 45 milyard dollar məbləğində sərmayə cəlb ediləcək, marşrut boyu yerləşən ölkələrdə 30 mindən çox yeni iş yeri yaradılacaqdır. Təbii ki, bu layihə əlavə səylər tələb edəcəkdir.

Biz birgə səylərlə həyata keçirəcəyimiz nəhəng layihənin yalnız başlanğıcındayıq. Bu gün mən Azərbaycan xalqını bu tarixi gün münasibətilə təbrik edirəm. Bu layihə ölkəmizin uzunmüddətli və dayanıqlı iqtisadi inkişafını təmin edəcəkdir. Eyni zamanda "Şahdəniz" konsorsiumuna Azərbaycanla bağlı səylərinə görə minnətdarlığımı bildirirəm. Xüsusilə Azərbaycanda enerji sahəsinin iki lideri və strateji tərəfdaşı olan SOCAR və BP-yə təşəkkürümü bildirirəm. BP və SOCAR arasında 20 illik əməkdaşlıq təcrübəsi vardır. İmzalayacağımız sazişlər bu əməkdaşlığın 40 il və hətta ondan da uzun müddət davam edəcəyinə imkan verəcəkdir.

Onu da qeyd etmək istərdim ki, Azərbaycanın enerji siyasəti iqtisadiyyatımızın transformasiyasına və şaxələndirilməsinə imkan yaratmışdır. Biz müstəqilliyimizi bərpa etdiyimiz dövrdə özəl sektordakı ümumi daxili məhsul sıfır faizə bərabər idi. Bu gün isə özəl sektor iqtisadiyyatımızın 85 faizini təşkil edir. Biz işsizlik səviyyəsini 4,8 faizə endirmişik. Yoxsulluq səviyyəsi 5,5 faizə endirilmişdir. Bizim xarici borcumuz ümumi daxili məhsulun, sadəcə, 8 faizini təşkil edir. Nəhayət, maliyyə vəziyyəti sabitdir və biz iqtisadiyyatımızın 55 faizini təşkil edən qeyri-neft sektoruna yatırımlar etməkdəyik.

Bu səbəbdən enerji siyasəti, beynəlxalq təsisatlarla sıx əməkdaşlıq, şaxələndirmə və şəffaflıq uğurlu inkişafın əsas elementlərindəndir. Düşünürəm ki, Azərbaycan neft bəlasına, məşhur “Holland sindromu”na tutulmamışdır. Biz neftin və qazın xalqın mənafeyinə necə xidmət etdiyinin nümunəsiyik. Əlbəttə ki, bunun başlıca səbəblərindən biri beynəlxalq əməkdaşlıq olmuşdur. Biz bu əməkdaşlığı yüksək qiymətləndiririk, çünki xarici şirkətlərin bilik və təcrübəsi bizim üçün çox əhəmiyyətlidir.

Bu gün bu əməkdaşlıq daha geniş formata qədəm qoyur və daha çox ölkə və şirkəti əhatə edəcək yeni əməkdaşlıq formatı yaradılır. Əminəm ki, gələcəkdə “Şahdəniz-2” layihəsi hazırda nəzərdə tutulduğundan daha çox coğrafi məkanı əhatə edəcəkdir.

Bu gün biz, təbii ki, qazımızın Avropa bazarlarına vaxtında çatdırılması üçün diqqətimizi TANAP və TAP layihələrinin icrasına yönəltməliyik. Burada “Şahdəniz” layihəsinin ilkin mərhələsinin əhatə etdiyi ölkələr: Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya, Bolqarıstan ilə sıx əməkdaşlıq tələb olunacaqdır. Sonrakı mərhələdə biz Monteneqro və Xorvatiya ilə fəal əməkdaşlığa başlayacağıq. Bu boru kəmərinin Balkanlar istiqamətində uzadılması planlarımız da vardır. Eyni zamanda, ümid edirəm ki, qarşıdan gələn illərdə Rumıniya, Macarıstan və Avstriyadakı tərəfdaşlarımızla boru kəmərinin həmin istiqamətdə də uzadılması üzrə fəal iş görəcəyik. Bizim böyük planlarımız vardır və boru kəmərinin dizaynı da bu planlara uyğun şəkildə nəzərdə tutulmuşdur.

Gələcəkdə biz hasil edə biləcəyimiz qədər qaz həcmini nəzərdə tutulmuş kəmərlər vasitəsilə nəql edəcəyik. Təbii ki, "Şahdəniz-2" layihəsi enerji təhlükəsizliyi layihəsidir. Hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyindən ayrılmazdır. "Şahdəniz" layihəsinin imzalandığı 1990-cı illərdə bu belə deyildi. Bu gün isə bu artıq reallıqdır. Enerji təhlükəsizliyinin əsas elementlərindən biri təbii qazdır. Hazırda vəziyyət belədir və zənnimcə, növbəti illərdə heç bir dəyişiklik baş verməyəcəkdir. Bu səbəbdən enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi Azərbaycan kimi istehsalçı ölkə, həmçinin tranzit və istehlakçı ölkələr üçün eyni dərəcədə vacibdir. Əminəm ki, biz istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqlarının düzgün balansına birlikdə nail ola biləcəyik. Hamımız üçün faydalı əməkdaşlıq formatı yaradılacaqdır.

Bizim enerji strategiyamız dostluq, əməkdaşlıq və qarşılıqlı dəstəyə əsaslanır. Tariximizdə Azərbaycan heç bir zaman öz enerji potensialını digər məqsədlər üçün istifadə etməmişdir.

Bu tarixi gün münasibətilə Azərbaycan xalqını, bütün dostlarımızı və xarici tərəfdaşlarımızı təbrik edirəm. Layihəmizə uğurlar arzulayıram. Uğurlar, "Şahdəniz-2".

**Albaniyanın Baş naziri Edi Rama** bu layihənin icrası nəticəsində Azərbaycan və Albaniyanın Xəzər və Adriatik dənizlərini əlaqələndirəcəyini və alternativ enerji marşrutlarının xəritəyə gətirilməsinə töhfə verəcəyini bildirərək deyib:

– Azərbaycan şirkətləri və ehtiyatları Cənubi Avropa ölkələri üçün yeni bir mənzərə yaradacaqdır. Eyni zamanda Albaniya mühüm enerji layihəsi şəbəkəsinin tərkib hissəsi olacaqdır. Mən hesab edirəm ki, TAP yalnız imkan və fürsətlər demək deyildir. Eyni zamanda böyük məsuliyyət deməkdir. Bizim hökumətlərimiz zəruri, maddi və insani kapital yönəldəcəkdir ki, bu layihə uğurlu nəticələrini versin. Biz təminat veririk ki, Albaniya və Cənub-Şərqi Avropa ilə bağlı bütün öhdəliklər yerinə yetiriləcəkdir.

Həm sizin, həm də Türkiyə kimi strateji tərəfdaşımızın dəstəyi nəticəsində Albaniya, Xorvatiya, Monteneqro və digər Balkan ölkələri inkişaf edəcəkdir. Azərbaycanın xüsusi dəstəyi və əməkdaşlığı nəticəsində mənim ölkəm qazlaşdırmaya müvəffəq olacaqdır.

**Bolqarıstanın Baş naziri Plamen Oreşarski** bu layihənin ölkəsi üçün də yeni imkanlar açdığını vurğulayaraq bildirib:

– Əvvəlcə cənab Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm ki, məni bu tədbirə dəvət edib. Bu mərasim “Cənub Qaz Dəhlizi”nin başlanmasıdır, mənim ölkəm üçün də yeni imkanlar deməkdir. TAP Bolqarıstan ərazisindən keçəcəkdir və bu bizə qazın əlavə həcmlərini təmin edəcəkdir. Bu işdə sizə uğurlar arzulayıram. Cənab Prezident, ölkəmə olan diqqətinizə görə təşəkkür edirəm.

“Şahdəniz-2” layihəsinin ölkələrimizin həyatında əhəmiyyətli rol oynayacağını bildirən **Gürcüstanın Baş naziri İrakli Qaribaşvili** vahid enerji siyasətində uğur əldə edilməsində “Cənub Qaz Dəhlizi” layihəsinin önəmindən danışaraq bildirib:

– Azərbaycan regionumuzun və Avropa İttifaqı ölkələrinin enerji ehtiyaclarının təmin edilməsində mühüm ölkəyə çevrilməkdədir. Eyni zamanda Gürcüstanın coğrafi mövqeyi Cənubi Qafqazda nəqliyyat qovşağı rolunu oynamağa imkan verir və Türkiyə ilə birlikdə Avropanı Xəzər dənizi regionu ilə birləşdirən ən qısa tranzit marşrutu təklif edir. Əminəm ki, bu, uzunmüddətli və dayanıqlı çoxtərəfli əməkdaşlığımızın yalnız başlanğıcıdır. Növbəti addımlar Trans-Xəzər layihələrinin inkişafına və Xəzər hövzəsinin digər dövlətləri ilə danışıqların intensivləşdirilməsinə yönəldiləcəkdir. Son irəliləyişlər və ötən 20 il ərzində toplanmış birgə təcrübəmiz səmərəli əməkdaşlıq və nəqliyyat marşrutlarının mənbələrinin, təchizatçıların şaxələndirilməsi üçün zəruri şəraitin yaradılmasının nə dərəcədə əhəmiyyətli olduğunu aydın göstərir.

Cənab Prezident, Sizi bu tarixi gün – vahid enerji siyasəti, inkişaf və uğurun əldə edilməsində həlledici rol oynayan “Cənub Qaz Dəhlizi” layihəsinin icrasına başlanılması münasibətilə təbrik edirəm.

**Xorvatiyanın Baş naziri Zoran Milanoviç** bu layihə ilə Azərbaycanın tarixində yeni mərhələnin başlandığını, “Şahdəniz-2” layihəsinin ölkəsi üçün də xüsusi əhəmiyyət kəsb etdiyini deyib. O, layihə çərçivəsində yeni iş yerlərinin açılacağına, əməkdaşlıq əlaqələrinin genişlənəcəyinə əminliyini ifadə edib:

– Mən 20 il bundan əvvəl Azərbaycanda olmuşam. Bu mənim ikinci səfərimdir. Mən gördüklərimə valeh olmuşam. Bu gün Azərbaycanın yeni bir tarixi mərhələsidir. Bu, sadəcə olaraq, bir gündür. Bundan əvvəl isə uzun illər sıx əməkdaşlıq həyata keçirilmiş, gərgin işlər görülmüşdür. Siz sadə əməkdaşlıq yolu seçməmisiniz. Bu tədbirdən əvvəl uzun illər planlaşdırma həyata keçirilmişdir. Sizin ölkəniz siyasi və təhlükəsizlik baxımından çox təmkinli olmuşdur.

Xorvatiya bu layihənin, demək olar ki, ən sonunda yerləşir. Biz Aralıq dənizində limanlara sahibik. Eyni zamanda biz də enerji təchizatımızı şaxələndirmək niyyətindəyik. Bizim bir sıra planlarımız vardır. Bu layihə bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan mən bunun icrasını səbirsizliklə gözləyirəm. Bu yalnız enerji təhlükəsizliyi demək deyil, bu, əməkdaşlıq deməkdir. Bu, ölkələri bir araya gətirmək, yeni iş yerləri, yeni sərmayələr deməkdir. Ümid edirəm ki, növbəti dəfə Azərbaycana 20 ildən sonra yox, daha tez gələcəyəm. Amma bu gün gördüyüm məni həqiqətən də təsirləndirdi, valeh etdi. Diqqətinizə görə təşəkkür edirəm.

**Monteneqronun Prezidenti Filip Vuyanoviç** deyib ki, bu layihəyə qoşulmaqla Monteneqro özünün uzunmüddətli enerji sabitliyini təmin edəcəkdir. Prezident İlham Əliyevə ölkələrimiz arasında əlaqələrin inkişafına göstərdiyi diqqətə görə təşəkkürünü bildirən Filip Vuyanoviç bildirib:

[redacted]

6 milyard kubmetr qazla yanaşı, əlavə 10 milyard kubmetr qazın Avropaya nəqli bizim yeganə təchizatçı və ya bir tranzit sistemindən asılılığımızı azaldacaqdır. Qarşıdan gələn illərdə "Cənub Qaz Dəhlizi"nin Yaxın Şərqdə nəhəng qaz təchizatçılarını əhatə edərək genişlənmə potensialı vardır. Bu isə öz növbəsində Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə ola bilər.

İkincisi, Avropanın qaz bazarında rəqabət artacaqdır. Bu isə enerjinin qiymətini daha münasib edəcəkdir. Bundan əlavə, Avropa İttifaqının qaz bazarı o qədər əlaqəlidir ki, bilavasitə Azərbaycandan qaz alan ölkələrdən savayı, digər dövlətlər də bunun bəhrəsini görəcək. Üçüncüsü, "Cənub Qaz Dəhlizi" bizim iqlim dəyişikliyi ilə bağlı qarşıya qoyduğumuz məqsədləri dəstəkləyəcəkdir. Yenilənən enerjiyə yönəlmiş sərmayələrin fonunda qaz bizə ən sadə və etibarlı enerji təmin edəcəkdir. Həm də qaz ekoloji baxımdan kömürdən təmizdir. Hazırda bir sıra Avropa dövlətlərinin hökumətləri üçün enerji təhlükəsizliyinin təmin edilməsi qlobal iqlim dəyişikliyi ilə mübarizədən daha ön sırada durur. Lakin enerji təhlükəsizliyimizi gücləndirməklə "Cənub" dəhlizi bizə zəhərli tullantıların azaldılmasına diqqəti yönəltməyə imkan verəcəkdir.

Nəhayət, "Cənub" dəhlizinin işlənilməsi 2000 mil uzunluğunda marşrut boyu dövlətlərə mənfəət gətirəcək və tikinti mərhələsində 30 mindən artıq yeni iş yeri yaradacaqdır. İnşası başa çatdıqdan sonra boru kəmərləri Azərbaycan üçün Avropa bazarına uzunmüddətli çıxış təmin edəcəkdir. Bu çox böyük nailiyyət olacaqdır. Mən fərəhlənirəm ki, BP başda olmaqla Britaniya şirkətləri layihəyə öz töhfəsini vermişdir və bu iş bundan sonra da davam edəcəkdir. Azərbaycanın neft və qaz ehtiyatlarının işlənilməsində Böyük Britaniya iyirmi ilə yaxındır ki, aparıcı rol oynayır. Bu isə birbaşa xarici sərmayələrin yarısından çoxunu təşkil edir və hazırkı qərarla böyük həcmdə əlavə sərmayələr cəlb olunacaqdır. Maliyyə vəsaitləri ilə yanaşı, BP və digər Britaniya şirkətləri zəngin təcrübələrini cəlb edərək Azərbaycan hökuməti, şirkətləri və xalqı ilə çiyin-çiyinə çalışaraq bu layihəni reallığa çevirəcəkdir. Məhz bu səbəbdən bu qərar istər neft və qaz, istərsə də digər sahələr üzrə Azərbaycan-Böyük Britaniya əlaqələrinin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Bu gün Azərbaycanda Böyük Britaniyanın 300-dən çox şirkəti fəaliyyət göstərir. Biz bundan sonra da iki ölkə arasında güclü ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi imkanlarını araşdırmalıyıq. Hökumətlərimiz BMT Təhlükəsizlik Şurasında bir sıra məsələlər üzrə mühüm əməkdaşlıq etmişdir. Britaniyada təhsil alan çoxsaylı azərbaycanlı tələbələr Bakıda uğurla fəaliyyət göstərirlər. "British Council" və Azərbaycanda yaşayan 3000-dən artıq britaniyalı ölkələrimiz arasında güclü təmaslar qurur. Bir sözlə, bugünkü tədbirin əhəmiyyəti ölkələrimiz arasında ikitərəfli münasibətlərdən tutmuş enerji təhlükəsizliyinə qədər bir sıra sahələrdə hiss olunacaqdır. Bununla biz yeni iş yerlərinin yaradılması, iqtisadiyyatımızın rəqabət qabiliyyətinin artırılması və qlobal iqlim dəyişikliyi ilə mübarizədə səylərimizi dəstəkləyəcəyik.

Dünyanın ən iri enerji layihələrindən biri artıq reallığa çevrilməyə başlamışdır. Biz Avropanın enerji marşrutlarının xəritəsini başa çatdırırıq və mən mühüm nailiyyətin əldə edilməsində əməyi olan bütün tərəfləri təbrik edirəm.

**İtaliyanın xarici işlər naziri xanım Emma Bonino** "Cənub Qaz Dəhlizi"nin yaradılmasına başlanmasının böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb və bunun uzunmüddətli məqsədyönlü əməkdaşlıq nəticəsində baş tutduğunu söyləyib. TAP layihəsinin İtaliya, həmçinin digər Avropa İttifaqı ölkələri, eləcə də Balkan regionu dövlətləri üçün taleyüklü məsələ olduğunu vurğuladı:

– Xüsusi qeyd etmək istərdim ki, Avropa Komissiyası TAP layihəsini birgə maraq kəsb edən layihələr siyahısına daxil etmişdir və bununla da müxtəlif prosedurlar sürətlənəcəkdir. Mühüm zəruri maliyyə vəsaitlərinin ayrılması prosesi daha da sürətlənəcəkdir.

İtaliya enerji təhlükəsizliyi və vacib enerji infrastrukturunun yaradılmasına mühüm töhfə verir. Zənnimcə, bu layihə bizim münasibətlərin çox əhəmiyyətli bir elementidir. Avqustun 11-də cənab Prezident İlham Əliyev və İtaliyanın Baş naziri cənab Enriko Letta arasında imzalanmış Memorandum da bu istiqamətdə çox mühüm bir sənəd olmuşdur. Mən sizi əmin etmək istərdim ki, İtaliya hökuməti də bu işin sürətlə

[redacted]

sahiblərinə bir daha təşəkkür edirəm. Allahdan bu layihənin həm istehsalçı, həm tranzit, həm də istehlakçı ölkələr üçün uğurlu olmasını diləyirəm. Hamınızı sevgi və ehtiramla salamlayıram.

Avropa İttifaqının TAP layihəsini tam dəstəklədiyini, "Şahdəniz-2" layihəsinin yekun investisiya qərarının imzalanmasının səmərəli əməkdaşlıq üçün yeni imkanlar açdığını vurğulayan **Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger** deyib:

– Azərbaycan 2011-ci ildə verdiyi vədinə sadiq qalaraq "Cənub Qaz Dəhlizi"nin icrasına başlayır. Zaman keçdikcə biz görəcəyik ki, bu layihə də digər uzunmüddətli layihələr kimi xüsusi əhəmiyyət kəsb edəcəkdir. Lakin gələcəyin inkişafını təmin edən siyasi təməl bu gün qoyulur. 2011-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu əməkdaşlığımızın parametrlərini müəyyən etmişlər. Burada təmsil olunan şirkətlər isə layihəni kommersiya baxımından dəstəkləyir. Məmnunam ki, biz vədlərimizə sadiq qaldıq. "Cənub Qaz Dəhlizi"nin işlənilməsi hökumətlər və biznes dairələri arasında əməkdaşlığın parlaq nümunəsidir və bu əməkdaşlıq qarşılıqlı faydalıdır.

Avropa İttifaqı və Türkiyə yeni qaz mənbəyinə çıxış əldə edir. Qaz təchizatı şirkətləri tələb olunan sərmayələrin əsaslandırılması üçün müvafiq həcmlərə malikdir.

Buraya qədərki yolumuz heç də asan olmamışdır. Bu işdə qarşılıqlı anlaşma, təmkin və danışıqlar tələb olunmuşdur. Bütün tərəfləri bu işdə təqdir etmək istərdim. "Şahdəniz" və onunla birləşəcək digər kəmərlər Avropa İttifaqında ehtiyac duyulan nəhəng qaz infrastrukturu olacaqdır.

Mən böyük məmnuniyyətlə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu adından "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması münasibətilə layihədəki iştirakçı dövlətləri və şirkətləri təbrik edirəm. Bu uzaqgörən planın memarları ilə birlikdə olmağından fərəhlənirəm.

Yaxın keçmişdə bəziləri bu layihəni mümkünsüz layihə adlandırmışlar. Lakin ilk dəfə deyildir ki, bu regionda mümkünsüz

hesab edilən layihələr tərəfdaşların əməkdaşlığı nəticəsində uğurla başa çatdırılır. Birincisi Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, indi isə “Cənub Qaz Dəhlizi”. Qərar Avropanın qaz mənbələrinin şaxələndirilməsinə xidmət edəcəkdir və Qafqazla Avropa İttifaqı arasında əlaqələri möhkəmləndirəcəkdir. Bu, enerji və sənaye əlaqəsi olmaqla yanaşı, həm də mədəni bağlılıqdır. Şadam ki, bu layihənin Cənub-Şərqi Avropada davam etdirilməsinə dair Azərbaycan Albaniya, Bosniya və Hersoqovina, Xorvatiya və Monteneqro arasında razılıq vardır. Buraya Rumıniya, Macarıstan və Avstriyanı da əlavə etmək olar. Bu onun sübutudur ki, bugünkü tədbir daha böyük layihənin başlanğıcıdır.

Hörmətli cənab Prezident, xanımlar və cənablar. Bu işdə əməyi olanları səmimi-qəlbdən təbrik edirəm. Qapı artıq açılmışdır. Bu marşrut üzrə əməkdaşlığımız davam etməlidir. Hər birinizə uğurlar arzulayıram.

İxrac kəmərlərinin şaxələndirilməsinin vacib əhəmiyyət kəsb etdiyini bildirən **ABŞ-nin enerji nazirinin müşaviri Conatan Elkind** rəsmi Vaşinqtonun Azərbaycanın yerləşdiyi regionun enerji ehtiyatlarının işlənilməsi və digər regionlarla əməkdaşlığın gücləndirilməsinə tərəfdar olduğunu söyləyərək bildirib:

– Bu regionun zəngin enerji ehtiyatları vardır. Bu baxımdan Azərbaycan çox xoşbəxt bir ölkədir. Bu gün SOCAR başda olmaqla müxtəlif şirkətlər bu ehtiyatları dünya bazarlarına çıxarır. Bu ehtiyatlarda marağı olan ölkələrə təbii qazın nəqli çox vacib bir elementdir. Vacibdir ki, istehsalçı və istehlakçı ölkələr arasında əlaqələr güclü olsun və bu baxımdan da mən Vaşinqtondan enerji nazirinin və Obama Administrasiyasının salamlarını çatdırıram.

Cənab Prezident, Sizi əmin etmək istərdim ki, ABŞ Prezidentinin Administrasiyası bizim bacarıqlı səfirimiz Riçard Morninqstar vasitəsilə Azərbaycanı dəstəkləyəcəkdir və Sizin ölkənizi və regionda olan tərəfdaşlarınızı dəstəkləməyə hazırdır. Təşəkkür edirəm.

[redacted]

zavodunda tikilməsi planlaşdırılır. Bunlar, əlbəttə ki, ölkəmiz üçün yeni texnologiyalar, yeni biliklər, yeni potensial deməkdir. Ən mühümü isə “Şahdəniz-2” və Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihələri Azərbaycanda işçi qüvvəsi üçün təxminən on mindən artıq yeni iş yerinin açılmasına səbəb olacaqdır.

TANAP və TAP layihələrinin inşası prosesində Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya və digər ölkələrdə də minlərlə yeni iş yeri açılacaq, həmin ölkələrin iqtisadiyyatlarına müsbət təsir göstərəcəkdir.

Beləliklə, “Cənub Qaz Dəhlizi”nin açılmasına start verilir. Lakin bu dəhlizlə bağlı planlarımız “Şahdəniz-2” yatağından hasil olunacaq qazın nəql edilməsi ilə kifayətlənməyəcəkdir. Bu həmin zəncirin yalnız birinci halqası olacaqdır.

Azərbaycanın qaz potensialı zəngindir. Bizim 2,5 trilyon kubmetrdən artıq təsdiqlənmiş qaz ehtiyatımız vardır. Əgər mövcud imkanları nəzərə alsaq, “ikinci qaz dalğası”nı bu gün də aydın görə bilərik. Strategiyamız son illərdə kəşf edilmiş yataqların, habelə ölkəmizin qaz potensialını daha da artıracaq bir neçə kəşfiyyat layihəsinin işlənilməsini nəzərdə tutur. Bugünkü tərəfdaşlıq münasibətlərimiz digər bazarlara da Azərbaycanın işlənilməkdə olan böyük qaz ehtiyatları ilə asanlıqla əlaqə yaratmaq üçün nadir imkanlar vəd edir.

“Mərhələ-2” çərçivəsində işlənilməsi planlaşdırılan “Şahdəniz”in əlavə ehtiyatlarından, bu yaxınlarda Xəzərdə kəşf edilmiş “Abşeron” və “Ümid” yataqlarının, “Azəri-Çıraq-Günəşli” yataqlar blokundakı dərin qaz ehtiyatlarının, olduqca perspektivli “Şəfəq-Asiman”, “Babək”, “Zəfər-Məşəl” və başqa strukturların potensialından tam istifadə ediləcəkdir.

Çıxışımı Ümummilli liderimiz Heydər Əliyevin hələ 1997-ci ildə “Şahdəniz” yatağı üzrə müqavilə layihəsinin İdarəetmə Komitəsi üzvləri ilə görüşündə söylədiyi sözlərlə tamamlamaq istəyirəm: ““Şahdəniz” yatağında gördüyümüz işlər və əldə etdiyimiz nəticələr bizə bundan da dərin yerlərdə, bundan da mürəkkəb işlər görməyə imkan yaradacaqdır”. Bugünkü mərasim o vaxt deyilmiş bu sözlərin həqiqətə çevrildiyini bir daha sübut edir. Diqqətinizə görə çox sağ olun.

Əlamətdar hadisə münasibətilə təbriklərini çatdıran **BP şirkətinin baş icraçı direktoru Robert Dadli** "Şahdəniz-2" layihəsinin BP və SOCAR üçün də mühüm əhəmiyyət kəsb etdiyini bildirərək deyib:

– Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Cənub Qaz Dəhlizi" Avropanın enerji xəritəsini dəyişdirəcəkdir. Region ölkələri üçün də gələcək dəyişəcəkdir. Mən bununla tamamilə razıyam.

**Robert Dadli** artıq Azərbaycanın Avropanın enerji təhlükəsizliyində ən vacib ölkələrdən birinə çevrildiyini xüsusi vurğulayaraq bildirib:

– XXI əsrdə Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən bir ölkəyə çevrilmişdir. Bu, birbaşa xarici sərmayə baxımından ən böyük layihə olacaqdır. Bu, Azərbaycanda əlavə 10 min iş yerinin açılması deməkdir. Qürurverici haldır ki, bütün zəruri infrastruktur Azərbaycanda inşa ediləcəkdir. BP isə öz növbəsində Azərbaycanın enerji və hasilat bacarığının artırılmasına öz töhfəsini verəcəkdir. Azərbaycandan kənarda daha 20 min yeni iş yeri açılacaqdır.

Mən cənab Prezident İlham Əliyevə xüsusi minnətdarlığımı bildirirəm və burada iştirak edən digər liderlərə təşəkkür edirəm ki, bu layihənin uğurla həyata keçirilməsinə öz töhfələrini vermişlər. Bu layihə şirkətlər üçün də xüsusi əhəmiyyət kəsb edir. SOCAR, "Statoil", "Total", "LUKoil", NIKO, TPAO, BOTAŞ, "Axpo", "Fluxys", E.ON və BP – bunlar böyük bir qrupdur. Zənnimcə, bu layihə yalnız birgə səylər nəticəsində mümkün olmuşdur.

Biz dünyada olan bütün tərəfdaşlarımızın təcrübəsindən bəhrələnmişik və buna görə də təşəkkürümü bildirirəm. Bu, səhmdarlar üçün də çox mühüm gündür. Bu o deməkdir ki, növbəti 25 il ərzində dəyəri yüz milyardlarla ölçülən sənədlər imzalanacaqdır. Bu sənədlərin bəhrəsi qarşıdan gələn bir çox illərdə hiss olunacaqdır.

Cənab Prezident, qeyd etmək istərdim ki, "Şahdəniz" konsorsiumu SOCAR ilə anlaşma əldə edib və öz payımızı artırırıq. Bu heç də son deyildir. Eyni zamanda hasilatın pay bölgüsü müqaviləsini də 2048-ci ilə qədər uzatmışıq. Bu sahədə

işlərimiz davam edəcəkdir. Bununla da “Şahdəniz” layihəsi XXI əsrin ikinci yarısında da qaz ehtiyaclarını təmin edəcəkdir. Bu bizim sənayemiz üçün də çox mühüm bir hadisədir. Bu təkcə nəhəng bir layihə deyildir. Bu, misilsiz bir layihədir. Ona görə ki bu bizim sənayedə tətbiq edilən ən son texnologiyaların ilk dəfə istifadə edilməsi olacaqdır. Bununla da çıxışımı bitirərək qeyd etmək istərdim ki, BP bu layihədə iştirakından fərəhlənir. Bir çox insanların əməyi nəticəsində ərsəyə gəlmiş bu layihənin uğurla başa çatacağına ümid edirəm. Cənab Prezident, şəxsi dəstəyinizə görə təşəkkür edirəm. Bizim komandamız qarşıdan gələn illərdə Sizinlə sıx əməkdaşlığa ümid edir.

Sonra sənədlərin imzalanması mərasimi keçirilib. Əvvəlcə Azərbaycan, Albaniya, Xorvatiya və Monteneqro arasında əməkdaşlıq, “Cənub Qaz Dəhlizi” layihəsi və Cənub-Şərqi Avropa dəhlizi Anlaşma Memorandumunu Azərbaycanın energetika naziri Natiq Əliyev, Albaniyanın energetika və sənaye naziri Damian Gjiknuri, Xorvatiyanın iqtisadiyyat naziri İvan Vrdolyak və Monteneqronun iqtisadiyyat naziri Vladimir Kavariç imzalayıblar.

Sonra “Şahdəniz” layihəsinin ikinci mərhələsi və Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi üzrə yekun investisiya sazişi imzalanıb. Sənədi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və “Şahdəniz” üzrə hasilatın pay bölgüsü sazişi əməliyyatçısının prezidenti Qordon Birrell imzalayıblar.[19]

## “Mərhələ-2” üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yolasalma mərasimi

“Şahdəniz” üzrə “Mərhələ-2” üçün inşa olunan iki platformadan birinin – yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin “Azfen” birgə müəssisəsinin Bibiheybət tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki “Şahdəniz” müqavilə sahəsinə yolasalma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.




1 iyun 2017-ci il, Bakı, Bibiheybət tikinti-quraşdırma sahəsi

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qari Counz əvvəlcə dövlətimizin başçısına "Mərhələ-2" və "Cənub Qaz Dəhlizi" layihələri ilə bağlı görülən işlər barədə məlumat veriblər.

"Şahdəniz-2", "Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi", TANAP və TAP layihələrinin daxil olduğu "Cənub Qaz Dəhlizi" dünyanın ən böyük enerji layihələrindən biridir. Bu dəhliz ilk dəfə olaraq Xəzərdəki ehtiyatları birbaşa Avropanın qaz bazarları ilə bağlayacaq. Bu nəhəng layihənin BP-nin operatorluğu ilə həyata keçirilən hissələri – "Mərhələ-2" və "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi" layihələri tamamlanmaq üzrədir və ilk qazın gələn ilə planlaşdırılan nəqli üçün qrafikə uyğun davam edir.

Hazırda təchizat-tədarük, mühəndis-layihələndirmə və tikinti işləri də daxil olmaqla ümumilikdə bu layihələrin 92 faizdən çox hissəsi tamamlanıb, ümumi dəyəri 13 milyard dollar həcmində olan iri müqavilələr imzalanıb.

"Şahdəniz" üzrə "Mərhələ-2" və "Cənub Qaz Dəhlizi" layihələri üzrə indiyədək iştirakçı ölkələrdə 40 min yeni iş yeri açılıb. "Şahdəniz" yatağı üzrə hesablanmış bütün ilkin geoloji qaz

ehtiyatı təxminən 1 trilyon kubmetrdən çoxdur. "Şahdəniz" üzrə "Mərhələ-1" çərçivəsində illik hasilat 10 milyard kubmetr qaz və təxminən gündə 50 min barel kondensat təşkil edir. "Mərhələ-1" üzrə hasil olunan qaz Azərbaycana, Gürcüstana və Türkiyəyə nəql edilir. "Mərhələ-2" çərçivəsində əsas diqqət ildə 16 milyard kubmetr qaz və gündə 120 min barelədək kondensat əlavə etməklə hazırda istismar olunan lay intervallarında qalan ehtiyatlara yönəlib. Bu layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə, 10 milyard kubmetr qaz isə Avropa alıcılarına çatdırılacaq.

"Mərhələ-2" layihəsi çərçivəsində Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliyadakı milyonlarla istehlakçıya ildə 16 milyard kubmetr qaz nəql edilməsi nəzərdə tutulur. İlk qazın nəqli Gürcüstan və Türkiyəyə gələn il, Avropaya isə 2020-ci ildə gözlənilir. "Şahdəniz" üzrə hasilatın pay bölgüsü haqqında sazişin 2036-cı ildən 2048-ci ilədək uzadılması "Şahdəniz" yatağının dərin qatlarındakı ehtiyatların gələcəkdə mümkün işlənilməsi üçün yol açır. Azərbaycan və Gürcüstan ərazilərində boru kəməri marşrutu boyunca "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi" layihəsinin tikinti işləri qrafikə uyğun davam edir. Ümumilikdə tikinti işlərinin və istismaravermə sınaqlarının 89 faizi artıq tamamlanıb. Boru kəmərinin hidrosınaq işləri həm Azərbaycanda, həm də Gürcüstanda davam edir.

Onu da deyək ki, ilk dəfə olaraq "Şahdəniz-2" platformalarının tikintisi 100 faiz ölkə daxilində həyata keçirilir. Bu tikililərin ümumi çəkisi 29 200 ton təşkil edir və onlar 16 500 boru qovşağından, 881 kilometr kabel xəttindən ibarətdir. Üst tikililərin quraşdırma işləri üç il ərzində tamamlanıb və son dərəcədə yüksək texniki təhlükəsizlik göstəriciləri ilə həyata keçirilib.

Prezident İlham Əliyevə məlumat verilib ki, dənizə yola salınacaq yaşayış blokları və texnoloji təchizat platformasının üst modullarının tikintisi nəzərdə tutulan qrafikdən tez yekunlaşıb. Üst tikililərin quraşdırılması tamamlandıqdan sonra STB-1 barjına yüklənərək dənizə yola salınmağa hazırlıq məqsədilə 2017-ci il mayın 8-də tikinti-quraşdırma sahəsinin yanalma körpüsündəki yükləmə çərçivəsinə qaldırılıb. Yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin vahid bir konstruksiya kimi daşınması, sürüşdürmə üsulu ilə dayaq blokunun üzərinə yerləşdirilməsi və quraşdırılması işləri diqqətlə planlaşdırılıb və bu işlərin beş gün ərzində yekunlaşması nəzərdə tutulur.

Üst tikililər artıq öz yerində – suyun 94 metr dərinliyində olan dayaq blokunun üzərinə quraşdırılacaq. Üst tikililərinin çəkisi təxminən 12 400 ton təşkil edir. Obyektin uzunluğu 100, eni isə 60 metrdir. Bu konstruksiya 100 nəfərlik yaşayış blokundan, ümumi gücü 60 MVt olan dörd əsas elektrik generatorundan ibarətdir. Platformanın yaşayış blokunda işçilərin istirahəti üçün otaqlar, ofis otaqları, idman zalı yaradılıb. Burada neftçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün hərtərəfli şərait var.

AMEK-"Tekfen"-"Azfen" konsorsiumu tərəfindən inşa edilən yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililəri "Azfen" tikinti-quraşdırma sahəsində yerli infrastrukturdan və obyektlərdən istifadə edilməklə bütövlüklə ölkə daxilində tikilib. Bu konstruksiyanın tikinti işlərinə 5000 nəfərdən çox işçi cəlb edilib. İşçi qüvvəsinin təxminən 90 faizi Azərbaycan vətəndaşları olub. Birinci platformanın üst tikililərinin dənizə yola salınması nəhəng "Şahdəniz-2" layihəsinin uğurla, təhlükəsiz, büdcədən xeyli az vəsait xərcləməklə və qrafikə uyğun başa çatdırılması istiqamətində mühüm bir hadisədir. Xəzərdə ən böyük və ən müasir konstruksiyalardan biri olan bu üst tikililər çox yüksək texniki təhlükəsizlik göstəriciləri ilə inşa edilib. Prezident İlham Əliyev platforma ilə tanış olub.

Bu gün dünyada bir çox ölkələrdə dərin iqtisadi böhran yaşanır. Ölkələrin gəlirləri azalır, iqtisadi vəziyyətləri çətinləşir. Belə bir vaxtda Azərbaycan qlobal əhəmiyyətli mühüm layihələrə imza atır. Bu, dövlətimizin başçısının rəhbərliyi ilə yürüdülən siyasətin məntiqi nəticəsidir. Azərbaycanın müasir dövrdə belə qlobal və tarixi layihələri icra etməsi ölkəmizin gəlirlərinin artmasına, xalqın sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Bu layihənin həyata keçirilməsi bir daha sübut edir ki, ölkəmizdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi, nəticədə iqtisadi potensialımızın daha da güclənməsi, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, "qara qızıl"dan əldə olunan gəlirlərin insan kapitalına çevrilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsasını təşkil edir.

Sonra Prezident İlham Əliyev layihənin işçi heyəti ilə görüşüb. Dövlət başçısı görüşdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı:

– Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bu gün tarixdə qalacaq. Çünki biz bu gün "Şahdəniz" platformasının üst hissələrini rəsmi qaydada açıq elan edirik. Bir neçə gündən sonra bu nəhəng qurğular dənizə göndəriləcək və "Şahdəniz" yatağında quraşdırılacaq. Bu, böyük tarixi hadisədir. Çox sevindirici haldır ki, bu nəhəng qurğular yüz faiz Azərbaycanda inşa edilibdir. Bir neçə il bundan əvvəl, xüsusilə "Şahdəniz" yatağı üzrə kontrakt imzalananda bunu təsəvvür etmək belə mümkün deyildi.

Onu da qeyd etmək istəyirəm ki, "Şahdəniz" üzrə kontrakt 21 il bundan əvvəl iyun ayında Xəzər neft və qaz sərgisi zamanı imzalanmışdır. Artıq 21 ildən sonra biz bax bu tarixi günü qeyd edirik. Bütün bu qurğular Azərbaycanda inşa edilib. Mənə verilən məlumata görə, bu qurğuların inşasında çalışanların əksəriyyəti – 90 faizi Azərbaycan vətəndaşları olub. Yəni bu illər ərzində gözəl kadr potensialı yetişib və bu, əlbəttə, ölkəmizin enerji potensialını, iqtisadi potensialını gücləndirəcək. Çünki təkcə "Şahdəniz-2" layihəsi çərçivəsində əlavə 16 milyard kubmetr qaz, eyni zamanda kifayət qədər kondensat hasil ediləcəkdir. Hasil ediləcək bütün bu təbii resurslarla bağlı kontraktlar imzalanıb, onların müştəriləri var və inşa edilən "Cənub Qaz Dəhlizi" vasitəsilə dünya bazarlarına çıxarılacaq.

İcra olunan layihələrin hər biri ayrılıqda tarixi hadisədir: TANAP, TAP, "Cənub Qaz Dəhlizi", "Şahdəniz-2" layihəsi, bu platformaların tikintisi, bu yaxınlarda Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışı. Bir daha qeyd edirəm ki, bunların hər biri ayrılıqda tarixi layihədir. Amma bunlara birlikdə baxanda görürük ki, Azərbaycanda nə qədər böyük potensial yaranıbdır.

Sonra çıxışını ingilis dilində davam etdirən **Azərbaycan Prezidenti İlham Əliyev** deyib:

– Bu, həqiqətən də, tarixi gündür. "Şahdəniz" müqaviləsinin imzalanmasından 21 il sonra indi biz tarixi əhəmiyyət kəsb edən

günü qeyd edirik. Bu gün mən ilk növbədə strateji tərəfdaşımız, uzun illərdir Azərbaycanın yaxşı dostu olan BP-yə təşəkkürümü bildirmək istərdim. 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanması bizim əməkdaşlığımızın başlanğıcı oldu. Həmin vaxtdan bizimlə birgə çalışmış və çalışmaqda davam edən bir çox şirkətlər var. Sizə xatırlatmaq və məlumat vermək üçün demək istərdim ki, həmin vaxt Azərbaycan xarici neft şirkətlərindən ibarət konsorsiumla “Azəri-Çıraq-Günəşli” müqaviləsini imzaladı və BP, sadəcə olaraq, onlardan biri idi. O, böyük hissəyə malik idi və böyük tərəfdaşlıq var idi ki, bu gün də bu, müəyyən dəyişikliklərlə davam edir.

BP ilə xüsusi münasibətlər o vaxtdan həmin şirkətin Azərbaycanın enerji bazarında, qlobal enerji bazarında fəal oyunçu olması faktına əsaslanır. O vaxtdan indiyədək tərəfdaşlığımızı strateji tərəfdaşlığa çevirən bir çox başqa müqavilələr imzalanıb. Onlardan biri “Şahdəniz”dir. Növbədə “Dayaz sular” və başqaları var. Bu, tərəfdaşlığın yaxşı göstəricisidir. Biz BP-yə etimad göstəririk. Əminəm ki, BP də Azərbaycana etimad göstərir. Əks halda, onlar ölkəmizə bu qədər çox vəsait yatırmazdılar. Cənab Counzun dünən və bu gün qeyd etdiyi kimi, BP-nin fəaliyyət sferasında Azərbaycan bir nömrəli investisiya məkanıdır. Bu isə bizim əməkdaşlığımızı daha da gücləndirir. Dünən qeyd etdiyim kimi, hazırda onlar “Azəri-Çıraq-Günəşli” müqaviləsinin genişləndirilməsi üzərində işləyirlər. Ümidvaram ki, bu, tezliklə olacaq. Bundan əlavə, təkcə “Azəri-Çıraq-Günəşli”də bizim tərəfdaşlığımız 2050-ci ilədək davam edəcək. Əminəm ki, “Şahdəniz”dən nəzərdə tutulandan daha çox qaz istehsal ediləcək. Biz “Azəri-Çırağ”ı “Əsrin müqaviləsi” adlandırmışdıq, indi isə mən əsrlərin müqaviləsindən danışıram.

Mən həmçinin Azərbaycana yatırılan investisiyalara və uğurlu fəaliyyətə görə bütün tərəfdaşlarımıza, “Şahdəniz” tərəfdaşlarına və bu nadir qurğunu tikən şirkətlərə bir daha təşəkkürümü bildirmək istərdim. Azərbaycanda fəaliyyət göstərən beynəlxalq komanda ölkəmizin inkişafına kömək edir. Düşünürəm ki, ev sahibi olan ölkə yerli şirkət SOCAR ilə əcnəbi investorlar arasında nadir əməkdaşlıq mühiti yaradır. Bir daha sizi təbrik edirəm. Qarşıdakı illərdə sizə uğurlar arzulayıram.

Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qari Counz "Şahdəniz" üzrə Mərhələ-2" üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yola salınmasını bildirən düyməni basıblar.

## "Şahdəniz-2" layihəsi çərçivəsində Türkiyəyə qaz nəqli

"Şahdəniz" konsorsiumu – BP (operator), SOCAR, TPAO, "Petronas", "LUKoil", NİCO və SGC 2018-ci il iyunun 30-da "Şahdəniz-2" layihəsi çərçivəsində Türkiyəyə kommersiya qaz həcmlərinin nəqlinin başlandığını elan edib.

"Şahdəniz-2" layihəsi təhlükəsiz qaydada, qrafikə uyğun və büdcə daxilində həyata keçirilir və Türkiyəyə qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi 2018-ci il iyunun 30-da başlayıb. "Şahdəniz-2" ilk dəfə olaraq Xəzər qazını Avropa bazarına çıxaracaq yeni "Cənub Qaz Dəhlizi"nin başlanğıc nöqtəsidir. Sabit ən yüksək hasilat zamanı bu layihənin mövcud hasilat həcmlərinə ildə 16 milyard kubmetr qaz əlavə edəcəyi gözlənilir. "Şahdəniz"in ümumi hasilatının isə birinci mərhələ də daxil olmaqla ildə 26 milyard kubmetr qaz və gündəlik 120 000 barel kondensat həcminə çatdırılacağı gözlənilir.

Azərbaycanın "Şahdəniz-2" layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənilməsi texnologiyası tətbiq olunur və bu da BP şirkətinin bu vaxtadək operatoru olduğu ən iri sualtı infrasrukturdur.

Təxminən 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə ümumilikdə planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 km uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Bakı yaxınlığında yerləşən Səngəçal terminalındakı əsaslı genişləndirmə işlərindən və Azərbaycan ərazisində 428 km uzunluğunda yeni boru kəmərini, Gürcüstan ərazisində 59 km uzunluğunda yeni boru kəmərini və iki yeni kompressor stansiyasını əhatə edən Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsindən ibarətdir.

SOCAR prezidenti Rövnəq Abdullayev deyib:

– TANAP vasitəsilə kommersiya məqsədli qazın nəqli "Cənub Qaz Dəhlizi"nin reallaşmasında mühüm tarixi hadisədir. Bu meqalayihənin mürəkkəbliyinə baxmayaraq, biz eyni vaxtda Azərbaycanda, Gürcüstanda və Türkiyədə "Cənub Qaz Dəhlizi"nin seqmentlərinin əlaqələndirilməsinə və istismara verilməsinə nail olduq. Bu işləri qrafikə uyğun və əvvəl gözlədiyimizdən daha aşağı xərclə reallaşdıra bildik. "Şahdəniz-2" üçün platformalar və strukturlar SOCAR-ın törəmə şirkətləri tərəfindən tikilib və bütün tikinti işləri Azərbaycanda aparılıb ki, bu da Azərbaycan və region üçün böyük bir nailiyyətdir.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Counz bunları söyləyib:

– Türkiyəyə ilk kommersiya qazının 2018-ci ildə nəql edilməsi bu iri layihənin başlanğıcında vəd etdiyimiz mühüm hədəfdir. Regionun hökumətləri və "Şahdəniz" konsorsiumundakı tərəfdaşlarımızla birlikdə işləyərək biz bu hədəfi təhlükəsiz şəkildə, qrafikə uyğun və büdcə daxilində gerçəkləşdirdik. Bu bizim yüksək keyfiyyətli layihələri birgə uğurla həyata keçirmək qabiliyyətimizi nümayiş etdirir. Operator olaraq BP çox məmnundur ki, Azərbaycanda və bütün regionda uzunmüddətli tərəfdaşlığımız bu dünya miqyaslı layihəni uğurla həyata keçirmək və Türkiyədəki istehlakçılar qarşısında öhdəliklərimizi yerinə yetirmək üçün imkan yaradıb. Ümid edirik ki, biz bu müstəsna nailiyyətimizin davamı olaraq növbəti hədəfimizə – 2020-ci ildə Avropaya qaz nəqlinə nail olmaq üçün Azərbaycan hökuməti, SOCAR və digər tərəfdaşlarımızla sıx işləyəcəyik.

## "Şahdəniz" müqaviləsindən əldə edilən mənfəət

Hasilatın pay bölgüsü sazişinə müvafiq olaraq, Azərbaycan dövləti "Şahdəniz" layihəsi üzrə mənfəət əldə etmək hüququna malikdir. Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən, hasilatın pay bölgüsü sazişləri üzrə dövlətə çatmalı olan mənfəət Azərbaycan Respublikası Dövlət Neft Fondunda toplanır.

Neft Fondunun illik audit edilmiş hesabatlarına görə, "Şahdəniz" müqaviləsi üzrə ilk mənfəət 2007-ci ildə qeydə alınıb və bu məbləğ 2,4 milyon dollar təşkil edib.

Sonrakı illərdə "Şahdəniz" layihəsi üzrə Neft Fonduna daxilolmalar aşağıdakı cədvəldə verilib:

| İllər | Mənfəət |
|---|---|
| 2007 | 2,4 |
| 2008 | 131,2 |
| 2009 | 80,6 |
| 2010 | 268,3 |
| 2011 | 237,1 |
| 2012 | 365,5 |
| 2013 | 383,8 |
| 2014 | 532,0 |
| 2015 | 322,8 |
| 2016 | 64,0 |
| 2017 | 135,6 |
| 2018 | 245,4 |
| 2019 | 620,5 |
| 2020 | 294,0 |
| 2021 | 884,8 |
| 2022 | 1 442,9 |
| **CƏMİ** | **6 010,9** |

**Mənbə:** AR Dövlət Neft Fondunun illik hesabatları

Yəni dövlətə çatan mənfəət 1 yanvar 2023 tarixinədək 6 milyard 10,9 milyon dollar təşkil edib.

Amma dövlətin qazancı "Şahdəniz" layihəsindən təkcə bu vəsait deyil: konsorsium səhmdarları dövlətə əldə etdikləri mənfəətin 25%-i həcmində vergi də ödəyirlər. İndiyə qədər dövlət büdcəsinə "Şahdəniz" üzrə məcmu vergi ödənişləri ilə bağlı rəsmi açıqlamalar olmayıb, amma 2023-cü ildə bununla bağlı ilk məlumatlar dərc edilməyə başlayıb. Belə ki, Maliyyə Nazirliyi 2023-cü ilin yanvar-iyun aylarının yekunları üzrə dövlət büdcəsinin icrasına dair məlumatlarda "Şahdəniz" layihəsi iştirakçıları tərəfindən dövlət büdcəsinə 2 milyard 630,4 milyon manat mənfəət vergisi ödənildiyi göstərilib.

Azərbaycan Dövlət Neft Şirkəti də "Şahdəniz" layihəsi çərçivəsində ona çatan mənfəətlərini hələlik açıqlamayıb. Bu baxımdan dövlətin və dövlətə məxsus qurumların "Şahdəniz" layihəsindən ümumilikdə əldə etdikləri mənfəətin həcmi haqda məlumatlar tam ictimailəşməyib.[20]

# YEKUN

Beləliklə, Azərbaycanı XXI əsrdə qaz idxalçısı olan ölkədən qaz ixracatçısı olan ölkəyə çevirən, onun indiyə qədərki enerji siyasətinə tam yeni bir ab-hava gətirən, ən azı bir əsr ölkə iqtisadiyyatının strukturunda özünə kifayət qədər yer edən və hələ bundan sonra da edəcək bir sahəni formalaşdırmış "Şahdəniz" layihəsinin ilk mərhələsini bitirmək üzrəyik.

15 ildən artıq bir müddətdə 1 trilyon kubmetrdən çox ehtiyatı olan bu nəhəng qaz yatağının resurslarının hələ heç 1/5-dən də istifadə etməmişik. Çünki 20 il ərzində enerjimizi və vaxtımızı Xəzərdəki yataqların "şahı" hesab edilə biləcək bir xəzinənin daha optimal şəkildə işlənilməsi yollarına sərf etmişik. Ətrafımızdakı enerji ilə zəngin ölkələrlə müqayisələr aparanda görmək olur ki, zəhmətimiz, həqiqətən də, hədər getməyib və indiyə qədər gördüyümüz hazırlıq işləri, bazarlar uğrunda mübarizəmiz və min bir əziyyətlə yaratdığımız çoxşahəli infrastrukturumuz məhz bundan sonrakı dövrdə Azərbaycana dividend gətirməyə başlayacaq. Əsas odur ki, artıq Bakı-Tbilisi-Ərzurumdan başlayan o kiçik cığırı artıq indi "Cənub Qaz Dəhlizi" kimi magistrala çevirə bilmişik. Həmin magistralda daim, stabil şütüyə biləcək resurslarımız da mövcuddur ki, onların da başında "Şahdəniz" yatağı durur.

"Cənub Qaz Dəhlizi"nin Azərbaycan üçün strateji əhəmiyyəti nədir? Əgər o olmasaydı, onda, təbii ki, "Şahdəniz" yatağının dərin qatlarda yerləşən daha böyük resurslarını işlətmək imkanımız olmayacaqdı. Yəni bu resursları bazara çıxarmaq, həmin mavi yanacağı kapitala çevirmək imkanımız olmayacaqdı. Əgər qazanmaq imkanı olmayacaqdısa, onda "Şahdəniz-2", gələcəkdə "Şahdəniz-3", "Abşeron" yatağının növbəti mərhələsindən gözlənilən qaz, "Babək" yatağının qazı üçün də kapital yatıran olmayacaqdı. Görün necə

böyük enerji zənciri, bir-birinə nə qədər sıx bağlı olan layihələrdir ki, biri işə düşdükcə sonradan digərinə də yol açır... Necə ki ən əvvəl hər şey "Azəri-Çıraq-Günəşli" layihəsindən başlamışdı, ona görə də o, "Əsrin müqaviləsi" adına layiqdir.

Həqiqətən, Xəzər dənizini dünyaya məhz Azərbaycan açdı, nəticədə Xəzərin neft və qaz yataqlarına ilk xarici sərmayələr yatırıldı. Çox mürəkkəb siyasi mühitdə reallığa çevrilən Bakı-Supsa neft boru kəməri, "Şahdəniz" yatağındakı fəaliyyət, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri kimi nəhəng, texniki və maliyyə baxımından isə mürəkkəb və çətin infrastruktur layihələrinin uğurla icrası Azərbaycanı dünyaya etibarlı tərəfdaş kimi tanıtdı.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan öhdəliklərinə hörmət edən etibarlı ölkə kimi özünü təsdiqləyib. 1994-cü ildə xarici şirkətlərlə hasilatın pay bölgüsünə dair imzalanmış ilk sazişdən bu günə qədər müqavilələrdə bir söz belə dəyişdirilməyib. Bu isə bizim mövqeyimizin təzahürüdür. Biz öz öhdəliklərimizə hörmət edirik və tərəfdaşlarımızdan da öz öhdəliklərinə hörmət etməyi gözləyirik.

"Cənub Qaz Dəhlizi" nəhəng "Şahdəniz" qaz-kondensat yatağında hasilatı artırmağa imkan yaradıb. Azərbaycan həmin tamamilə yeni müasir infrastrukturdan öz qaz ehtiyatlarının nəqlində istifadə edir. Avropa qitəsində təbii sərvətlərimizlə bağlı fəaliyyətimizin genişləndirilməsi həm bizim özümüz, həm də tərəfdaşlarımız üçün zəruridir. Azərbaycan hasilatın və ixracın artırılmasına nail olub. Nəzərə almaq lazımdır ki, Azərbaycanın qaz potensialı yalnız "Şahdəniz"lə məhdudlaşmır, digər yataqlar da çox perspektivlidir. Bu da enerji təhlükəsizliyinə mühüm töhfə olacaq. O da nəzərə alınmalıdır ki, xüsusən indiki dövrdə Azərbaycanın karbohidrogen ehtiyatlarına olan tələbat heç vaxt olmadığı qədər böyükdür.

Hazırda beynəlxalq əməkdaşlıq məkanına çevrilmiş Xəzər hövzəsi malik olduğu zəngin karbohidrogen ehtiyatları hesabına bir sıra qlobal enerji layihələrinin reallaşdırıldığı mərkəz kimi diqqət çəkir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı xüsusi əhəmiyyət kəsb edir. 2013-cü il dekabr ayının 17-də Bakıda layihə üzrə yekun investisiya qərarının

imzalanması ilə "Şahdəniz" yatağının tammiqyaslı işlənilməsi həlledici mərhələyə qədəm qoydu.

Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, "Şahdəniz-2" enerji layihəsi dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Azərbaycan 29 il əvvəl "Əsrin müqaviləsi"ni imzalamaqla Xəzər dənizini xarici sərmayələrə açmış və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdırsa, "Şahdəniz-2" XXI əsrin ən iri enerji layihələrindən biri sayılır.

# ƏLAVƏLƏR

## Qrafiklər və cədvəllər

**Qrafik 1.** 2022-ci ildə Azərbaycanda əmtəəlik qazın hasilatçıları (milyard kubmetrlə)




**Mənbə:** SOCAR və "BP-Azərbaycan" şirkətinin illik hesabatları əsasında

**Cədvəl 1.** "Şahdəniz-1" layihəsi üzrə hasilat başlayandan bəri yatağa çəkilən xərclər

| İllər | Əməliyyat xərcləri (mln. $) | Kapital xərcləri (mln. $) |
|---|---|---|
| 2007 | 364 | 170 |
| 2008 | 471 | 152 |
| 2009 | 289 | 192 |
| 2010 | 380,7 | 171,2 |
| 2011 | 674,9 | 190,7 |
| 2012 | 1 100 | 263,9 |
| 2013 | 1 700 | 200 |
| 2014 | 3 900 | 400 |
| 2015 | 4 370 | 482 |
| 2016 | 3 700 | 469 |
| 2017 | 2 880 | 451 |
| **Cəmi** | **19 829,6** | **3 141,8** |

**Qeyd:** "BP-Azərbaycan" şirkətinin məlumatına əsasən, 1 yanvar 2023-cü il tarixinədək "Şahdəniz" yatağı üzrə **27 milyard 932 milyon dollar** əsaslı xərcləmələr (Capex), **10 milyard 429 milyon dollar** əməliyyat xərcləmələri (Opex) həyata keçirilib.

**Mənbə:** "BP-Azərbaycan" şirkəti

**Cədvəl 2.** "Şahdəniz-2" layihəsi üzrə hasilat başlayandan bəri yatağa çəkilən xərclər

| İllər | Əməliyyat xərcləri (mln. $) | Kapital xərcləri (mln. $) |
|---|---|---|
| 2018 | 1 140 | 578 |
| 2019 | 1 100 | 544 |
| 2020 | 1 000 | 942 |
| 2021 | 2 000 | 680 |
| 2022* | 2 281 | 463 |

**Mənbə:** SOCAR və "BP-Azərbaycan" şirkətlərinin illik hesabatları; *–Energetika Nazirliyinin illik hesabatı

**Cədvəl 3.** "Şahdəniz" yatağında hasilat göstəriciləri

| İllər | Qaz (mlrd. kubmetr) | Kondensat (mln. barrel) | Kondensat (mln. ton) |
|---|---|---|---|
| 2007 | 3,03 | 7,04 | 0,8 |
| 2008 | 7,12 | 14,95 | 1,78 |
| 2009 | 6,24 | 13,1 | 1,69 |
| 2010 | 6,93 | 14,7 | 1,89 |
| 2011 | 6,67 | 14 | 1,75 |
| 2012 | 7,74 | 16,1 | 2 |
| 2013 | 9,83 | 19,6 | 2,48 |
| 2014 | 9,94 | 18,7 | 2,3 |
| 2015 | 9,93 | 18,3 | 2,25 |
| 2016 | 10,72 | 20,1 | 2,5 |
| 2017 | 10,23 | 19 | 2,4 |
| 2018 | 11,54 | 20,5 | 2,59 |
| 2019 | 16,84 | 28,6 | 3,6 |
| 2020 | 18,14 | 29 | 3,6 |
| 2021 | 22,64 | 34 | 4,2 |
| 2022 | 25,23 | 36 | 4,4 |
| **Cəmi** | **182,77** | **323,69** | **40,23** |

**Mənbə:** "BP-Azərbaycan" şirkəti

**Qrafik 2.** "Şahdəniz-2"nin Azərbaycanın qaz hasilatına təsiri (mlrd. kubmetrlə)




**Mənbə:** "BP-Azərbaycan" şirkəti və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**Qrafik 3.** Azərbaycanın daxili bazarında qaz istehlakı (min kubmetrlə)




**Mənbə:** SOCAR-ın illik təsərrüfat göstəriciləri

**Qrafik 4.** "Şahdəniz"də qaz hasilatının dinamikası (milyard kubmetrlə)




**Mənbə:** SOCAR və "BP-Azərbaycan" şirkətlərinin illik hesabatları

**Qrafik 5.** Azərbaycan qazının ixrac dinamikası (milyard kubmetrlə)




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**Qrafik 6.** Azərbaycan qazının 2022-ci ildə ixrac coğrafiyası




**Mənbə:** AR Energetika Nazirliyi

**Cədvəl 4.** "Şahdəniz-2" layihəsi çərçivəsində imzalanmış müqavilələrin təsnifatı (2013-2015-ci illərdə bağlanmış müqavilələr)

| № | Layihənin imzalanma tarixi | Layihənin podratçısı | Layihənin adı | Layihənin dəyəri |
|---|---|---|---|---|
| 1 | 19.12.2013 | "Tekfen İnşaat ve Tesisat A.S." və "Azfen" BM arasında yaradılmış "Tekfen-Azfen" alyansı | Səngəçal terminalında "Mərhələ-2" üçün yeni qurğuların tikintisi və istismar sınaqlarına dəstək işləri | 998 mln. $ |
| 2 | 19.12.2013 | AMEK-"Tekfen"-"Azfen" (ATA) konsorsium | "Mərhələ-2" üzrə nəzərdə tutulan iki platformanın üst modullarının inşası, barjaya yüklənməsi, eləcə də sözügedən platformaların dənizdə sazlanması və istismara verilməsi | |
| 3 | 28.12.2013 | KBR (BB) | Müfəssəl mühəndis-layihələndirmə, layihənin idarə olunması və təchizat-tədarük işləri üzrə dəstək xidmətlərinin göstərilməsi | 365 mln. $ |
| 4 | 19.03.2014 | "Bechtel International Inc." və "ENKA İnşaat ve Sanayi A.Ş." şirkətlərindən ibarət "Bechtel Enka" birgə müəssisəsi | Gürcüstanda iki 120 meqavatlıq kompressor stansiyasının, təzyiq azaltma və ölçmə qovşağının, eləcə də 16 km-lik giriş yolunun tikintisi | 528 mln. $ |
| 5 | 19.03.2014 | "Chicago Bridge & Iron UK Limited" (CB&I) | CQBKG layihəsi üçün boru kəmərinin və qurğuların mühəndis layihələndirmə işləri və layihə idarəetmə xidmətləri | 174 mln. $ |
| 6 | 19.03.2014 | "Wood Group Kenny Limited" (WGK) | Sualtı qurğuların və boru kəmərlərinin mühəndis layihələndirmə işləri və layihə idarəetmə xidmətlərinin ilkin mərhələsi | 57 mln. $ |
| 7 | 19.03.2014 | "Apply Emtunga" | Dəniz platformasının yaşayış blokunun mühəndis-layihələndirmə, təchizat-tədarük və tikinti işləri | 32 mln. $ |
| 8 | 19.03.2014 | "DrillTec GmbH" | CQBKG layihəsinin beş çay keçidində üfüqi-maili qazma və boru kəmərinin quraşdırılması işləri | 26 mln. $ |
| 9 | 19.03.2014 | "CSM Bessac" | CQBKG layihəsinin iki çay keçidi (biri Azərbaycanda, digəri Gürcüstanda) üçün şaxta və tunelin tikintisi və boru kəmərinin quraşdırılması | 24 mln. $ |

| № | Layihənin imzalanma tarixi | Layihənin podratçısı | Layihənin adı | Layihənin dəyəri |
|---|---|---|---|---|
| 10 | 10.04.2014 | “BOS Shelf LLC”, “Saipem Contracting Netherlands B.V.” və “Star Gulf FZCO” | İki dəniz platforması üçün dayaq bloklarının, boru payaların və sualtı konstruksiyaların tikintisi | 750 mln. $ |
| 11 | 29.04.2014 | “BOS Shelf LLC”, “Saipem Contracting Netherlands B.V.” və “Star Gulf FZCO” | Bu müqavilənin iş həcminə hər iki dəniz platformasının dayaq bloklarının və üst modullarının, sualtı hasilat sistemlərinin və sualtı konstruksiyaların dənizə daşınması və quraşdırılması işləri daxildir. Müqavilə həmçinin 360 kilometrdən artıq sualtı boru kəmərinin inşasını, dalğıc dəstək xidmətlərini və üç quraşdırma gəmisinin: “İsrafil Hüseynov” borudüzmə və “Tofiq İsmayılov” dalğıc gəmilərinin, həmçinin “Azərbaycan” kran barjının modernləşdirilməsini əhatə edir. Bu işlərin 2017-ci ilin sonunadək başa çatdırılacağı gözlənilirdi. | 1,8 mlrd. $ |
| 12 | 01.10.2014 | “Bredero Shaw International B.V” (Niderland) | Sualtı axın xətlərinin örtüklənməsi | 200 mln. $ |
| 13 | 01.10.2014 | “Bredero Shaw International B.V” (Niderland) | İlkin sualtı ixrac xəttinin örtüklənməsi | |
| 14 | 18.11.2014 | “ShawCor Nederland B.V.” (“Bredero”) | Sualtı ixrac boru kəmərlərinin korroziya əleyhinə və ağırlaşdırıcı betonla örtüklənməsi | 226 mln. $ |
| 15 | 18.11.2014 | “ShawCor Nederland B.V.” (“Bredero”) | Bakıdakı boru-örtükləmə müəssisəsi olan “Caspian Pipe Coatings” (CPC) zavodunun modernləşdirilməsi | |
| 16 | 22.06.2015 | “OneSubsea (UK) Ltd.” | Yatağın tammiqyaslı işlənilməsi üçün tələb olunan sualtı fontan armaturlarının və köməkçi vasitələrin təchizatı: 2016-2021-ci illər | 66 mln. $ |
| 17 | 22.06.2015 | “FMC Kongsberg Subsea AS” | Sualtı hasilat sistemi avadanlıqlarının təchizatı. Avadanlıqların təchizatı 2016-cı ildən 2021-ci ilədək mərhələlərlə həyata keçirilib. | 297 mln. $ |

**Mənbə:** “BP-Azərbaycan” şirkətinin rəsmi press-relizləri

**Qrafik 7.** "Şahdəniz" layihəsinin iştirakçıları (01.07.2023 tarixinə)



# İSTİNADLAR


1. А.А.Матвейчук, Ю.В.Евдошенко, Истоки газовой отрасли России. 1811-1945 гг. Исторические очерки, стр. 161
2. А.А.Матвейчук, Ю.В.Евдошенко, Истоки газовой отрасли России. 1811-1945 гг. Исторические очерки, стр. 162
3. “Qaz xidməti işçilərinın sorğu kitabı”, Ə.İsmayılov, T.Cəfərov, səh.12
4. https://www.stat.gov.az/source/balance_fuel/
5. https://www.veteranngs-fund.ru/sobyitiya/vspomnim-vmeste.html.
6. https://armenia.gazprom.ru/about/history/
7. https://riamediabank.ru/media/107964.html
8. https://oilfund.az/fund/press-room/news-archive/860
9. “Turan” informasiya agentliyinin 04.06.99 tarixli bülleteni
10. https://www.bp.com/content/dam/bp/country-sites/az_az/azerbaijan/home/pdfs/legalagreements/psas/sd-psa-aze.pdf
11. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 6-cı kitab. Bakı, “Azərnəşr”, 1998, səh. 212-215
12. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 9-cu kitab. Bakı, “Azərnəşr”, 1998, səh. 11-13
13. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 15-ci kitab. Bakı, “Azərnəşr”, 2005, səh. 60-61
14. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 17-ci kitab. Bakı, “Azərnəşr”, 2006, səh. 97-100
15. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 20-ci kitab. Bakı, “Azərnəşr”, 2007, səh. 206-207
16. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 25-ci kitab. Bakı, “Azərnəşr”, 2008, səh. 130-134
17. Əliyev, Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: 34-cü kitab. Bakı, “Azərnəşr”, 2011, səh. 20-27
18. https://president.az/az/articles/view/20912
19. https://president.az/az/articles/view/10568
20. https://interfax.az/view/895990

# İNDEKS


## A

Abdullayev, Rövnəq 91, 94, 100, 115, 118-9, 124-5
ABŞ 8, 14, 17, 23, 33, 52, 55, 63, 65, 87, 89, 114, 124
Abşeron yarımadası 2-4, 118
Ağcabədi 9
Ağdam 9
Albaniya 98, 102, 105-7, 114, 116, 118, 120
*AMEK-Tekfen-Azfen,* konsorsium 121
*Amoco* 14, 52, 55, 69, 71, 72, 77, 95
*ARDNŞ. Bax: Azərbaycan Dövlət Neft Şirkəti*
Arlet, Gi 25
Aslanbəyli, Bəxtiyar xv
Astara 8
Avropa xi-xix, 89, 94, 97, 100, 104-7, 110-5, 118, 120
Avropa İttifaqı xii, 110, 113
Avstriya 114
*Axpo Trading AG* 101, 117
Azərbaycan *hər səhifədə*
*Azərbaycan Dövlət Neft Şirkəti* 1, 11-23, 32, 35, 40, 42, 46, 50, 52-5, 62-3, 66-7, 71-5, 82, 98, 109, 112.
*Həmçinin bax: SOCAR*
Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) 13, 50
*Azəri* 15-6, 21, 31, 54, 66, 75, 78, 83
*Azəri-Çıraq-Günəşli* xi, 55, 76, 83, 116, 123, 128-9
*Azneft* 4, 131
*Azqaz,* trest 4

## B

*Bakı Baş Qaz İstismar İdarəsi* 10
*Bakı-Ceyhan* 54-5, 87
*Bakı Dərin Özüllər Zavodu* 93, 95
*Bakı Neft Cəmiyyəti* 3
*Bakı-Novorossiysk* 54
*Bakıqaz* 4-5
*Bakı Soveti* 4-5
*Bakı-Supsa* 54, 128
*Bakı-Tbilisi-Ceyhan* 76, 104, 112, 114
*Bakı-Tbilisi-Ərzurum* 90, 112
*Balaxanı-8* 52
*Balaxanı-10* 51-2
Barrozu, Joze Manuel 113
Berstad, Olaf 63
Bərdə 9
Bibiheybət 4, 118-9
Biləsuvar 9
Binəqədi 4
Biqdeli, Əlirza 63
Birrel, Qordon 76, 118
Bloxin, Aleksandr 63
BMT Təhlükəsizlik Şurası 111
Bosniya və Hersoqovina 98, 114
*BOS Shelf* 94-5
*BOTAŞ* 77, 100, 115, 117
Böyük Britaniya 1, 12, 16, 20-4, 26, 39, 63, 80, 87, 89, 92, 109-11
*BP* xi, xvii, 1, 12-25, 32, 37-9, 44, 50-2, 55-6, 63, 65-6, 71, 74, 76-8, 85, 87-91, 94-8, 104, 110, 115, 117-9
Braun, Con 39, 89
*British Council* 111
*Bulgargaz EAD* 101

## C

Cəbrayıl 9
Cəlilabad 8
Cənubi Qafqaz 107
*Cənubi Qafqaz Boru Kəməri* 121
*Cənub Qaz Dəhlizi* 5, 103-4, 109, 113-25, 128
*Chevron* 95
*Çıraq* 18, 22, 27, 37, 49, 60, 72, 74, 81, 84, 86, 89, 92
Counz, Qari 125, 130-1
*CQBK.* Həmçinin bax: *Cənubi Qafqaz Boru Kəməri*

## D

*Dan ulduzu* 34, 51
*Den Norske Stats Olyeselskap A.S.* 12, 16
*DEPA Public Gas Corporation of Greece S.A.* 101
*Dədə Qorqud,* qazma qurğusu 13-4, 34, 38-42, 50-1, 57
Dəmirəl, Süleyman 62
Dövlət Neft Fondu 80, 82, 126
Dramond, Yuan 94
*Duvannı-8-ci mədən* 4

## E

*Elf* 1
*Elf Akiten* 12, 18, 20, 23, 25, 32, 44, 55
Elkind, Conatan 114
*Enel Trade SpA* 101
*E.ON Global Commodities SE* 101, 117
Eqqar, Tim 24
Ermənistan 5
Eskudero, Stenli 63
*Exxon* 33, 89

## Ə

Ələkbərov, Vahid 12, 17, 18
Ələsgərov, Valeh 60
Əliyeva, Mehriban 102
Əliyev, Heydər 9, 13-14, 17-20, 31, 37, 40, 53, 63-70, 74-5, 78-86, 89, 93-95, 98, 102-3, 119-20, 122
Əliyev, İlham 15, 13-4, 21, 69, 97-103, 108-9, 117, 119, 123-4, 127-30
Əliyev, Natiq 12, 18, 52, 60, 68, 80-3, 118
Əsgəran 9
*Əşrəfi* 34, 49
*Əsrin müqaviləsi* 17, 21, 43, 46, 52, 57, 69, 96, 101, 121

## F

Fallovollita, Alessandro 63
Fars körfəzi 6
*Fasilə* 14, 51-3
Finlandiya 51
*Fluxys* 115
Fransa 1, 12, 18, 20, 23, 15-6, 55, 63, 91
Füzuli 9

## G

*Gas Natural Aprovisionamientos SDG S.A.* 101
*GDF SUEZ S.A.* 101
Gəmi Təmiri Zavodu 80
*Gülüstan sarayı* 20-1
*Günəşli* 21, 31, 54, 58, 66, 75, 78
Gürcüstan xv, 1, 5, 54, 63, 67, 76-7, 86, 90, 98-107, 116, 119-20

## H

hasilatın pay bölgüsü sazişi 13, 100, 118
Haşimi, Seyid Əli Əkbər 26
*Hera Trading srl* 102
Heydər Əliyev Mərkəzi 102
Heyq, Uilyam 109
*HİPPS* xiii
Hopvud, Endi 52, 66-70
Houm, Fil 91
*HPBS. Bax:* hasilatın pay bölgüsü sazişi

## X

Xankəndi 9
Xəzər 2, 21-2, 24, 28, 33, 38, 40-3, 45-50, 53, 55, 57-9, 64, 67, 71, 73, 84, 86-7, 92, 95, 103-7, 112, 115, 118, 122
Xorvatiya 98, 105, 107-8, 114, 118

## İ

İran 1, 6-8, 17-20, 23, 25-26, 55
İrəvan 6
*İstiqlal* 13-4, 40, 43-51, 57, 67, 76, 79, 94
İtaliya 63, 111, 112

## J

Jofre, Filip 25

## K

Kavariç, Vladimir 118
Kərimov, Məcid 90
Kinyut, Jan Pyer 63
*Köhnə Çaxnaqlar* 4

## Q

Qacaran 9
Qafan 9
Qala 4
*Qaraçuxur-Suraxanı-Qazanlar* 4
Qaradağ-Qazax-İrəvan 7
*Qaradağ,* qaz-kondensat yatağı 7
Qara şəhər 4
Qaribaşvili, İrakli 107
Qazax 7
Qjiknuri, Damian 118
Qubadlı 9
Quliyev, Rəsul 44, 60, 72

## L

Laçın 9
Lənkəran 8
*Lənkərandəniz-Talışdəniz* 34
Lökbatan 4
London xiii, 17, 65
*LUKoil* 1, 12, 17-8, 20, 23-4, 32, 44, 117

## M

Macarıstan 105, 114
Masallı 8
*Mərhələ-1* 1, 14-5, 91, 120
*Mərhələ-2* 2, 15, 94, 100-2, 116, 118-20
Milanoviç, Zoran 108
Milli Məclis 55, 59, 61
*Mobil* 89
Monteneqro 98, 104, 107-9, 114, 118
Morninqstar, Riçard 114

## N

Naxçıvan-Culfa-Ordubad 9
*Neft Daşları* 64
*NIKO* 117, 138
Norveç 1, 12, 16, 20-4, 26, 39, 55, 63
Novorossiysk 54

## O

*OİEK* 1, 20, 26, 32, 44, 55
Ottinger, Günter 113

## P

*Petronas* 15, 124
Pəhləvi, Rza şah 6, 8
*Plats* 17
Podqornı, Nikolay 8
Prezident sarayı 31, 53, 63, 74

## R

Rama, Edi 106
Riçardson, Bill 14
Rumıniya 105, 114
Rusiya 1, 3, 10, 12, 17-20, 23-6, 54-5, 63, 138

## S

Sabunçu 4
*Saipem* 94
*SDX-1* 13, 14, 50
Səncər, Sidqi 25
Səngəçal terminalı 3, 124
*Shell Energy Europe Limited* 102
*SOCAR* xv, 90-1, 96, 98, 100, 104, 109, 112, 114-7, 119, 123.
*Həmçinin bax: Dövlət Neft Şirkəti, ARDNŞ*
Sovet İttifaqı 6-8, 16

SSRİ Xalq Komissarları Soveti 4
*Star Gulf* 94
*Statoil* 1, 12-3, 16-25, 32, 37-9, 44, 54-5, 117
Suraxanı 3-4

## Ş

Şafrannik, Yuri 24
Şahbuz-Sədərək-Şərur 9
*Şahdəniz hər səhifədə*
*Şahdəniz-1* xiv, 90, 132-3
*Şahdəniz-2* x, xiv, 15, 93-7, 100-8, 113, 115-22
*Şahdəniz-3* 127
*Şahdəniz Alfa* xiv
*Şahdəniz Bravo* xiv
*Şelf-1* 42
*Şelf-2* 42, 57
*Şelf-3* 42, 57
*Şelf-4* 42, 57
*Şelf-5* 13, 34, 38, 42, 45, 50, 57
Şerman, Mayk 32-3, 35, 40, 43
Şimali İrlandiya 109
Şuşa 9

## T

*TANAP. Bax: Trans-Anadolu*
*TAP. Bax: Trans-Adriatik*
Tehran 18
*Teknip Məritaym Ofşor Limited* 91
Tezcan, Qədri Ecvet 63
Tərtər 9
*Təzə Çaxnaqlar* 4
*TMOL* 91
Tomas, Deyvid Rocer 63
*TPAO (Türkiye Petrolleri Anonim Ortaklığı)* 1, 12, 16-20, 22-5, 117
*TPG-500* 15, 91-2
*Trans-Adriatik (TAP)* 102-7, 111-3, 115-6, 119, 122
*Trans-Anadolu (TANAP)* 101-5, 115-6, 119, 122
*Trans-İran* 7
*Trans-Xəzər* 107
Türkiyə x, xii, xv, 12, 15-6, 20-6, 32, 54-5, 62-3, 67, 70, 76-7, 84-5, 90, 92, 94, 98, 100-5, 107, 109, 112-91, 116, 119-20
Türkmənistan 84

## V

Vaşinqton 14, 65-6, 114
Vold, Yohan Nik 59
*Volqa-Don* 86, 92
Voskoboynikov, Nikolay 3
Vrdolyak, İvan 118
Vudvord, Deyvid 65, 74-5, 78-9, 82-5, 89
Vuyanoviç, Filip 108

## W

*Wartsila* 51

## Y

Yaxın Şərq 108
Yevlax-Ağdam-Xankəndi-Gorus-Naxçıvan 9
Yıldız, Taner 112
Yusifzadə, Xoşbəxt 58-60, 72

## Z

Zaqafqaziya Qaz Kəmərləri İdarəsi 6
Zəngilan 9
*Zirə-Şüvəlan* 4
Zığ 91-2